AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

22 APREL 2018-ci il BAZAR № 89 (6122) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## N.İ.Məmmədovun Azərbaycan Respublikasının Baş naziri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Novruz İsmayıl oğlu Məmmədov Azərbaycan Respublikasının Baş naziri təyin edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 21 aprel 2018-ci il.**

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin yeni tərkibi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 5-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin üzvləri aşağıdakı şəxslər təyin edilsinlər:

*1.1.* Azərbaycan Respublikası Baş nazirinin birinci müavini - Yaqub Abdulla oğlu Eyyubov;

*1.2.* Azərbaycan Respublikası Baş nazirinin müavini - Əli Cavad oğlu Əhmədov;

*1.3.* Azərbaycan Respublikası Baş nazirinin müavini - Əli Şamil oğlu Həsənov;

*1.4.* Azərbaycan Respublikası Baş nazirinin müavini - Hacıbala İbrahim oğlu Abutalıbov;

*1.5.* Azərbaycan Respublikasının daxili işlər naziri - Ramil İdris oğlu Usubov;

*1.6.* Azərbaycan Respublikasının energetika naziri - Pərviz Oqtay oğlu Şahbazov;

*1.7.* Azərbaycan Respublikasının ədliyyə naziri - Fikrət Fərrux oğlu Məmmədov;

*1.8.* Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri - Sahil Rafiq oğlu Babayev;

*1.9.* Azərbaycan Respublikasının fövqəladə hallar naziri - Kəmaləddin Fəttah oğlu Heydərov;

*1.10.* Azərbaycan Respublikasının xarici işlər naziri - Elmar Məhərrəm oğlu Məmmədyarov;

*1.11.* Azərbaycan Respublikasının iqtisadiyyat naziri - Şahin Abdulla oğlu Mustafayev;

*1.12.* Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri - İnam İmdad oğlu Kərimov;

*1.13.* Azərbaycan Respublikasının maliyyə naziri - Samir Rauf oğlu Şərifov;

*1.14.* Azərbaycan Respublikasının müdafiə naziri - Zakir Əsgər oğlu Həsənov;

*1.15.* Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri - Ramin Namiq oğlu Quluzadə;

*1.16.* Azərbaycan Respublikasının vergilər naziri - Mikayıl Çingiz oğlu Cabbarov;

*1.17.* Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri - Samir Rafiq oğlu Nuriyev;

*1.18.* Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri - Rövşən Şükür oğlu Rzayev;

*1.19.* Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin rəisi - Elçin İsağa oğlu Quliyev;

*1.20.* Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi - Mədət Qəzənfər oğlu Quliyev;

*1.21.* Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinin rəisi - Orxan Sedyar oğlu Sultanov.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 21 aprel 2018-ci il.**

# Xalq düşünülmüş siyasətə, dinamik inkişafa və yüksək beynəlxalq nüfuza səs verdi

**Azərbaycanda 2003-2018-ci illərdə neft və qeyri-neft sektoruna aid müxtəlif dünya səviyyəli layihələr uğurla həyata keçirilib, nəticədə olduqca geniş beynəlxalq əməkdaşlıq yaranıb, ölkəmiz regional iqtisadi-siyasi güc, Avrasiya məkanında çox əhəmiyyətli geosiyasi mövqe qazanıb. Bu mühüm nailiyyətlər dövlət rəhbərliyinin düşünülmüş məqsədyönlü siyasəti və düzgün strateji kursunun reallaşması nəticəsində əldə edilib. Azərbaycan bu müvəffəqiyyətli yekunlarla prezident seçkilərinə gedib. El gözü tərəzidir deyiblər. Xalqımız prezidentliyə 8 namizəddən ən layiqli - hazırkı milli-dini zəmindəki müharibə, toqquşmalar, beynəlxalq iqtisadi, siyasi, sosial kataklizmlər şəraitində pozitiv yekunla nəticələnən siyasi kursu reallaşdıran namizədi seçməli idi. Aparılan "exit-pool"ların nəticələrinə görə ulu öndərin ən layiqli davamçısı İlham Əliyev rəyi soruşulanların içərisində 80 faizlə ilk yerdə idi. Seçkidə də bu sorğu özünü doğrultdu, Mərkəzi Seçki Komissiyasından verilən məlumata görə İlham Heydər oğlu Əliyev 86,02 faiz səslə prezident seçkilərində qələbə qazanıb. Təbii ki, bu böyük üstünlüklə baş verən seçim, düşünülmüş siyasətlə ölkənin iqtisadi, siyasi və sosial inkişafının təmin edilməsi, yüksək beynəlxalq imic qazanması sayəsində əldə edilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimindəki nitqində ilk dəfə dövlət başçısı seçilərkən verdiyi vədlərə əməl edildiyi və ulu öndərin siyasi kursuna sədaqət nəticəsində hərtərəfli inkişafa nail olunduğu, ölkəmizin müstəqillik yolunun təmin edildiyi, xalqın da bu siyasəti dəstəklədiyi və bu yolun alternativsizliyi barədə deyib: "Mən 2003-cü ildə, prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə xalq etimad göstərərsə, mən ulu öndər Heydər Əliyev siyasətinə sadiq qalacağam, bu siyasəti davam etdirəcəyəm. Mən fəxr edirəm ki, xalq mənə inandı, məni dəstəklədi və mən də öz növbəmdə sözlərimə əməl etdim. Son 15 il ərzində Azərbaycanda hərtərəfli inkişaf təmin edilmişdir. Bunun əsas şərti ondan ibarətdir ki, biz Ulu Öndərin yolu ilə gedirik. Onun qoyduğu yol yeganə düzgün yoldur və Azərbaycanın müstəqillik tarixi bunun əyani sübutudur".

Fenomen siyasətçi, uzaqgörən dövlət rəhbəri Heydər Əliyevin milli neft strategiyası həm öz neft və qazının, həm də Mərkəzi Asiyanın karbohidrogen ehtiyatlarının Azərbaycan ərazisi vasitəsilə Avropa bazarlarına çıxarılması, beləliklə də ölkəmizin mühüm beynəlxalq hasilatçı, istehsalçı və tranzit qovşağına çevrilməsini nəzərdə tuturdu. Bu, Azərbaycanı regionda mühüm iqtisadi, siyasi mərkəzə çevirməklə yanaşı, onun siyasi nüfuz və qüdrətinin artmasına, həm də müstəqilliyinin möhkəmlənməsinə güclü təməl yaradacaqdı. 1994-cü il sentyabr ayının 20-də Bakıda dünyanın 11 transmilli neft şirkətinin iştirakı ilə "Əsrin müqaviləsi" imzalandı. Bu sazişlə MDB məkanında Xəzər dənizi hövzəsində ilk beynəlxalq strateji iqtisadi, siyasi əməkdaşlığın bünövrəsi qoyuldu. Bu kontraktın reallaşmasının nəticəsi olaraq Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz ixrac boru kəmərləri inşa edildi və Azərbaycan iqtisadiyyatının dirçəldilməsinə, çoxşaxəliliyinə zəmin yarandı. Hər bir ictimai-siyasi formasiyada iqtisadiyyat bazisdir. Onun gətirdiyi maliyyə vəsaiti sayəsində geniş, lazımi islahatlar aparılır və müvafiq layihələr icra olunur. Bu gün Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi xətt, strateji kurs Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən müasir dövrün çağırışlarına müvəffəqiyyətlə cavab verməklə həyata keçirilir və mükəmməl bir konsepsiya kimi diqqəti cəlb edir. Hazırda Azərbaycanın milli maraqları ehtiva edən dövlət quruculuğu və intensiv innovativ sosial-iqtisadi inkişafı ölkəni bölgənin qüdrətli dövləti səviyyəsinə çatdırıb.

Düşünülmüş siyasətlə neftdən gələn gəlirin qeyri-neft sektorunun inkişafına yönəldilməsilə artıq iqtisadi inkişafda çox böyük nailiyyətlərə də imza atılmış, enerji, ərzaq və nəqliyyat təhlükəsizliyi təmin edilmişdir. Beləliklə, ölkəmiz dünyanı bürümüş iqtisadi və maliyyə böhranından ən az zərər çəkmiş və iqtisadi inkişafını davam etdirmişdir. Ölkə Prezidenti İlham Əliyev Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icrasına həsr olunmuş konfransdakı giriş nitqində ötən dövrdə davamlı, yüksək templi inkişafın əsas səbəbləri barədə demişdir ki, Azərbaycanda bu gün davam edən hərtərəfli inkişafın səbəbi düşünülmüş siyasətlə aparılan islahatlar, reallaşdırılan müasir layihələrdir.

Bu gün Azərbaycanda uzaqgörənliklə müəyyənləşdirilən strategiya ölkəmizin hərtərəfli inkişafına imkan verir. Dövlətin siyasətini dəstəkləyən xalq öz gələcəyinə çox nikbinliklə baxır. Bunun əsas səbəbi aparılan müstəqil iqtisadi siyasətdir, ölkənin iqtisadi gücüdür və rəhbərliyin qətiyyətli siyasi iradəsidir.

Heydər Əliyevin müəllifi olduğu Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri beynəlxalq əməkdaşlığın mühüm, səmərəli nümunəsidir. Orta və Mərkəzi Asiyadan tutmuş Avropanın aparıcı dövlətlərini və transmilli qurumları bir araya gətirmiş bu kəmərin iqtisadi, siyasi-coğrafi əhəmiyyəti, sosial-iqtisadi inkişafa və regional sabitliyə verdiyi dividendlər dünyanın ən mühüm kürsülərində etiraf edilməkdədir. BTC və BTƏ kəmərlərinin istismarı, həm də Azərbaycanın Avrasiya materikində ən mühüm təhlükəsiz və səmərəli enerji dəhlizi olmasını da sübut etmişdir.

Azərbaycan zəngin qaz yataqlarına malikdir və iri ehtiyatlara malik ölkələr sırasına daxildir. Dünya dövlətlərinin iqtisadiyyatının inkişafında, dayanıqlığında həyati rol oynayan karbohidrogen ehtiyatları ilə fasiləsiz və təhlükəsiz təminat mühüm yer tutur. BTC və BTƏ kəmərlərinin istismarı, Azərbaycanın neft-qaz sektorunda tərəfdaşlığının perspektivliyini sübut etmişdir. Ötən dövrdəki fasiləsiz təchizat, dövlətlərin iqtisadi, sosial və siyasi həyatlarında bu istiqamətdə problemlərin yaşanmaması neft-qaz sahəsinə həm daxili, həm də xarici investisiyaların yatırılmasına stimul verən amillərdən biridir. Bu pozitiv proses imkan verib ki, Azərbaycanın xeyrinə "Əsrin müqaviləsi"nin müddəti 2050-ci ilədək artırsın. Dövlət başçısı Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında kontraktın müddətinin uzadılmasının ölkəmizə faydası barədə deyib: "2017-ci ildə energetika sahəsində tarixi hadisələr baş vermişdir. Onlardan biri "Azəri-Çıraq-Günəşli" yatağı üzrə kontraktın müddətinin 2050-ci ilə qədər uzadılması məsələsidir. Bu, bizə imkan verəcək ki, bundan sonra uzun illər ərzində - ən azı 2050-ci ilə qədər hasilat səviyyəsi sabit qalsın. Bu, imkan verəcək ki, Azərbaycanın neft sektoruna xarici investorlar tərəfindən bundan sonra da böyük həcmdə sərmayə qoyulsun. Burada söhbət on milyardlarla dollardan gedir. Əlbəttə ki, bu investisiyalar iqtisadiyyatımızın bütün sahələrinə öz müsbət təsirini göstərəcək, yeni iş yerlərinin, yeni yerli müəssisələrin yaradılması nəzərdə tutulur. Əlbəttə, neft hasilatının sabit saxlanması imkan verəcək ki, biz öz iqtisadi inkişafımızı planlaşdıraq və tədricən bundan sonra da neftdən asılılığı azaldaq. Son iki il ərzində biz buna demək olar ki, böyük dərəcədə nail olmuşuq". Hazırda yeni kəşf edilən yataqlar, tikilən platformalar, qazılan quyular ölkənin enerji potensialının yüksək olduğunu göstərir və daim artırır.

Azərbaycanın lideri olduğu XXI əsrin nəhəng qaz ixracı boru kəməri layihəsi TANAP-ın icrası bu il başa çatacaqdır. Təbii ki, bu layihənin təməlində BTC və BTƏ kəmərlərinin istismarının uğurları dayanır. Hazırda Azərbaycan Avropa ilə Asiya arasında həm mühüm tranzit, həm də nəqliyyat qovşağına çevrilib. Qazaxıstan və Türkmənistanın karbohidrogen ehtiyatları BTC və BTƏ kəmərləri vasitəsilə Türkiyəyə və Avropaya çatdırılır. Dünya ölkələri ilə əməkdaşlıqda qazanılan iqtisadi, siyasi və sosial dividendlər digər ölkələrin maraqlarını da Azərbaycana yönəldir. Ötən il oktyabrın 30-da açılışı olmuş Avropa və Asiyanı birləşdirən, hazırda istismara olan Bakı-Tbilisi-Qars dəmir yolu da iki qitə dövlətlərinin iqtisadi əməkdaşlığına geniş şərait yaradacaq və mənafelərinə uyğundur.



Göründüyü kimi, Azərbaycanda real iqtisadiyyatın sahələri davamlı inkişaf yolundadır və ölkəmizin təşəbbüsçüsü, təşkilatçısı, iştirakçısı olduğu müasir layihələrin reallaşmasının sayı da durmadan artır. İqtisadiyyatın şaxələndirilməsi, təsərrüfat sahələrinin davamlı inkişafı daxili bazarın təminini yüksəltməklə yanaşı, güclü ixrac potensialının yaranmasını, iqtisadiyyatın beynəlxalq iqtisadi dövriyyəyə ilbəil daha çox məhsul çeşidləri ilə qoşulmasını və həmin müvafiq sahələrin də davamlı inkişafını stimulə edir. Bununla bərabər, daim güclənən beynəlxalq əməkdaşlıq həm də bölgədə sülhün, sabitliyin qorunmasına töhfə verdiyini və nə dərəcədə zəruri olduğunu da sübut etmişdir.

Azərbaycanın dinamik innovativ inkşafı dünyanın nüfuzlu təşkilatlarının da diqqət mərkəzindədir. Prezident İlham Əliyev regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının dördüncü ilinin yekunlarına həsr olunan konfransdakı nitqində iqtisadiyyatın inkişafına heç bir maneə olmadığı, dinamizmin qorunmasına beynəlxalq qurumların verdiyi qiymət barədə deyib: "Deyə bilərəm ki, bütövlükdə ölkə iqtisadiyyatının inkişafı ilə bağlı heç bir problem yoxdur. Maliyyə vəziyyətimiz çox sabitdir, müsbətdir. Beynəlxalq qurumlar Azərbaycandakı islahatları yüksək qiymətləndirirlər. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, beynəlxalq reytinq agentlikləri bizdə aparılan islahatları yüksək qiymətləndirirlər. Davos Dünya İqtisadi Forumu rəqabətqabiliyyətliliyinə görə Azərbaycanı 35-ci yerə layiq görüb. Dünya miqyasında 35-ci yeri tutmaq, MDB məkanında isə birinci olmaq çox böyük nəticədir. İnklüziv inkişaf indeksinə görə, Azərbaycan inkişafda olan ölkələr arasında üçüncü yerdədir. Bu siyahıda cəmi 80-ə yaxın ölkə var. Onu da qeyd etməliyəm ki, biz MDB məkanında bu göstəriciyə görə də birinci yerdəyik. Ermənistana gəldikdə isə o, 45-ci yerdədir və buna görə də çox sevinir, toy-bayram edir. Biz isə üçüncü yerdəyik və bizdən qabaq ancaq inkişaf etmiş ölkələrdir, onların da sayı 30-dur. İnkişaf etmiş ölkələrin reytinqinə 30 ölkə daxil edilib və 80-ə yaxın ölkə inkişafda olan ölkədir. İnkişafda olan ölkələr arasında biz üçüncü yerdəyik. Deməli, dünya miqyasında inklüziv inkişaf indeksinə görə biz 33-cü yerdəyik. Rəqabətqabiliyyətliliyə görə isə 35-ci yerdəyik".

**(davamı 2-ci səhifədə)**

## N.İ.Məmmədovun Azərbaycan Respublikası Prezidentinin xarici siyasət məsələləri üzrə köməkçisi - şöbə müdiri vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Novruz İsmayıl oğlu Məmmədov Azərbaycan Respublikası Prezidentinin xarici siyasət məsələləri üzrə köməkçisi - şöbə müdiri vəzifəsindən azad edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 21 aprel 2018-ci il.**

## H.İ.Abutalıbovun Bakı Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

**1.** Hacıbala İbrahim oğlu Abutalıbov Bakı Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 21 aprel 2018-ci il.**

## S.R.Nuriyevin Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Samir Rafiq oğlu Nuriyev Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin İdarə Heyətinin sədri vəzifəsindən azad edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 21 aprel 2018-ci il.**

## İ.İ.Kərimovun Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** İnam İmdad oğlu Kərimov Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri vəzifəsindən azad edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 21 aprel 2018-ci il.**

## S.R.Babayevin Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Sahil Rafiq oğlu Babayev Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini vəzifəsindən azad edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 21 aprel 2018-ci il.**

# Prezidentin mətbuat xidmətinin məlumatı

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 21-də Artur Rasi-zadənin uzun illər dövlət qulluğunda yüksək vəzifələrdə səmərəli fəaliyyət göstərdiyini qeyd edərək onun ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə həm sovetlər dövründə, həm də müstəqillik illərində Azərbaycanın inkişafı yolunda əzmlə çalışdığını bildirib. Qeyd olunub ki, Artur Rasi-zadə dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə də müstəqilliyimizin daha da möhkəmləndirilməsi və ölkəmizin böyük uğurlar qazanması istiqamətində səylərini əsirgəməyib.

Artur Rasi-zadə fəaliyyətinə verdiyi yüksək qiymətə görə dövlətimizin başçısına minnətdarlığını bildirərək qeyd edib ki, xalqımızın ümummilli lideri Heydər Əliyev kursunu uğurla davam etdirən İlham Əliyevin prezidentlik fəaliyyəti dövründə ölkəmiz sosial-iqtisadi sahənin bütün istiqamətlərində misli görünməmiş nailiyyətlər əldə edib və beynəlxalq aləmdə böyük nüfuz qazanıb.

Prezident İlham Əliyev Artur Rasi-zadəyə Baş nazir vəzifəsində gördüyü işlərə görə təşəkkürünü bildirib.

Artur Rasi-zadə göstərilən qayğı və diqqətə görə dövlətimizin başçısına bir daha minnətdarlığını bildirib. O, Prezident İlham Əliyevə xalqımızın rifahı və firavanlığı naminə gələcək fəaliyyətində yeni-yeni uğurlar arzulayıb.

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Çox hörmətli cənab Prezident.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Zati-alinizi təbrik edir, Azərbaycanın, türk dünyasının və İslam aləminin ali mənafeyi uğrunda həyata keçirdiyiniz yüksək fəaliyyətinizin bundan sonra da davam edəcəyinə ürəkdən inanıram.

Ölkənizə və xalqınıza göstərəcəyiniz xidmətlərin davamlı olacağı düşüncəsi və inamı ilə Sizə salamlarımı, təbriklərimi və ehtiramımı çatdırıram.

*Hörmətlə*

**Professor Seyit Aydın**
**Türkiyənin Kastamonu Universitetinin rektoru**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi və bütün xalqımızı səmimi qəlbdən təbrik edirik.

Cənab Prezident, Benilüks Azərbaycanlıları Konqresi hər zaman Sizin yürütdüyünüz daxili və xarici siyasəti dəstəkləyib və bundan sonra da dəstəkləməyə davam edəcəkdir.

Möhtərəm Prezident, Sizə bir daha möhkəm cansağlığı, xoşbəxtlik, davamlı uğurlar, xalqımıza isə xeyir-bərəkət və əmin-amanlıq arzu edirik.

Xahiş edirik, səmimi salamlarımızı və ən yüksək ehtiramımızı qəbul edin.

*Hörmətlə,*

**Elsevər Məmmədov**
**Benilüks Azərbaycanlıları Konqresinin sədri**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Çox hörmətli Prezident.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi Estoniyadakı Azərbaycan İcması və "Bakılılar klubu" adından ürəkdən təbrik edirik.

Cənab Prezident, Sizə Azərbaycan Respublikasının və diasporunun daha da inkişaf etməsi yolunda yeni-yeni uğurlar diləyirik.

*Ən xoş arzularla,*

**Eldar Əfəndiyev**
**"Bakılılar klubu"nun sədri,**
**Niyazi Hacıyev**
**Estoniya Azərbaycan**
**Mədəniyyət Mərkəzinin sədri**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Çox hörmətli İlham Heydər oğlu.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi Rusiyanın Rostov vilayətində yaşayan azərbaycanlılar icması adından və şəxsən öz adımdan təbrik edirəm.

Sizin qayğınız və müdrik rəhbərliyiniz sayəsində Azərbaycan Respublikası gündən-günə inkişaf edir, sosial, iqtisadi, dini-mənəvi sahələrdə yeni-yeni nailiyyətlər qazanır. Siz Azərbaycanın gələcəyi naminə mühüm dövlət islahatlarını uğurla həyata keçirməyə müvəffəq olursunuz.

Rusiya-Azərbaycan münasibətlərinin möhkəmlənməsinə Sizin şəxsi töhfənizi biz yüksək dəyərləndiririk. Azərbaycan Respublikası ilə Rostov vilayəti arasında dostluq əlaqələrinin və işgüzar tərəfdaşlığın inkişafına diqqət və dəstəyinizə görə Sizə xüsusi minnətdarlığımızı bildirmək istərdik.

Hörmətli İlham Heydər oğlu, Sizə səmimi qəlbdən möhkəm cansağlığı, ali dövləti vəzifənizdə qarşınızda duran məsələlərin həlli yolunda uğurlar arzulayırıq.

*Hörmətlə,*

**Şakir Allahverdiyev**
**Rusiyanın Rostov vilayətində yaşayan azərbaycanlılar icmasının sədri**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Cənab Prezident.

Dövlətlərimiz arasındakı münasibətlərin daha da möhkəmləndiyi bir dövrdə yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirik.

Zati-aliləri, Sizə ali dövləti vəzifənizin icrasında uğurlar diləyir, Azərbaycan xalqına sülh, firavanlıq və rifah arzularımızı ifadə edərək, hörmət və ehtiramla ən xoş salamlarımızı və təbriklərimizi çatdırırıq.

*Hörmətlə,*

**Stefano Palmieri,**
**Matteo Çiaççi**
**San-Marino Respublikasının**
**Kapitan Regentləri**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli Prezident.

Azərbaycan xalqının inamını qazanaraq yenidən prezident seçilməyiniz münasibətilə Misir-Azərbaycan qardaşlıq Assosiasiyasının üzvləri Zati-alinizə səmimi təbriklərini çatdırmaqdan xoşbəxtlik duyur.

Bizi o da sevindirir ki, Sizin seçkilərdə qələbəniz Misirdə Prezident Əbdül-Fəttah əs-Sisinin yeni prezidentlik müddətinə seçilməsi ilə eyni vaxta təsadüf etmişdir. Misir xalqı tam əmindir ki, Zati-aliniz Misir və Azərbaycan xalqları arasındakı qardaşlıq və dostluq münasibətlərinin daha da dərinləşməsi üçün çalışacaq.

Assosiasiyanın üzvləri Qarabağda qardaş Azərbaycanın ərazi bütövlüyünün təmin olunması üçün göstərdiyiniz yorulmaz səylərinizi dəstəkləyir və hesab edirlər ki, məhz bu səylər Qafqazda sülhə aparan yolu özündə təcəssüm etdirir.

Paytaxtı Şərqi Qüds olmaqla müstəqil Fələstin Dövlətinin qurulması yolunda Fələstin xalqının hüquqlarını dəstəkləməyiniz uğrunda mübarizə apardığınız prinsipial mövqelərinizin daha bir təsdiqidir.

Zati-aliləri,

Biz Misirdə terrora qarşı rəşadət və şərəflə mübarizə aparırıq. Tarixin Misir üçün yazısı bu olmuşdur ki, beynəlxalq terrora sinə gərsin və onu məğlub etsin.

Hörmətli Prezident, Assosiasiya üzvləri Azərbaycan xalqının Sizi yenidən Prezident seçməsini sevinclə qeyd edir və təsdiqləyirlər ki, müştərək tale, ədalət, qanuna söykənən hüquqlar, birgə əməkdaşlıq üzərində qurulmuş və sülhün hökm sürəcəyi dünya uğrunda mübarizə xalqlarımızı bir-birinə daha sıx birləşdirir.

Cənab Prezident,

Sizi səmimi qəlbdən təbrik edir, daim müvəffəqiyyət arzulayırıq. Allah yolunuzu Mübarək etsin, Rəbbimiz Sizi qorusun. Sizə və qardaş Azərbaycan xalqına xoşbəxtlik diləyirik.

Ali ehtiramımızı qəbul etməyinizi xahiş edirik.

**Doktor Əbdür-Rəhman Əli Saad**
**Cəmiyyətin İnkişafı Naminə Misir-Azərbaycan Qardaşlıq Assosiasiyasının baş katibi**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Sizi Azərbaycan Respublikası Prezidenti seçkilərində inamlı qələbəniz münasibətilə "Karabakh Vienna" Futbol Klubu İdarə Heyətinin kollektivi adından və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edirəm.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdiyi ilk illərdən ulu öndərimiz Heydər Əliyev ölkəmizdə idmanın inkişafını və idman vasitəsi ilə Azərbaycan Respublikasının dünyada tanıdılmasını prioritet istiqamət olaraq müəyyənləşdirmiş və bu siyasət Sizin tərəfinizdən uğurla davam etdirilmişdir.

Azərbaycan xalqının Sizə göstərdiyi yüksək etimad Sizin xidmətlərinizin və nailiyyətlərinizin, ölkəmizin iqtisadi qüdrətinin artmasına, beynəlxalq arenada nüfuzunun yüksəldilməsinə, mədəni-mənəvi dəyərlərimizin qorunub saxlanılmasına yönəlmiş siyasi kursunuzun təntənəsinin sübutudur.

Cənab Prezident, ali dövlət fəaliyyətinizdə Sizə yeni-yeni uğurlar, xalqımıza sülh və firavanlıq arzu edirəm.

*Hörmətlə,*

**Orxan Vəliyev**
**Avstriyanın Vyana şəhərindən**
**"Karabakh Vienna" Futbol Klubu**
**İdarə Heyətinin prezidenti**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli Prezident İlham Əliyev.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi NATO-nun baş katibi adından təbrik edirəm.

NATO ilə Azərbaycan Respublikası arasında münasibətlərin qurulması 25 il bundan əvvələ təsadüf edir və bu əməkdaşlığımızın əhəmiyyəti indiyə qədər durmadan artır. Biz sülhməramlı əməliyyatlarda Azərbaycanın rolunu, xüsusən də Sizin keçən ilin sonunda NATO-nun "Qətiyyətli Dəstək" missiyası çərçivəsində Azərbaycan sülhməramlılarının sayının artırılması barədə verdiyiniz qərarı yüksək qiymətləndiririk. Həmçinin Sizin Şimali Atlantika Alyansı ilə Azərbaycanın "Fərdi Tərəfdaşlıq üzrə Fəaliyyət Planı" çərçivəsində dinamik siyasi dialoq və praktiki əməkdaşlıq istiqamətində fəaliyyətinizi alqışlayırıq.

NATO baş katibinin Qafqaz üzrə xüsusi nümayəndəsi kimi, qarşıdan gələn illərdə də Şimali Atlantika Alyansı ilə Azərbaycan arasında əməkdaşlığı və dialoqu daha da inkişaf etdirmək niyyətindəyəm.

*Hörmətlə,*

**Ceyms Appaturay**
**NATO baş katibinin xarici işlər və təhlükəsizlik siyasəti üzrə köməkçisinin müavini**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm İlham Heydər oğlu.

"Azİz" İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyası Sizi yenidən Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə səmimi qəlbdən təbrik edir.

Siz müstəqil Azərbaycana rəhbərlik etdiyiniz son 15 ildə regionda sabitliyin və rifahın, intensiv inkişaf edən iqtisadiyyatın, Azərbaycanın müxtəlif dövlətlərlə, o cümlədən İsrail ilə dostluğunun və qarşılıqlı faydalı əməkdaşlığının möhkəmlənməsinin qarantı olmusunuz.

Siz dövlət başçısı olduğunuz müddətdə öz sələfiniz, Azərbaycan xalqının ümummilli lideri, güclü və müstəqil Azərbaycan Respublikasının təməlini qoymuş Heydər Əliyevin müdrik siyasətini davam etdirərək özünüzü mütərəqqi, ölkənizi və xalqınızı işıqlı gələcəyə uğurla aparan uzaqgörən və çevik siyasi xadim kimi göstərmisiniz.

Rəmzi haldır ki, Sizin prezident seçkilərində qələbəniz Beynəlxalq Kosmonavtika və Aviasiya Günü, həmçinin "Azİz" İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyasının yaradılmasının ildönümü günü ilə eyni vaxta düşüb. Bu fakt İsraildə Azərbaycan icmasını təmsil edən hər kəsi sevindirir.

Hörmətli İlham Heydər oğlu, "Azİz" İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyası İsrailin Azərbaycan icması adından Sizi ürəkdən dəstəklədiyini bildirir və seçkilərdə qələbəniz münasibətilə bir daha səmimi qəlbdən təbrik edir. Sizə möhkəm cansağlığı, Azərbaycan xalqına və dövlətinə xidmətlərinizdə yeni-yeni uğurlar arzulayırıq.

*Hörmətlə,*

**"Azİz" İsrail-Azərbaycan Beynəlxalq Assosiasiyasının İdarə Heyəti**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi Ukrayna Azərbaycanlıları Gənclər Birliyi adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.

Əminəm ki, Sizin rəhbərliyinizlə Azərbaycan siyasi, iqtisadi və humanitar sahələrdə, habelə beynəlxalq arenada daha böyük nailiyyətlər qazanacaq.

Ümidvaram ki, insan kapitalının prioritetliyi və uğurlu gənclər strategiyası Sizin dövlət siyasətinizdə bundan sonra da davam etdiriləcək və tarixi Vətənimizin gələcək nəsillərinin mütərəqqi inkişafı üçün zəmin olacaq.

Azərbaycan ilə Ukrayna arasında strateji tərəfdaşlıq münasibətlərinin bundan sonra da inkişaf edəcəyinə əminəm.

Ukraynada yaşayan Azərbaycan gəncləri bu ölkədə Azərbaycanın müsbət imicinin möhkəmlənməsi, Ukrayna və Azərbaycan xalqları arasında qarşılıqlı dostluq münasibətlərinin fəal inkişafı üçün səylərini əsirgəməyəcəklər.

Doğma Azərbaycan xalqına Qarabağ və ətraf rayonlar da daxil olmaqla, ölkəmizin bütün ərazisində sülh, əmin-amanlıq və firavanlıq arzulayıram.

Bir daha Sizə öz dərin ehtiramımı ifadə edirəm.

*Hörmətlə,*

**İlhamə Allahverdiyeva**
**Kiyev şəhərindəki Ukrayna Azərbaycanlıları Gənclər Birliyinin rəhbəri**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm. Bu, olduqca gözəl bir nailiyyətdir.

San Dieqo on ildən artıqdır ki, Bakı şəhərinin Nəsimi rayonu və Azərbaycan Respublikasının ABŞ-ın Los-Anceles şəhərindəki Baş Konsulluğu ilə mədəniyyət və təhsil sahələrində qarşılıqlı faydalı əməkdaşlıq edir.

Bu əməkdaşlıq Azərbaycanın təhsil sahəsində çalışan mütəxəssislərinin ABŞ Dövlət Departamentinin gənc liderlər üçün proqramı çərçivəsində Birləşmiş Ştatlara səfəri nəticəsində yaranmışdır. Proqramda iştirak edən gənc liderlərdən biri şəhərimizin qonağı olmuş və bu müddət ərzində o, bizim böyük hörmətimizi və rəğbətimizi qazanmışdır.

On ildən artıq davam edən tərəfdaşlığımız hazırda ən yüksək səviyyədədir. Fəxrlə deyə bilərik ki, bu müddət ərzində biz birlikdə müxtəlif uğurlu layihələr, o cümlədən konsertlər, mühazirə və səfərlər həyata keçirmişik.

Dostluq etimad yaradaraq qarşılıqlı hörmətə və anlaşmaya aparır. Azərbaycandan çox uzaqda olmağımıza baxmayaraq, Sizin ölkənizlə belə gözəl əlaqələrə sahib olduğumuz üçün özümüzü şanslı hesab edirik. Bu, ölkələr arasında körpü quruculuğunun ən yüksək nümunəsidir.

Sizi Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə bir daha təbrik edir, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və yeni prezidentlik müddətinizdə daim uğurlar arzu edirik.

*Dərin hörmətlə,*

**Martin Kruminq**
**ABŞ-ın Kaliforniya ştatındakı San Dieqo-Bakı Dostluq Assosiasiyasının sədri**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Aprelin 11-də Azərbaycan xalqının Zati-alinizi böyük səs çoxluğu ilə yenidən prezident seçməsi xalqın etimad və sabitliyin daha da möhkəmlənərək davam etməsi istəyini nümayiş etdirib.

Cənab Prezident, Azərbaycan dövlətinin, onun xalqının birliyinin təminatçısı olan Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edir, Sizə dərin ehtiramımı bildirirəm.

*Dərin hörmətlə,*

**Ahmet Ayık**
**Sərbəst güləş üzrə Olimpiya, ikiqat Dünya və Avropa, onqat Türkiyə çempionu**

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

Çox hörmətli cənab Prezident.

Bizim üçün çox sevindirici haldır ki, Azərbaycan xalqı 2018-ci il aprelin 11-də öz iradəsini ifadə edərək növbəti dəfə Sizin Prezident seçilməyinizə səs verdi. Bu isə o deməkdir ki, Azərbaycan xalqı təhlükəsizliyə və uğurlu inkişafa səs verdi.

Dünyada gedən proseslərin dinamikası və torpaqlarımızın işğal altında olması ölkə rəhbərliyindən dəmir iradə və müdrik siyasət tələb edir. Sayı əlli milyondan artıq olan azərbaycanlılar bu keyfiyyətləri Sizin şəxsinizdə görür və Sizə etimad göstərirlər. Rusiyada fəaliyyət göstərən "Heydər Əliyev adına Beynəlxalq Azərbaycan Forumu"nun və "Türkdilli Xalqlarla Slavyan Xalqları Arasında "SODRUJESTVO" Fondu"nun əməkdaşları Sizi seçkilərdə yenidən parlaq qələbə qazanmağınız münasibətilə ürəkdən təbrik edir, möhkəm cansağlığı və bütöv Azərbaycan naminə mübarizədə uğurlar arzulayırlar.

İnanırıq ki, əsasını ulu öndər Heydər Əliyevin qoyduğu dövlətçilik ənənələri, azərbaycançılıq ideyaları, Azərbaycanın davamlı iqtisadi inkişafı, ən əsası isə düşmən tapdağı altında olan torpaqlarımızın azad edilməsi istiqamətində görəcəyiniz bütün işləri bundan sonra da fəal davam etdirəcək və yeni-yeni parlaq qələbələr qazanmaqla Vətənimizin davamlı inkişafına nail olacaqsınız.

Sizi əmin edirik ki, təkcə bizim ictimai-siyasi təşkilatların deyil, həmçinin Rusiya Federasiyasının müxtəlif regionlarında fəaliyyət göstərən diaspor təşkilatlarının ətrafına toplaşmış minlərlə azərbaycanlı Sizin daxili və xarici siyasətinizi hər zaman dəstəkləyir, Heydər Əliyev siyasi kursunun uzunömürlü olması üçün bundan sonra da onun layiqli davamçısı kimi Sizin bütün istiqamətlərdə apardığınız işlərdə həmişə yanınızda olacaqdır.

Parlaq qələbə münasibətilə Sizi, Azərbaycan vətəndaşlarını, dünya azərbaycanlılarını və bütün türk dünyasını bir daha səmimi qəlbdən təbrik edirik.

*Hörmətlə,*

**Mirkazım Seyidov**
**"Türkdilli Xalqlarla Slavyan Xalqları Arasında "SODRUJESTVO" Fondu"nun prezidenti,**
**Rusiya, Novosibirsk şəhəri**

# Xalq düşünülmüş siyasətə, dinamik inkişafa və yüksək beynəlxalq nüfuza səs verdi

**(əvvəli 1-ci səhifədə)**

Bu mövqe davamlı innovativ inkişafın bəhrəsidir. Bundan başqa, bu dəyərləndirmə ölkə iqtisadiyyatının dayanıqlığının göstəricisidir. Ölkəmizin maliyyə vəziyyəti çox sabitdir, yəni bu gün Azərbaycan 44 milyard ABŞ dollarından çox strateji maliyyə vəsaitinə malikdir. Bu da dövlətin iqtisadi və maliyyə vəziyyətinin müstəqilliyini şərtləndirən əsas amillərdən biridir. Bu resursları heç bir ölkədən kömək almayan dövlət özü yaradıb və təbii ki, Azərbaycan xalqının ölkə başçısının düşünülmüş siyasətini dəstəkləməsi və istedadı nəticəsində.

Azərbaycan həm ikitərəfli müstəvidə, həm regional formatda, həm də çoxtərəfli formatda uğurlu xarici siyasət aparır. Beynəlxalq təşkilatlarla münasibətləri artıq oturuşmuş əlaqələrdir, qarşılıqlı hörmət, qarşılıqlı inam, qarşılıqlı maraqlar üzərində qurulmuş əməkdaşlıq olduğu da özünü təsdiq etməkdədir. Azərbaycanın əldə etdiyi bu günədək hərtərəfli inkişaf, yüksək beynəlxalq siyasi nüfuz və sabitlik məhz iqtidar-xalq birliyi nəticəsində əldə edilib. Dövlət başçısı andiçmə mərasimində hərtərəfli inkişafın dinamizminin qorunacağı, xalq-iqtidar birliyinin ölkəmizin müstəqilliyini və dövlətimizin qüdrətini daha da artıracağı barədə deyib: "Güclü siyasi iradə, böyük maliyyə resurslarımız var. Biz bu maliyyə resurslarını öz əlimizlə yaratmışıq və biz indi öz hesabımıza yaşayırıq. Xalq-iqtidar birliyi var. Ona görə mən əminəm ki, bütün Azərbaycan xalqı və biz hamımız gələcəyə çox böyük nikbinliklə baxırıq. Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar. Çıxışımın sonunda bir məsələni də qeyd etməliyəm. Bütün bu uğurlar ancaq müstəqillik dövründə mümkün olmuşdur. Azərbaycan xalqı bir daha görür ki, müstəqilliyimizin üstünlükləri nədən ibarətdir. Bizim taleyimiz öz əlimizdədir, biz öz taleyimizin sahibiyik. Biz ancaq müstəqillik dövründə belə böyük uğurlara nail ola bilərdik. Bu gün müstəqillik bizim üçün ən böyük sərvətdir, ən böyük nemətdir, ən böyük xoşbəxtlikdir. Biz bundan sonra da müstəqillik və qələbələr yolu ilə gedəcəyik".

**Ataş CƏBRAYILOV,**
**"Respublika".**

# Milli Məclis Novruz Məmmədovun Azərbaycanın Baş naziri vəzifəsinə təyin olunmasına razılıq verib






**Aprelin 21-də Azərbaycan Respublikası Milli Məclisinin növbəti plenar iclası keçirilib.**

AZƏRTAC xəbər verir ki, iclası açan Milli Məclisin sədri Oqtay Əsədov aprelin 11-də demokratik və şəffaf şəraitdə keçirilmiş prezident seçkilərində İlham Əliyevin yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsinin dövlətimizin başçısının xalqımız qarşısındakı əvəzsiz xidmətlərinə verilən yüksək qiymətin və ona sonsuz inamın ifadəsi olduğunu söyləyib.

Parlament sədri Milli Məclis adından Prezident İlham Əliyevi təbrik edib və dövlətimizin başçısına fəaliyyətində uğurlar arzulayıb. Bildirib ki, Prezident İlham Əliyevin andiçmə mərasimini Milli Məclisdə keçirməsi dövlətimizin başçısının parlamentə verdiyi dəyərin və hörmətin göstəricisidir.

Oqtay Əsədovun təklifi ilə Milli Məclis adından Prezident İlham Əliyevə təbrik məktubunun göndərilməsi qərara alınıb.

Milli Məclisin sədri deyib ki, bugünkü iclasın gündəliyinə bir məsələ daxildir. İclasda "Novruz İsmayıl oğlu Məmmədovun Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin edilməsinə razılıq verilməsi" haqqında məsələyə baxılacaq.

Sonra sədr gündəlikdəki məsələ ilə bağlı Prezident İlham Əliyevin Milli Məclisə məktubunu oxuyub.

Oqtay Əsədov qeyd edib ki, Novruz Məmmədov bütün fəaliyyəti dövründə özünü yüksək ləyaqətə malik insan kimi təsdiq edib. Novruz Məmmədovun fəaliyyəti hər zaman Azərbaycan dövləti tərəfindən yüksək qiymətləndirilib.

Sonra məsələ ilə bağlı müzakirələr aparılıb.

Çıxış edən Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov, ictimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov, elm və təhsil komitəsinin sədri İsa Həbibbəyli aprelin 11-də Azərbaycanda şəffaf və ədalətli seçkilərin keçirildiyini bildirib, Prezident İlham Əliyevi parlaq qələbəsi münasibətilə təbrik ediblər.



Qeyd olunub ki, Azərbaycanın Baş naziri vəzifəsinə namizədliyi irəli sürülmüş Novruz Məmmədov beynəlxalq arenada ölkəmizin maraqlarını hər zaman müdafiə edən şəxslərdəndir. Diplomatik karyerasında ən yüksək zirvəyə yüksəlmiş Novruz Məmmədov Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü kimi də fəaliyyətində böyük uğurlara imza atıb. O, ölkəmizin daxili və xarici siyasəti, dövlətimizin başçısının apardığı iqtisadi və sosial siyasətlə bağlı dərin məzmunlu çıxışların, məqalələrin müəllifidir. Novruz Məmmədov bütün fəaliyyəti dövründə dövlətimizin milli strategiyasına, Ümummilli Liderə, Prezidentə sədaqət nümunəsi göstərib.

Çıxışlarda Baş nazir kimi fəaliyyəti dövründə göstərdiyi xidmətlərə görə Milli Məclis adından Artur Rasi-zadəyə də təşəkkür edilib.

Müzakirələrdən sonra məsələ səsə qoyularaq qəbul edilib.

İclasda çıxış edən Baş nazir Novruz Məmmədov ona göstərilən bu yüksək etimada görə Azərbaycan Prezidenti İlham Əliyevə dərin minnətdarlığını bildirib. O deyib ki, Baş nazir vəzifəsi çox çətin, lakin şərəfli vəzifədir. Dövlətimizin başçısı İlham Əliyev ilə birlikdə işləmək çox şərəflidir.

Novruz Məmmədov vurğulayıb ki, Azərbaycan bu gün dünya miqyasında özünün yeri, mövqeyi olan bir ölkədir. Azərbaycan ən mürəkkəb geosiyasi məkanda yerləşir. XXI əsrin ikinci onilliyində dünyada gərgin proseslərin getdiyi belə bir vəziyyətdə Azərbaycanda sabitliyin, təhlükəsizliyin və uğurlu dinamik inkişafın davam etdirilməsi bizim hər birimizin qarşısında çox böyük vəzifələr qoyur. Biz yüksək səviyyəli inkişafımızı davam etdirməliyik. Bu, çox çətin vəzifədir. Çalışacağam ki, bu məsuliyyətli vəzifəni Azərbaycan Prezidentinin rəhbərliyi ilə, dövlət və hökumət strukturları, eyni zamanda, Milli Məclis ilə sıx əməkdaşlıq şəraitində yerinə yetirim. Çalışacağam ki, ümummilli lider Heydər Əliyevin müəyyənləşdirdiyi yolu Azərbaycan Prezidentinin rəhbərliyi ilə davam etdirək.

Hazırda Azərbaycanın çox yüksək inkişaf mərhələsində olduğunu vurğulayan Baş nazir deyib: "Mən xarici siyasətlə çox məşğul olduğum üçün beynəlxalq aləmdə dövlətlərlə bağlı mövqeləri yaxşı bilirəm. Azərbaycan fəal iştirakçı və təşkilatçı kimi bu illər ərzində siyasi, enerji, idman, mədəniyyət, multikulturalizm sahələrində dünyanın ən böyük layihələrini uğurla həyata keçirib. Azərbaycan beynəlxalq əməkdaşlığa çox böyük töhfələr verib. Bir neçə ilə Azərbaycan Avrasiyanın ən böyük nəqliyyat qovşağı olacaq. Hindistandan Avropanın şimalına, Şərqdən Qərbə, Avropanın cənubuna qədər bütün ölkələrin ticari, iqtisadi əlaqələrinin qovşağı məhz Azərbaycan olacaq. Bu, həm də Azərbaycanın gələcək inkişafını təmin edir. Mənim qarşımda duran əsas vəzifə Azərbaycanın iqtisadi sahədə bu günə qədər əldə etdiyi uğurların istiqamətlərini daha da konkretləşdirmək, hansı islahatların daha vacib olduğunu, qarşıda bizi nələrin gözlədiyini nəzərə alaraq addımlar atmaqdır. Şübhəsiz ki, Azərbaycan Prezidentinin rəhbərliyi altında dövlət, hökumət strukturları, eləcə də Milli Məclisin üzvləri ilə birlikdə biz bu vəzifələrin öhdəsindən gələcəyik".

Novruz Məmmədov vurğulayıb ki, Azərbaycan artıq çox böyük layihələr həyata keçirib, siyasət, iqtisadiyyat, enerji, idman, mədəniyyət sahələrində böyük uğurlara imza atıb. Bütün bu işləri təhlil etsək görərik ki, dünyanın heç bir ölkəsi Azərbaycanla müqayisə oluna, ölkəmizlə rəqabət apara bilməz. Azərbaycan beynəlxalq təşkilatlarda çox fəal iştirak edir. Ölkəmiz siyasi, mədəni, idman, sivilizasiyalararası dialoq, multikulturalizm sahələrində mötəbər tədbirlərə ev sahibliyi edir. Azərbaycan 120 ölkəni özündə birləşdirən, BMT-dən sonra dünyanın ikinci böyük təşkilatı olan Qoşulmama Hərəkatına 2019-2021-ci illərdə sədrlik edəcək. Azərbaycan Prezidenti daxili və xarici siyasəti, beynəlxalq münasibətlər sahəsini mükəmməl bilən müdrik dövlət xadimidir. Bütün bunları nəzərə alaraq deyə bilərik ki, müstəqil Azərbaycan öz tarixində ən möhtəşəm dövrünü yaşayır.

Baş nazir Novruz Məmmədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin onun qarşısında qoyduğu vəzifələrin həyata keçirilməsi üçün əlindən gələni əsirgəməyəcəyini bildirib.

Milli Məclisin sədri Oqtay Əsədov sonda bir daha Novruz Məmmədovu təbrik edib, ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Bununla da Milli Məclisin plenar iclası başa çatıb.

**AZƏRTAC**

## N.İ.Məmmədovun Azərbaycan Respublikasının Baş naziri təyin edilməsinə razılıq verilməsi haqqında

## Azərbaycan Respublikası Milli Məclisinin QƏRARI

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin 9-cu bəndinə uyğun olaraq, Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən **qərara alır:**

Novruz İsmayıl oğlu Məmmədovun Azərbaycan Respublikasının Baş naziri vəzifəsinə təyin edilməsinə razılıq verilsin.

**O.Əsədov**
**Azərbaycan Respublikası**
**Milli Məclisinin Sədri**

**Bakı şəhəri, 21 aprel 2018-ci il.**

# Bakıda Şərq Tərəfdaşlığı ölkələrinin telekommunikasiya üzrə ekspert işçi qruplarının iclasları keçirilib

**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi (NRYTN) tərəfindən Avropa Komissiyasının dəstəyi ilə Bakıda Şərq Tərəfdaşlığına üzv ölkələrin Rabitə Tənzimləyiciləri Şəbəkəsinin Bazar Təhlili üzrə Ekspert İşçi Qrupunun (BEWG) 5-ci və Rouminq üzrə Ekspert İşçi Qrupunun (REWG) 4-cü iclası keçirilib.**

Hər iki iclasda Şərq Tərəfdaşlığına üzv olan Azərbaycan, Belarus, Gürcüstan, Moldova və Ukraynanın, eləcə də Avropa İttifaqına üzv bir sıra ölkələrin və Şərqi Balkan ölkələrinin müvafiq institut və tənzimlənmə qurumlarının nümayəndələri iştirak edib.

2012-ci ildə əsası qoyulmuş Şərq Tərəfdaşlığına üzv ölkələrin Rabitə Tənzimləyiciləri Şəbəkəsi (EaPeReg) üç sahə üzrə ekspert işçi qrupları telekommunikasiya bazarlarının təhlili, radiotezliklər və beynəlxalq rouminq qrupları əsasında fəaliyyət göstərir. Qrupların il ərzində ayrı-ayrılıqda 2-3 işçi görüşü keçirilir, eləcə də plenar iclaslarında cari məsələlər, görülmüş işlər və qarşıya qoyulan yeni təhlil sahələri üzrə məsələlər müzakirə olunur.

Bazar Təhlili üzrə qrupun Bakıda keçirilən 5-ci iclasında "EaPeReg"in 2018-2020-ci illər üzrə İş Planı, rabitə tənzimləyicilərinin fəaliyyətinin gücləndirilməsi, genişzolaqlı rabitə xidmətləri infrastrukturundan birgə istifadə və genişzolaqlı infrastrukturun proqram təminatı əsasında xəritələnməsi kimi mövzular müzakirə olunub.

Rouminq üzrə qrupun 4-cü iclasında isə Şərq Tərəfdaşlığı ölkələrində beynəlxalq rouminq qiymətlərinin uyğunlaşdırılması və rouminq tariflərinin aşağı salınması ilə bağlı Tədqiqatın Yekun Hesabatı təqdim olunub. Eyni zamanda, sənəddə yer alan tövsiyələrin Şərq Tərəfdaşlığı ölkələrində reallaşdırılması imkanları müzakirə edilib. Tədbir iştirakçıları Şərqi Balkan ölkələrinin bu sahədə əldə etdikləri təcrübə ilə tanış olub, İşçi qrupun 2018-ci il üçün İş Planı və digər təşkilati məsələlər üzrə qərarlar qəbul ediblər.

Hər iki iclasda qəbul olunmuş razılaşmaya əsasən, ekspertlərin növbəti görüşlərinin payızda keçirilməsi gözlənilir.

**AZƏRTAC**

*Reportaj*

# Onlar qüdrətli Azərbaycan ordusunda xidmət edəcəklər



...Qəlbləri oxşayan yaz səhəri. Hər yanı gözəlliyə, yaşıllığa qərq olmuş, müasirləşən və romantik mənzərələri ilə diqqəti cəlb edən Nəsimi rayonunun küçələrində coşqunluq duyulur, milli musiqimiz dalğa-dalğa ətrafa yayılırdı. Yaşlı nəslin nümayəndələri, çoxsaylı gənclər dəstə-dəstə Bakının A.Bakıxanov küçəsində yerləşən Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon idarəsinə axışır, ordu sıralarına yolasalma mərasimi ilə bağlı keçirilən tədbir hamıda xoş ovqat yaradırdı. Hiss olunurdu ki, onlar hərbi xidmət dövründə Vətənin ərazi bütövlüyünü ləyaqətlə qoruyacaq, qüdrətli Azərbaycan ordusunda mətinləşəcək və mübariz olacaqlar.

İdarənin ərazisinə daxil olarkən "Ordum varsa, yurdum var", "Qarabağ igidləri", "Şəhidlər intiqama çağırır", "Azərbaycanın Milli Qəhrəmanları" və digər plakat və yazılar diqqəti cəlb edir. Şübəsiz ki, bu da gənclərin hərbi-vətənpərvərlik tərbiyəsinin güclənməsində mühüm əhəmiyyət kəsb edir.

Əsgəri xidmətə yola düşən bir qrup gənc idarənin həqiqi hərbi xidmətə çağırış şöbəsinin rəisi, mayor Rizvan Sadıqovu dövrəyə almışlar. Gənc zabit sabahın əsgərlərinə lazımi tövsiyələr verir, məsləhət görürdü ki, onlar xidmət dövründə hərbi texnikanın sirlərini mükəmməl öyrənməli, hər qarış Vətən torpağını göz bəbəyi kimi qorumalıdırlar.

Ordu sıralarına yola düşəcək gənclər üçrəngli Azərbaycan bayrağının önündə valideynləri, doğmaları ilə birlikdə xatirə şəkilləri çəkdirir, bir sözlə onlar həyatın ən gözəl anını yaşayırdılar.

Budur, ortalığa ani bir sükut çökür. Təntənəli mərasimdə çıxış etmək üçün söz **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Nəsimi rayon idarəsinin rəisi polkovnik Eldəniz Əliyevə** verilir. O, ilk öncə mərasimə qatılan insanları salamlayır, daha sonra qəlbindən süzülüb gələn xoş sözləri onlarla yarı bölür:

—Müasir, mütəşəkkil ordunu yaratmaq ulu öndər, dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan xalqı qarşısında ən böyük xidmətlərindən biri olmuşdur. Ümummilli lider Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə qayıtdıqdan sonra Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi hərbi sahədə də dirçəlişə nail ola bildi. Heydər Əliyev 1994-cü ilin mayında Qarabağ müharibəsində atəşkəsə nail oldu. Sonrakı illərdə Azərbaycanın iqtisadi qüdrətinin artması ilə ordu quruculuğu prosesi həmahənglik təşkil etməyə başladı.

Azərbaycan xalqı öz ordusunu sevir, ona arxalanır, ona güvənir, onun gücünə inanır. Fəxr edirik ki, bu gün bizim güclü ordumuz, güclü dövlətimiz vardır. Bu ordunun gücü isə mənsub olduğu güclü texnikaların: təyyarələrin, gəmilərin, tankların, artilleriya qurğularının, hava hücumundan müdafiə komplekslərinin çoxluğu, müasirliyi, effektivliyi ilə yanaşı, həm də şəxsi heyətin peşəkarlığında, vətənpərvərliyində, mənəvi-psixoloji, siyasi, fiziki hazırlığının yüksəkliyindədir. Ordumuzun gücü həm də xalq ilə birliyində, hər bir döyüşçünün ruh yüksəkliyindədir.

Ordumuzun peşəkarlığı artır, eyni zamanda, maddi-texniki bazası da möhkəmlənir. Ordu quruculuğu sahəsində çox böyük işlər görülür. Hərbi xərclərimiz son illərdə 10 dəfədən çox artmışdır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin belə bir fikrini xatırlamaq yerinə düşərdi: **"Bu gün Azərbaycan, sözün əsl mənasında, bölgədə ən yüksək mövqelərə malik olan bir dövlətdir. Əlbəttə, bunu şərtləndirən müxtəlif amillər var. O cümlədən, iqtisadi potensial və ordunun güclü olması. Biz tarixi yaxşı bilirik və uğur qazanmış ölkələrin təcrübəsini də öyrənirik. Güclü ordu güclü dövlət deməkdir. Məqsədimiz güclü ordu yaratmaqdır. Biz bunu edirik, yaradırıq və daha da möhkəm orduya malik olmalıyıq".**

Çıxışının sonunda Eldəniz Əliyev sabahın əsgərlərinə, Vətənə sipər oğullara mətinlik, mübarizlik dilədi əminliklə bildirdi ki, onlar xidmət dövründə ata-babaların şanlı döyüş ənənələrinə sadiqlik nümayiş etdirəcək, hərbi texnikanın sirlərinə mükəmməl yiyələnəcəklər.

Gənclərin hərbi xidmətə yolsalma mərasimində **Pirverdi Həsənli** valideynlər adından çıxış edərək dedi:

—Bu gün Azərbaycan güclü orduya malikdir. İllərdən bəridir ki, torpaqlarımızın 20 faizdən çoxu işğal altındadır. Bu ədalətsizliyə biz heç vaxt dözə bilmərik. Aprel döyüşlərində Azərbaycan ordusu öz gücünü, qüdrətini bir daha nümayiş etdirdi, erməni daşnakları ağır itkiyə məruz qaldı. İnanırıq ki, ermənilər öz məkrli niyyətlərini həyata keçirə bilməyəcək, çox tezliklə Laçın, Qubadlı, Kəlbəcər, Şuşa və işğal altında olan digər torpaqlarımız geri qaytarılacaq, qəribsəmiş yurd yerlərinə köç karvanları dönəcəkdir.

Budur, vaxt gəlib çatır. Gənclərdən Elvin Quliyev, Sabir Rizvanov, Əli Məmmədov, Kənan Eyvazlı və başqaları musiqi sədaları altında avtobuslarda yerlərini tutaraq ordu sıralarına yollanırlar...

**Qədir ASLAN,**
**"Respublika".**

# Burunqovaq kəndində yeni modul tipli məktəb






Samux rayonunun yeni modul tipli məktəb binasının açılış mərasimi olmuşdur. Rayon Təhsil Şöbəsinin müdiri Gülağa Hüseynov müəllim və şagirdləri təhsil ocağının açılışı münasibəti ilə təbrik etdi. Məktəb binasının ərsəyə gətirilməsi üçün ölkə başçısı cənab İlham Əliyevə və ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya pedaqoji kollektiv adından minnətdarlığını bildirdi.

**Samux Rayon İcra Hakimiyyətinin başçısı Alı Qocayev** Azərbaycanda gedən davamlı inkişafdan, irimiqyaslı, möhtəşəm layihələrdən və aparılan təhsil islahatlardan danışdı. Sonra tədbir iştirakçılarını təhsil ocağının istifadəyə verilməsi münasibətilə təbrik etdi. Dövlətin Azərbaycan təhsilinin inkişafına prioritet bir məsələ kimi yanaşdığını, müasir standartlara cavab verən təhsil şəbəkəsinin yaradılmasında ümummilli lider Heydər Əliyevin başladığı işin onun layiqli davamçısı ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən daha da surətlə inkişaf etdirildiyini vurğuladı və bildirdi ki, bu məktəb binalarının tez bir zamanda istifadəyə verilməsi dövlətimizin təhsilə və təhsil işçilərinə çox böyük diqqət və qayğısının bariz nümunəsidir. Çıxışının sonunda rayon rəhbəri Alı Qocayev tədbir iştirakçılarını və pedaqoji kollektivi, bir daha səmimi qəlbdən təbrik edərək, təhsildə daim yeni-yeni pillələr fəth etməyi, Azərbaycanda layiqli vətəndaş tərbiyə etməyi arzuladı.

Çıxış edənlər, təhsil ocağının istifadəyə verildiyi üçün ölkə rəhbəri cənab İlham Əliyevə valideynlər və şagirdlər adından minnətdarlıqlarını bildirdilər. Şagirdlər onlara göstərilən diqqət və qayğının müqabilində dərslərini daha yaxşı oxuyacaqlarına və Vətənə layiqli övlad olacaqlarına söz verdilər. Sonra məktəbə baxış keçirildi. Məlum oldu ki, 80 yerlik tutumu olan və 3 korpusdan ibarət modul tipli məktəbdə, 8 tədris üçün otaq, 1 müəllimlər otağı, qarderob, 2 sanitar qovşaq mövcuddur. Məlumat üçün bildirək ki, Nazirlər Kabinetinin ötən ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında ölkə Prezidenti cənab İlham Əliyevin 2017-2018-ci illərdə qəzalı vəziyyətdə olan məktəblərin modul tipli məktəblərlə əvəz edilməsi ilə bağlı tapşırığına uyğun olaraq respublika ərazisində belə məktəblər quraşdırılır.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

# FHN nümayəndələri BSU-da təlim keçiblər

**Bakı Slavyan Universitetində (BSU) Fövqəladə Hallar Nazirliyinin (FHN) Dövlət Yanğın Nəzarəti Xidməti və Bakı Regional Mərkəzinin əməkdaşları birlikdə "Fövqəladə hallarla bağlı davranış və yanğın təhlükəsizliyi qaydaları" mövzusunda maarifləndirmə tədbiri keçiriblər.**

Tədbirin əvvəlində çıxış edən BSU-nun tədris işləri üzrə prorektoru, professor Telman Cəfərov bildirib ki, hər il Fövqəladə Hallar Nazirliyi tərəfindən tələbələr üçün maarifləndirmə xarakterli tədbirlər keçirilir.O, bugünkü tədbiri də gənclərin fövqəladə hallar zamanı təhlükəsizlik qaydaları istiqamətində maarifləndirilməsinə yönəlmiş mühüm addım kimi qiymətləndirib. Prorektor BSU-da fövqəladə halların qarşısının alınması üçün hər cür şəraitin yaradıldığını, universitetdə yanğından mühafizə sisteminin olduğunu qeyd edib və xüsusi vurğulayıb ki, təhlükəsizlik hallarına İnzibati-təsərrüfat işləri üzrə prorektorluq tərəfindən ciddi nəzarət edilir və universitetdə yanğından ilkin mühafizə üçün könüllü dəstə yaradılıb.

Universitet kollektivinin iştirak etdiyi tədbirdə Dövlət Yanğın Nəzarəti Xidmətinin nümayəndəsi Nizami Fərəcov yanğın təhlükəsizliyi barədə geniş məlumat verib. FHN nümayəndəsi bildirib ki, yanğınların təqribən 4-5%-i təbii fəlakətlər, 95%-i isə insan faktorunun ehtiyatsızlığı nəticəsində baş verir. Ona görə də tüstü bacaları işlək və təmiz vəziyyətdə olmalı, standartlara uyğun qaz və elektrik cihazlarından istifadə edilməlidir.

Tədbirdə ilkin yanğınsöndürmə vasitələrindən istifadə qaydaları, fövqəladə hallar zamanı baş vermiş hadisələr, bu hallardan çıxış yolu tapmaq üçün lazımi qaydalar haqqında slayd və videoçarx nümayiş olunub.

Bakı Regional Mərkəzinin sektor müdiri Anar İbrahimov tədbir iştirakçılarına mobil cihazlar vasitəsilə elektron formada yanğından və digər fövqəladə hallardan mühafizə ilə bağlı mövcud proqramlar barədə məlumat verib.

Tərbiyə işləri üzrə prorektor, dosent Xanım Sultanova tədbirin təşkilinə görə FHN əməkdaşlarına universitet rəhbərliyi adından minnətdarlıq edib.

Sonda tədbir iştirakçılarına "Vətəndaşların nəzərinə", "Yanğın zamanı davranış qaydaları", "Qaz cihazlarından istifadə edərkən yanğın, partlayış, zəhərlənmə kimi fövqəladə hadisələrin baş verməməsi üçün təhlükəsizlik qaydalarına əmək edin!" mövzularında yaddaş vərəqələri paylanılıb, "Təhsil müəssisələrinin yanğın təhlükəsizliyi" və "İnzibati binaların yanğın təhlükəsizliyi" mövzularında yaddaş kitabçaları universitet rəhbərliyinə təqdim edilib.

**Ramiz YUSİFLİ,**
**"Respublika".**

# Azərbaycanın inkişaf strategiyasında Heydər Əliyev irsi

**Müasir Azərbaycanın otuz ildən artıq müddətdə dövlət quruculuğu, iqtisadi dirçəliş, ictimai-siyasi və sosial həyatda tərəqqi dövrünü əhatə edən bütöv bir epoxası ümummilli lider Heydər Əliyevin adı ilə sıx bağlıdır. Elə dünya iqtisadi sektorunda ən sabit və yüksək inkişaf indikatorlarına malik ölkə hesab olunan Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra ötən illərdə əldə etdiyi nailiyyətlərə, sıçrayışlı inkişafa, yüksək sosial tərəqqi erasına məhz Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin hazırlayaraq həyata keçirdiyi iqtisadi inkişaf doktrinasının reallaşdırılması sayəsində mümkün olunmuşdur. Onun müəyyən etdiyi mükəmməl inkişaf konsepsiyasının həyata keçirilməsi dövlət suverenliyini bərpa edən Azərbaycanda demokratik dövlət quruculuğu və kompleks islahatların reallaşmasına, azad bazar münasibətlərinə əsaslanan milli iqtisadiyyatın formalaşdırılmasına, yeni iqtisadi dövrün tələblərinə uyğun təsərrüfat sisteminin yaradılmasına və sıçrayışlı inkişafın təmin olunmasına dərin əsaslar yaradıb.**



Azərbaycan ötən yüzillikdə iki dəfə dövlət müstəqilliyi qazanıb. Müstəqilliyin dayaq sütunlarını, milli-ideoloji əsaslarını, suveren dövlətçilik institutlarını yaratmaq və onu həyata keçirmək güclü dövlət siyasətinin və eyni zamanda, milli liderin olmasını tələb edib. Məhz dövlət müstəqilliyini qoruyub saxlamaq, müstəqil dövlət quruluşu yaratmaq, dövlət atributlarını yaratmaq və inkişaf etdirmək, ölkənin ərazi bütövlüyünü, tam suverenliyini təmin etmək, respublikanın vətəndaşlarının rifahını yaxşılaşdırmaq və digər ümummilli məqsədlər Azərbaycan xalqının təkidli tələbindən sonra 1993-cü ildə hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyevin gərgin və qətiyyətli əməyi sayəsində mümkün olmuşdur.

Ulu öndərin gərgin əməyi nəticəsində, Azərbaycan onun hakimiyyətinin birinci erasında - 1969-1982-ci illərdə respublikada güclü iqtisadiyyatın təməlinin qoyulması sayəsində qısa müddət ərzində yüksək iqtisadi inkişafa nail olub. Bu, Heydər Əliyevin görkəmli dövlət xadimi, peşəkar siyasətçi olmaqla yanaşı, həm də respublikanın xalq təsərrüfatına dərindən bələd olan ölkə başçısı olduğu barədə fikirləri təsdiqləyir. Çünki 1969-1982-ci illərdə Heydər Əliyevin rəhbərliyi ilə yürüdülən iqtisadi və sosial siyasət sayəsində respublika iqtisadiyyatının bütün sahələrinin, elmin və mədəniyyətin inkişaf etməsi, xalqın həyat səviyyəsinin yüksəldilməsinə yalnız xalq təsərrüfatının dərin bilicisi olmaqla müvəffəq olmaq mümkün idi. Məhz ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə həyata keçirilən islahatların sayəsində Azərbaycan aqrar-sənaye respublikasından sənaye-aqrar respublikasına çevrildi. Respublikada aparılan genişmiqyaslı quruculuq işləri nəticəsində Azərbaycanda bir neçə il ərzində yeni yaşayış massivləri, binalar, məktəblər, sənaye müəssisələri tikildi, yollar salındı. Azərbaycan gənclərinin elmin və təhsilin dərinliklərinə yiyələnməsi və ölkənin sabahı üçün peşəkar kadr olması üçün Heydər Əliyevin gərgin səyi nəticəsində on minlərlə azərbaycanlının keçmiş İttifaqın ən nüfuzlu ali məktəblərində təhsil almaları üçün şərait yaradıldı.

Heydər Əliyevin fəaliyyəti nəticəsində respublikada həyatın elə bir sahəsi qalmadı ki, orada inkişaf, tərəqqi müşahidə olunmasın. Ölkənin iqtisadiyyatı, xalqın rifah halı, elm və incəsənət, səhiyyə sahələri inkişaf edərək Azərbaycanı keçmiş müttəfiq respublikaları sırasında ən ön yerlərdən birini tutmasına gətirib çıxardı. Azərbaycan quruculuq, yaradıcılıq və tərəqqi dövrü keçirirdi, cəmiyyətin bütün təbəqələrində fasiləsiz inkişaf, irəliləyiş ruhu hökm sürürdü. Məhz bütün deyilənlərin nəticəsində yalnız Azərbaycan, həmçinin keçmiş SSRİ respublikalarından Rusiya və Ukrayna İttifaq büdcəsindən dotasiya almırdı. Tarixdən məlum olduğu kimi, iqtisadi müstəqillik, iqtisadi qüdrət millətin siyasi müstəqilliyinin bazisini təşkil edir. Bu baxımdan keçən əsrin 70-80-ci illərində Azərbaycanın iqtisadi sahədə qazandığı nailiyyətlər siyasi müstəqillik yolunda mühüm təməl hesab edilməlidir. Bu mənada, ulu öndərin bu fəaliyyəti ilə təkcə, İttifaq respublikası olan Azərbaycanın deyil, həm də gələcək müstəqil Azərbaycanının möhkəm təməlini, sonrakı nəsillərin xoşbəxt və firavan həyatının təməlini qoydu.

Ulu öndər ilk növbədə, çoxmülkiyyətli bazar iqtisadiyyatının başlıca tələblərinin təmin olunması istiqamətində siyasi iradə nümayiş etdirdi və iqtisadi transformasiyanın qanunauyğunluqlarını nəzərə alaraq əsaslı islahatlara start verdi. Heydər Əliyev həmin dövrdə müstəqil dövlətin yeni transformasiyaya keçidlə islahatlar həyata keçirməsinin olduqca çətin və mürəkkəb olduğunun bildirirdi: **"Azərbaycan istiqlaliyyət əldə etdiyi vaxtdan bəri öz həyatını, dövlətini, iqtisadiyyatını, öz milli mənafelərini əsas tutaraq, demokratiya prinsipləri əsasında qurur. Bu da bütün iqtisadi sistemin ciddi şəkildə yenidən qurulmasını qarşıya bir şərt kimi qoyur. Bununla əlaqədar olaraq Azərbaycan azad iqtisadiyyat, bazar iqtisadiyyatı prinsipləri əsasında yenidənqurma strategiyasını elan etmişdir və bu yolla gedir. Təbiidir ki, 70 il ərzində başqa sosial-iqtisadi sistem şəraitində yaşamış olan respublika üçün bu yol son dərəcə çətin və mürəkkəbdir. Lakin bununla yanaşı, bu iqtisadiyyatdakı çətinlikləri aradan qaldırmaq, sosial-iqtisadi böhrandan çıxmaq və Azərbaycanı dünya iqtisadi sisteminə qoşmaqdan ötrü iqtisadiyyatın inkişafını beynəlxalq standartlara müvafiq surətdə təmin etmək üçün yeganə yoldur".**

Ulu öndər Azərbaycanın milli inkişaf doktrinasını hazırlamaqla respublikamızın uzunömürlü tərəqqisinə dərin əsaslar yaradıb. Müstəqil Azərbaycanın yüksək inkişaf mərhələsinə çıxmasında, milli-iqtisadi təhlükəsizliyinin möhkəmlənməsində və zəngin iqtisadiyyata malik olmasında neft amili xüsusi rol oynayır. Neft sərvətlərinin mənimsənilməsi, işlənilməsi və nəqli, ən əsası isə düzgün, düşünülmüş iqtisadi strategiyaya uyğun neft siyasətinin həyata keçirilməsi respublikamızın hazırkı tərəqqi mərhələsinə çatmasına dərin əsaslar yaradıb. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra neft sənayesində tamamilə yeni mərhələnin əsası qoyuldu. Bu dövrdə başlıca vəzifə müstəqil ölkənin neft sənayesinə xarici neft kompaniyalarını cəlb etmək və yeni nəql marşrutları yaratmaqdan ibarət idi.

Liberal bazar iqtisadiyyatının bütün komponentlərini həyata keçirməyi islahatların başlıca hədəflərinə çevirən Azərbaycan hökuməti 1994-cü ildən başlayan bərpa və dinamik inkişaf dövrünün tələblərinə uyğun qətiyyətli addımlar atdı. Dövlətin tabeçiliyində olan torpaq mülkiyyəti kəndlilərə verildi ki, bu sahədə respublikamız MDB-də ilk islahat aparan ölkə hesab olunur.

Ulu öndərin atdığı qətiyyətli addım sayəsində 1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" ölkənin neft-qaz sənayesinin dirçəlməsinə və Azərbaycanın gələcək rifahının başlanğıcı olmaqla respublikanın enerji sektorunun inkişafı iqtisadiyyatın qeyri-neft sahəsinin fəal artımına gətirib çıxarmışdır. Həm də bu sazişin böyük iqtisadi faydası ilə yanaşı, daha bir əhəmiyyəti var idi: Saziş dünyanın aparıcı dövlət və şirkətlərini bir daha əmin etdi ki, Azərbaycan müstəqil və etibarlı tərəfdaşdır. Bu ölkədə işləmək və sərmayə qoymaq olar. "Əsrin müqaviləsi" bütün dünya dövlətlərinin Azərbaycana inamını artırdı və bir qədər sonra dünyanın ən böyük və tanınmış neft şirkətlərinin ölkəmizə axınına şərait yarandı.

"Əsrin müqaviləsi"nin həyata keçirilməsinə başlanan vaxtdan Azərbaycan iqtisadiyyatında dönüş yarandı və böyük işlərə başlanıldı. 1999-cu ilin dekabrında Azərbaycanın ilk mənfəət nefti ilə doldurulmuş tankeri dünya bazarlarına çıxarıldı. Ulu öndər Heydər Əliyevin neft strategiyasının əsas istiqamətlərindən biri kimi Azərbaycan neftinin dünya bazarlarına nəqlini vacib hesab edirdi. Bu sahədə Azərbaycanın mənafelərinin uzunmüddətli şəkildə qorunması, genişmiqyaslı beynəlxalq iqtisadi əməkdaşlığın inkişafı, regionda neft hasilatının artması ilə əlaqədar neftin dünya bazarlarına nəqlinin təmin edilməsi məqsədi ilə strateji əhəmiyyətli Şərq-Qərb marşrutunun yaradılmasından ibarət idi. Ulu öndər Heydər Əliyevin əzmkarlığı və qətiyyəti nəticəsində Bakı-Tbilisi-Ceyhanın çəkilməsinə dair sazişin imzalanması mümkün oldu. Ulu öndərin qəti əzmkarlığı və Türkiyə, Azərbaycan və Gürcüstan dövlətlərinin birliyi nəticəsində çoxlarının əfsanə hesab etdiyi layihə reallığa, gerçəkliyə çevrildi. 2006-cı il mayın 28-də Azərbaycan nefti Ceyhan limanına çatdı və iyulun 4-də neftlə yüklənmiş ilk tanker buradan yola salındı. İyulun 13-də Türkiyənin Ceyhan şəhərində XXI əsrin ən böyük enerji layihəsi olan Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin təntənəli açılış mərasimi keçirildi. BTC dünya dövlətləri ilə Azərbaycan dövlətinin yeni münasibətlərinin, dünya xalqları ilə Azərbaycan xalqının əlaqələrinin yenidən qurulmasına təkan verdi, Azərbaycanın xarici siyasətinin güclənməsinə və inkişaf etməsinə səbəb oldu.

Bazar iqtisadiyyatının əsas tələblərindən biri də, ilk növbədə, torpaq islahatlarının həyata keçirilməsi ilə bağlıdır. Torpaq sahibi olmadan mülkiyyətçinin azad və sərbəst istehsal fəaliyyəti ilə məşğul olması qeyri-mümkündür. Buna görə də, Heydər Əliyev iqtisadiyyatın böhrandan xilas edilib inkişaf etdirilməsinin yeganə yolunun islahatlar olduğunu bildirdi və torpaqların vətəndaşların istifadəsinə verilməsi üçün bəzi normativ-hüquqi aktların təsdiq edilməsi haqqında müvafiq fərmanlar imzalaması islahatlarla bağlı prosesləri xeyli sürətləndirdi.

O vaxtdan təxminən 23 il keçəndən sonra cəsarətlə demək olar ki, 1993-2003-cü illərdə Heydər Əliyev prezident olduğu on il ərzində aşağıda qeyd olunan strategiyanı müəyyən etmiş və gərgin əməyi sahəsində buna nail olmuşdur.

- 1994-cü ildən etibarən Qarabağ cəbhəsində atəşkəs rejiminə nail olmaqla iqtisadi inkişafın əsas prioritetlərinin formalaşdırılması;
- ölkənin həyatında çox zəruri olan ictimai-siyasi sabitləşmə, demokratik prinsiplərin və təsisatların yaradılması və təkmilləşdirilməsi;
- dövlət aparatının möhkəmləndirilməsi və iş qabiliyyətli dövlət idarəçilik təsisatlarının formalaşdırılması;
- cəmiyyətdə yeni davranış norma və stereotiplərinin yaradılması, yeni - açıq və demokratik vətəndaşlığın formalaşdırılması;
- müstəqil dövlətin neft strategiyasının yaradılması, bu strategiyanın əsası olan "Əsrin müqaviləsi" sazişinin imzalanması, ölkənin əsas regional energetik aktora transformasiyasının başlanması;
- "Böyük İpək Yolu" layihəsində fəal iştirak etməklə Azərbaycanın regional logistik mərkəz kimi rolunun dəyişməsi;
- həyat qabiliyyətli tarazlı xarici siyasət modelinin formalaşdırılması;
- müasir və döyüş qabiliyyətli ordunun yaradılması və s.

1995-2003-cü illər ərzində ölkəmizdə böyük sosial-iqtisadi dəyişikliklər müşahidə olunmağa başladı. Beləliklə də, ulu öndər Heydər Əliyev həm nəzəri səviyyədə, həm də praktikada norma və dəyərlər məcmusunu həyata keçirmiş, bu məcmu həyat qabiliyyətli demokratiya modelinə çevrilmişdir. Heydər Əliyevin prezident olduğu dövrdə ölkənin müasir inkişafı üçün möhkəm təməl qoyulmuş, Azərbaycanın qərarlaşmış dövlət kimi qəbul olunması təmin edilmiş, gələcəkdə Azərbaycanın müasir dünyaya inteqrasiyası üçün şərait yaradılmışdır.

Azərbaycanın iqtisadi-sosial və siyasi-hüquqi sisteminin qurulmasında olduğu kimi, demokratik inkişafa, xüsusilə də, söz və mətbuat azadlığına olan diqqət-qayğısı da özünü yüksək nəticələrdə göstərirdi. Ulu öndərin Azərbaycan mətbuatının inkişafında rolu özünü müstəqillik illərində xüsusilə nümayiş etdirib. Müstəqilliyimizin ilk illərində təsadüf nəticəsində hakimiyyətə gəlmiş iqtidarın hərbi və siyasi senzurasında boğulan Azərbaycan mətbuatı yalnız ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra xilas oldu, inkişaf etdi.

Dahi liderin ölçüyəgəlməz səyləri nəticəsində Azərbaycanda mətbuat orqanlarının azad fəaliyyəti və inkişafı yolunda süni maneələrin aradan qaldırılması, qanunvericilik bazasının təkmilləşdirilməsi, kütləvi informasiya vasitələrinin maddi-texniki təchizatının yaxşılaşdırılması sahəsində ardıcıl tədbirlər həyata keçirildi. Vətəndaş cəmiyyəti quruculuğunu özünün inkişaf modeli kimi qəbul edən Azərbaycan Respublikası insan hüquqları, söz və mətbuat azadlığının təmin olunması ilə bağlı bir sıra beynəlxalq konvensiya və sazişlərə qoşuldu. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" 6 avqust 1998-ci il tarixli fərmanı KİV-in sərbəst inkişafı, cəmiyyətin dinamik şəkildə demokratikləşməsinə təsir edən qüdrətli vasitəyə çevrilməsi yolunda dövlət siyasətinin həyata keçirilməsində mühüm addım oldu. Bu fərmanla Nazirlər Kabineti yanında mətbuatda və digər kütləvi informasiya vasitələrində Dövlət Sirlərinin Mühafizəsi Baş İdarəsi ləğv edildi, hərbi senzura yaradılması haqqında 16 aprel 1992-ci il tarixli fərman və bütün informasiya yayımı üzərində nəzarət tətbiq edilməsi ilə bağlı 15 aprel 1993-cü il tarixli sərəncam qüvvədən düşmüş hesab edildi. Həmçinin, 1998-ci ildə senzuranın ləğvi müstəqil mətbuatımızın ictimai fikrə təsir edən və "dördüncü hakimiyyət" funksiyasını həyata keçirən real gücə çevrildi. Məhz bundan sonra mətbuatımızın azad cəmiyyətin və demokratik ölkənin formalaşdırılmasında rolu ortaya çıxdı, hərtərəfli şəkildə dövlət qayğısı ilə əhatələnən mediamız həmin dövrdə müstəqil Azərbaycanın atributuna çevrildi. Mətbuata dövlət nəzarəti olan senzuranın aradan qaldırılmasından sonra beynəlxalq standartlara cavab verən "Kütləvi informasiya vasitələri haqqında", "Məlumat azadlığı haqqında" qanunlar qəbul edildi, KİV-in təsis edilməsi və fəaliyyəti üçün qanunvericiliyin təkmilləşdirilməsi, optimal hüquqi mühitin formalaşdırılması istiqamətində mühüm addımlar atıldı.

Bir sözlə, ümummilli lider Heydər Əliyevin onillik prezidentliyi dövründə ölkə kökündən dəyişmiş, daxili və xarici siyasətin bir çox istiqamətlərində əhəmiyyətli uğurlar qazanılmışdır. Azərbaycan dövləti uzunmüddətli yaşamaq qabiliyyətini, cəmiyyət isə tarixi prosesin növbəti mərhələsində iştirak etməyə hazır olduğunu nümayiş etdirmişdir. Müasir Azərbaycan Respublikasının müstəqilliyi həm ölkənin sadə vətəndaşları, həm də qlobal miqyaslı mühüm güc mərkəzləri üçün aksioma çevrilmişdir. Məhz Heydər Əliyev şəxsiyyəti, onun xarizması, iradəsi, təcrübəsi göstərilən dövrdə bizim üçün "millət", "dövlətçilik", "idarəçilik sistemi", "hakimiyyət", "inkişaf etmiş iqtisadiyyat", "mənəvi dirçəliş", "liderlik", "transformasiya", "çoxvektorluluq" kimi sistem dəyərlərin təşəkkülündə və möhkəmlənməsində mühüm rol oynadı.

Bu gün də Heydər Əliyev ideyaları Azərbaycan hökuməti tərəfindən uğurla reallaşdırılıb və yüksək nəticələr əldə edilib. İqtisadiyyatın proporsional və balanslaşdırılmış inkişafının təmin olunması və effektivliyə doğru irəliləyişi, bazar iqtisadiyyatının intensivləşdirilməsi, liberal iqtisadiyyatın yeni mexanizmlərinin tətbiq olunması və digər islahatlar əhalinin maddi və mənəvi rifahının yüksəlməsinə, sosial ədalətin bərqərar olmasına şərait yaradıb. Bu prinsiplər ulu öndər Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin başlıca hədəflərini təşkil etmiş və dövlət başçısının rəhbərliyi ilə sosialyönümlü, diversifikasiya olunmuş milli iqtisadiyyatın formalaşdırılması prosesində mühüm uğurlara imza atılmışdır.

Demokratik, hüquqi və dünyəvi dövlət kimi formalaşmış müasir Azərbaycanda vətəndaş cəmiyyətinin təşəkkül tapması, milli-mənəvi dəyərlərə qayıdış, elm, təhsil və mədəniyyətin misilsiz tərəqqisi Heydər Əliyevin adı ilə bağlıdır. Onun həyata keçirdiyi genişmiqyaslı milli dövlət quruculuğu proqramı ölkəmizin bütün sahələrdə qazandığı uğur və nailiyyətlərin konseptual əsası olmuşdur. Müstəqil Azərbaycanın Əsas Qanununun - Konstitusiyanın müəllifi kimi ulu öndər Heydər Əliyev dövlət hakimiyyətinin demokratik prinsplər əsasında bölünməsinə, beynəlxalq standartlara uyğun hüquq normalarının və qanunvericilik bazasının yaradılmasına, müasir idarəetmə üsullarının tətbiqinə nail olmuşdur.

Cəmiyyətdə haqq və ədalətin zəfər çalması uğrunda fədakar mübariz kimi şöhrət qazanmış Heydər Əliyev özünün siyasi və dövlətçilik fəaliyyətində hüquqi dəyərlər sistemində insanların hüquq və azadlıqlarının ifadəsinin və müdafiəsinin ən ali forması qanunlara eyni cür, dürüst əməl edilməsini daim önə çəkmişdir. İlk dəfə respublikamızın rəhbəri seçildiyi 1969-cu ildən başlayaraq ulu öndər cəmiyyətdə qanunun aliliyi prinsipinin bərqərar olması üçün göstərdiyi qətiyyətli mövqeyi ilə Azərbaycanın da daxil olduğu keçmiş İttifaq dövləti miqyasında böyük nüfuz qazanmışdır. Həmin dövrdə hüquq-mühafizə orqanlarında sağlam mənəvi mühitin formalaşması istiqamətində prinsipial addımlar atılmış, cinayətkarlığa, xüsusən rüşvətxorluq və korrupsiya kimi ağır cinayətlərə qarşı genişmiqyaslı, güclü və səmərəli mübarizə təşkil edilmiş və bu tədbirlər hər yerdə əks-səda doğurmuş, rəğbətlə qarşılanmışdır.

Heydər Əliyevin təşəbbüsü ilə 1970-80-ci illərdə Azərbaycanda ali hüquq təhsilinin haqq-ədalət çərçivəsində, cəmiyyətin bütün təbəqələrinin mənafeyinə cavab verən prinsiplər əsasında təşkili, vətənpərvər, istedadlı, savadlı, dürüst və vicdanlı hüquqşünas kadrların hazırlanmasında müstəsna əhəmiyyət kəsb etmişdir. Həmin illərdə ali hüquq təhsili almaq istəyinə qovuşmuş yüzlərlə fəhlə-kəndli övladı bu gün də ulu öndərin xatirəsinə böyük rəğbət və ehtiramla respublikamızın hüquq-mühafizə sistemində millətimizə və dövlətimizə sədaqətli xidmət nümunəsi göstərir. Ulu öndərimiz Azərbaycanın prokurorluq orqanlarının 80 illik yubileyinə həsr olunmuş təntənəli yığıncaqda ötən əsrin tarixi gerçəkliyini xatırladaraq demişdir: **"Mən xüsusi qeyd etmək istəyirəm ki, 1960, 1970, 1980-ci illərdə Azərbaycanda milli prokuror kadrları hazırlandı, yetişdi və bu gün Azərbaycan Prokurorluğunun əsasını təşkil edən kadrlar yüksək peşəkarlığa, hüquqi təhsilə malik olan və öz vəzifələrini yerinə yetirə bilən kadrlardan ibarətdir. Bunlar hamısı bir gündə, bir ildə hazırlana bilməzdi. Azərbaycanda prokurorluq orqanları on illər ərzində təşkil olunmuş, formalaşmış, inkişaf etmiş və bugünkü yüksək peşəkar səviyyəyə çatmışdır".**

Hamımıza yaxşı məlumdur ki, dövlət müstəqilliyinin bərpasından sonrakı ilk illərdə respublikamız və xalqımız çox ağır sınaqlarla üzləşmiş, cəmiyyətimizdə qanunçuluğun əsasları ciddi şəkildə zəifləmiş, cinayətkarlıq halları görünməmiş səviyyəyə çatmışdı. Həmin vaxt hakimyyətdə olanların siyasi naşılığı, dövlət idarəçiliyindəki səriştəsizliyi, xalqa qarşı ədalətsiz hərəkətləri, xarici təcavüz şəraitində milli birliyin təmin edilməməsi son nəticədə ölkədə xaosa, hərc-mərcliyə, özbaşınalığa gətirib çıxarmış, müstəqilliyimizi məhv olmaq təhlükəsi altına salmışdı. Bu illərdə prokurorluq orqanlarında da qeyri-sağlam vəziyyət yaranmış, bu orqanlar öz fəaliyyətini qanun çərçivəsində göstərə bilməmiş, üzərinə düşən vəzifələri həyata keçirməkdə böyük çətinliklərlə üzləşmişlər.

Yalnız 1993-cü ilin iyununda ulu öndər Heydər Əliyevin müstəqil dövlətimizin ali rəhbərliyinə qayıdışından sonra respublikamızda ictimai-siyasi sabitliyin, qanunçuluğun bərqərar edilməsi, milli dövlətçiliyin və ictimai təhlükəsizliyin qorunması istiqamətində atılan məqsədyönlü addımlar cəmiyyətdə qanunçuluğa hörmət prinsipinin bərpasına, cəmiyyətin cinayətkar ünsürlərdən təmizlənməsinə, güclü və səmərəli hüquq-mühafizə sisteminin formalaşmasına şərait yaratmışdır. Ulu öndərin şəxsi iradəsi və siyasi uzaqgörənliyi nəticəsində Azərbaycan parçalanıb dağılmaq, müstəqilliyini itirmək və vətəndaş müharibəsi təhlükəsindən xilas olmuş, qısa müddət ərzində dövlət və hakimiyyət böhranına, xaos və anarxiyaya son qoyulmuş, torpaqlarımızın işğalı prosesinin qarşısını alan atəşkəs barədə razılaşma əldə edilmişdir.

Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilmiş mütərəqqi islahatlar nəticəsində Azərbaycan Prokurorluğu cəmiyyətdə öz nüfuzunu bərpa etməyə, yüksək ictimai etimad qazanmağa nail olmuş, dövlətçiliyin etibarlı sütunlarından birinə çevrilmişdir. Müstəqil dövlətçiliyimizin və cəmiyyətimizin cinayətkar qəsdlərdən qorunmasında, qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsində fəal mövqe tutan prokurorluq orqanları 1994-1995-ci illərdə qanunsuz silahlı dəstələr tərəfindən törədilən dövlət çevrilişlərinə cəhdlərin qarşısının alınmasında, mütəşəkkil cinayətkarlığa qarşı mübarizə işinin düzgün təşkilində, cinayətkarların tapılaraq qanun əsasında məsuliyyətə cəlb olunmasına nail olmuşlar.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycan Konstitusiyası hakimiyyət bölgüsü prinsiplərini özündə ehtiva etməklə, zamanın tələbilə səsləşən məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə, habelə prokurorluq orqanlarının fəaliyyətinin keyfiyyətcə yeniləşməsinə və demokratikləşməsinə möhkəm təməl yaratmışdır. Əsas Qanunda ilk dəfə olaraq respublikamızın dövlət quruluşu sistemində prokurorluğun layiqli yeri müəyyənləşdirilmiş, məhkəmə hakimiyyəti sisteminə daxil olan prokurorluq orqanlarının statusu, təşkili və fəaliyyət prinsipləri, səlahiyyət dairəsi və vəzifələri qanunvericilik qaydasında təsbit edilmişdir.

Ulu öndər dövlət başçısı kimi daim inandığı, güvəndiyi və arxalandığı prokurorluq orqanlarına, bu orqanlarda şərəflə çalışanlara qayğısını heç vaxt əsirgəməmişdir. Prokuror peşəsinə dərin hörmət və ehtiramının bariz təzahürü kimi o, hər il oktyabr ayının 1-nin Prokurorluq işçilərinin peşə bayramı kimi qeyd edilməsi barədə 17 iyul 1998-ci il tarixli sərəncam imzalamış, həmçinin prokurorluq işçilərini dövlət təltiflərinə layiq görmüşdür. Fərəh və qürur hissi ilə qeyd etməliyik ki, MDB-də prokurorluğun peşə bayramı gününün təsis edildiyi ilk ölkə Azərbaycan olmuşdur. Ulu öndərimiz prokurorluq işçilərinin peşə fəaliyyətini yüksək qiymətləndirirək demişdir: **"Prokurorluq peşəsi ağır, çətin peşədir. Amma eyni zamanda, çox şərəfli, hörmətli peşədir. Mən arzu edərdim ki, siz həmişə bu peşəni şərəflə daşıyasınız. Arzu edərdim, çalışasınız ki, Azərbaycan vətəndaşı kimi, eyni zamanda, Azərbaycan prokuroru kimi hörmətli, şərəfli olasınız. Azərbaycan Prokurorluğunun inkişaf etməsinə dövlət qayğısı bu gun də, gələcəkdə də olacaqdır. Buna əmin ola bilərsiniz. Azərbaycan Prezidenti kimi mən Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram".**

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında aparılan islahatlar nəticəsində prokurorluq orqanlarının səlahiyyətləri beynəlxalq standartlara uyğunlaşdırılmış, ölkədə qanunçuluğun möhkəmləndirilməsində, cinayətkarlığa qarşı mübarizədə bu orqanların rolu artırılmış, kadrların peşəkarlıq səviyyəsi yüksəldilmişdir. Konstitusiyanın qəbulundan sonra, onun 133-cü maddəsinə uyğun olaraq "Prokurorluq haqqında" Qanun layihəsinin hazırlanıb qəbul edilməsi və 7 dekabr 1999-cu il tarixdə qüvvəyə minməsi prokurorluğun totalitar rejimə xas bəzi funksiyalardan azad olmasını, onun fəaliyyətinin forma və metodlarının demokratik dəyərlərə uyğunlaşdırılmasını təmin etmişdir. Azərbaycan Prokurorluğunda demokratik, hüquqi dövlət quruculuğunun müasir tələblərinə cavab verən köklü islahatlar və səmərəli struktur dəyişikliklərinin əsası ulu öndər Heydər Əliyevin iştirakı ilə 26 aprel 2000-ci ildə keçirilən geniş müşavirədən sonra başlanmış və uğurla icra edilmişdir. Prokurorluğun həyatında müstəsna rol oynamış bu tarixi müşavirədə dövlət başçısının verdiyi tövsiyə və göstərişlər əsasında həyata keçirilən tədbirlər bu orqanın demokratik məzmunda yeniləşdirilməsi, neqativ təzahürlərin aradan qaldırılması, müasir standartlar səviyyəsində işləməyə qadir olan kadr korpusunun formalaşdırılması, cinayətkarlığa qarşı mübarizə, insan hüquq və azadlıqlarının müdafiəsi işinin zəruri tələblər səviyyəsinə qaldırılması ilə nəticələnmişdir. Həmin müşavirədəki nitqində ulu öndərimiz demişdir: **"Sağlam mənəviyyat hər bir prokurorluq işçisi üçün, qanun keşiyində duran hər bir məmurumuz üçün əsas meyar olmalıdır. Əgər bu yoxdursa, o insan nə qədər yaxşı işləyirsə-işləsin, bizim tələblərimizə cavab verə bilməyəcəkdir. Bizim tələblərimiz isə qanundur, qanunun aliliyidir".** Müdrik və uzaqgörən rəhbərin bu tələb və tövsiyəsi hər bir prokurorluq işçisi üçün həyat və fəaliyyət meyarıdır. Ulu öndərin müstəqil dövlətimizə rəhbərliyi dövründə aparılan məhkəmə-hüquq islahatları çərçivəsində prokurorluq orqanlarının fəaliyyətinin beynəlxalq standartlara və demokratik prinsiplərə əsaslanan, milli dövlətçilik ənənələrindən qaynaqlanan möhkəm hüquqi bazasının yaradılması ardıcıl xarakter kəsb etmişdir. Ölkəmizdə dövlət quruculuğu prosesinin dərinləşməsi prokurorluğun cəmiyyətdə və idarəçilik sistemində rolunu daha artırmaq zərurəti yaratmış, 2002-ci il sentyabrın 19-da qüvvəyə minmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" referendum aktına əsasən, prokurorluğa həm də qanunvericilik təşəbbüsü hüququ verilmişdir. Ulu öndər Heydər Əliyevin Baş Prokurorluğa və onun dövlətçiliyimizin möhkəmləndirilməsindəki roluna verdiyi yüksək dəyərin təzahürü olan bu hüquq ictimai həyatın ayrı-ayrı sahələrinin hüquqi tənzimlənməsindəki çatışmazlıqlar haqqında Milli Məclisə məlumatların verilməsi, habelə müvafiq qanun layihələrinin ali qanunverici orqana təqdim edilməsi ilə gerçəkləşdirilir. Ulu öndərin müstəqil, müasir dövlət quruculuğu konsepsiyasının tərkib hissəsi olan məhkəmə-hüquq islahatları Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında son 15 ildə böyük uğurla davam etdirilmişdir. Bu baxımdan, dövlət başçısının prokurorluq orqanlarına inam və etmadının təzahürü olan qərarları da bu orqanların fəaliyyətininin təkmilləşdirilməsində və müasirləşdirilməsində mühüm əhəmiyyət kəsb etmişdir. Belə ki, ölkə Prezidentinin 3 mart 2004-cü il tarixli Sərəncamı ilə Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi yaradılmış, 3 sentyabr 2004-cü il tarixli "Korrupsiyaya qarşı mübarizə üzrə dövlət proqramının (2004-2006-cı illər) təsdiq edilməsi barədə" Sərəncamda isə digər hüquq-mühafizə orqanları ilə yanaşı, prokurorluq işçilərinin də yüksək dövlət məvacibi ilə təmin edilməsi, onların əməkhaqlarının mərhələlərlə artırılması, sosial təminatlarının yaxşılaşdırılması məsələləri əksini tapmışdır. "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı"nın təsdiq olunması, korrupsiyaya qarşı ixtisaslaşmış cinayət təqibi orqanı olan Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin fəaliyyətinin tamamilə yeni müstəviyə qaldırılmaqla, strukturunun və iş metodlarının təkmilləşdirilməsi və bu quruma əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi səlahiyyətlərinin verilməsi möhtərəm Prezidentimizin prokurorluq orqanlarının dövlət idarəçiliyindəki roluna verdiyi dəyərin bariz göstəricisidir.

Biz, prokurorluq orqanları əməkdaşları ulu öndərimiz tərəfindən əsası qoyulmuş ənənənin sadiq davamçısı olan möhtərəm Prezident cənab İlham Əliyevin diqqətini, qayğısını və dəstəyini daim görür və hiss edir, Baş Prokurorluğun rəhbərliyinin əmr və göstərişlərinə dürüst əməl etməklə öz xidməti vəzifələrimizin icrasında bu etimadı doğrultmağa çalışırıq.

Demokratik cəmiyyətdə öz funksiyalarını yerinə yetirərkən cəmiyyətimizin və dövlətimizin maraqlarının qorunmasında prinsipiallıq və peşəkarlıq nümayiş etdirməklə, cinayətkarlıqla mübarizədə, qanunçuluğun təmin olunmasında, bütövlükdə hüquq sisteminin inkişafında fəal və əhəmiyyətli rol oynamaqla ulu öndərimiz Heydər Əliyevin qurub-yaratdığı müasir müstəqil Azərbaycanın daha da çiçəklənməsi naminə bundan sonra da qətiyyət və əzmlə işləmək, insan hüquq və azadlıqlarının müdafiəsinə, ictimai-siyasi sabitliyin, əmin-amanlığın və dövlətçiliyimizin layiqincə qorunmasına xidmət etmək prokurorluğun hər bir əməkdaşının şərəfli borcudur.

**Rauf MƏMMƏDOV,**
**Azərbaycan Respublikası Baş Prokurorluğunun Fövqəladə Hallar Nazirliyi, Dövlət Təhlükəsizlik və Dövlət Sərhəd Xidmətlərinin istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəis müavini, baş ədiliyyə müşaviri.**

# Səbail: görülən işlər uğurların başlanğıcıdır

**Səbail Rayon İcra Hakimiyyətində 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağı keçirildi.**



Rayonun idarə, təşkilat və müəssisələrinin, hüquq-mühafizə orqanlarının, xidmət sahələrinin rəhbərlərinin, eləcə də ictimaiyyətin nümayəndələrinin iştirakı ilə keçirilən yığıncağı açan **Səbail Rayon İcra Hakimiyyətinin başçısı Eldar Əzizov** İlham Əliyevin yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməsi münasibətilə iştirakçıları təbrik etdi, rayon ictimaiyyəti adından cənab Prezidentə ölkəmizin inkişafı, tərəqqisi və xalqımızın rifahının artırılması istiqamətindəki işlərində yeni-yeni uğurlar arzuladı.

Daha sonra natiq Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Prezident İlham Əliyevin proqram xarakterli nitqinin bir sıra məqamlarına toxundu, ölkə rəhbərinin qarşıya qoyduğu vəzifələr və konret tapşırıqlar, həmçinin cari ilin ilk 3 ayında Səbail rayonunda görülən işlər, həyata keçirilən layihələr, sosial-iqtisadi inkişafda əldə olunmuş uğurlar, mövcud problemlər və onların aradan qaldırılması yolları barədə ətraflı məlumat verdi.

Səbail Rayon İcra Hakimiyyəti başçısının müavini Eldar Ağayev rayonda 2018-ci ilin birinci rübünün yekunlarından danışaraq qeyd etmişdir ki, 3 ay ərzində rayonun iri sənaye müəssisələri tərəfindən 7 milyard 319,9 milyon manatlıq məhsul istehsal edilmişdir. Əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə istehsal 1,4 faiz artmışdır.

Hesabat dövründə Səbail rayonu ərazisində 1438 yeni iş yeri açılmışdır. Bunlardan hamısı daimi iş yerləridir. Ümumilikdə isə 2003-cü ilin 01 oktyabr tarixindən 01.04.2018-ci il tarixinə kimi 59545 yeni iş yerləri açılmışdır ki, bunun da 53708-i daimi iş yerləridir.

Qeyd olunmuşdur ki, hazırda rayon ərazisində bir sıra müxtəlif təyinatlı obyektlərin, 2 yeni mehmanxananın tikintisi, İncəsənət muzeyinin əsas binasının və Bülbül adına orta ixtisas musiqi məktəbinin əsaslı təmiri davam edir.

Mart ayının 6-da Heydər Əliyev Fondunun təşəbbüsü ilə Bayıl yaşayış sahəsində yerləşən 157 nömrəli uşaq bağçası sökülərək yenidən tikilmişdir.

Mart ayının 28-də isə Dövlət Təhlükəsizliyi Xidmətinin Səbail Rayon İdarəsinin yeni inzibati binasının açılışı olmuşdur.

Hər il olduğu kimi, bu il də Formula-1 yarışları ərəfəsində şəhər mərkəzində yerləşən yaşayış binalarının fasadlarında təmir-rəngləmə işləri aparılmışdır. Eyni zamanda, mərkəzdəki bütün əsas küçələrdə və istirahət parklarında səkilərdə təmir işləri aparılıb, panduslar quraşdırılır.

Rayonun ən böyük qəsəbəsi olan Badamdar qəsəbəsində sosial layihələrin həyata keçirilməsi davam edir. RİH tərəfindən qəsəbənin əsas küçəsi olan Badamdar yolunun müasir standartlara uyğun yenidənqurulması ilə bağlı işlər görülür.

Qeyd olunmuşdur ki, 2018-ci ilin yanvar ayında atmosfer yağıntılarının təsirindən Səbail rayonu Bayıl yamacındakı mövcud sürüşmə zonasında aktivlik nəzərə çarpmış, 10 fevral 2018-ci il tarixində isə bu ərazidə baş vermiş lokal torpaq sürüşməsi nəticəsində 4 fərdi yaşayış evi tam, 2 fərdi yaşayış evi isə qismən dağılmışdır.

Sakinlərin təhlükəsizliyinin təminatı üçün Səbail Rayon İcra Hakimiyyətində Xüsusi Qərargah yaradılmış və onlar təhlükəli ərazidən köçürülmüşlər.

Vətəndaşların problemlərinin həlli ilə əlaqədar Nazirlər Kabineti tərəfindən ərazidən köçürülmüş 98 ailəyə 11 ay ərzində müvəqqəti yerləşdiyi mənzillər üçün kirayə haqlarının ödənilməsinə vəsait ayrılmışdır.

Həmçinin, Nazirlər Kabinetinin digər Sərəncamına uyğun olaraq bu ərazidə baş vermiş lokal torpaq sürüşməsi nəticəsində ziyan çəkmiş 6 fərdi yaşayış evlərində yaşayan vətəndaşlara birdəfəlik maddi yardım verilmişdir.

Azərbaycanlıların soyqırımının 100 illiyi ilə əlaqədar keçirilən tədbirlər çərçivəsində RİH-in təşkilatçılığı ilə ingilis dilinə tərcümə olunmuş "Azərbaycanlıların soyqırımı" kitabının təqdimatı keçirilmişdir.

Yığıncaqda çıxış edənlər yerli infrastruktur layihələrinin icra olunması və sahibkarların fəaliyyətinə köməklik göstərilməsi, məşğulluq səviyyəsinin artırılması və yeni iş yerlərinin açılması ilə bağlı əlavə tədbirlərin görülməsi, nəzərdə tutulan yeni abadlıq-quruculuq layihələri, yeniyetmələrin zərərli vərdişlərdən uzaqlaşdırılması üçün onların asudə vaxtlarının təşkili ilə bağlı əlavə tədbirlərin görülməsi, bu ay keçiriləcək irimiqyaslı beynəlxalq idman yarışları zamanı mərkəz ərazilərin sanitar vəziyyətinin yüksək səviyyədə saxlanılması, vətəndaşların müraciətləri ilə bağlı görülən işlərə və s. məsələlərə toxundular, sakinləri narahat edən suallar cavablandırıldı, nöqsanların araşdırılması və aradan qaldırılması üçün aidiyyəti qurumların rəhbərlərinə müvafiq tapşırıqlar verildi.

Sonda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciət qəbul olundu.

**Məhəmməd VƏLİYEV,**
**"Respublika".**

# Suraxanı: qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir






**Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı nitqindən irəli gələn vəzifələr Suraxanı Rayon İcra Hakimiyyəti başçısı yanında Şuranın geniş iclasında ətraflı müzakirə olunmuş, qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir.**

Şuranın geniş iclasında məruzə ilə çıxış edən rayon icra hakimiyyətinin başçısı İlqar Abbasov vurğuladı ki, ölkə əhalisinin yüksək fəallığı şəraitində, mütəşəkkil, şəffaf şəkildə keçirilən, insanların yüksək əhval-ruhiyyə ilə iştirak etdikləri 11 aprel prezident seçkiləri möhtərəm Prezidentimiz cənab İlham Əliyevin möhtəşəm və inamlı qələbəsi ilə başa çatdı, bir daha təsdiq etdi ki, cənab İlham Əliyev ölkəmizə rəhbərlik etdiyi on beş il ərzində xalqın böyük hörmət və rəğbətini qazanmışdır. Bu parlaq qələbə münasibətilə cənab Prezidenti rayon ictimaiyyəti adından təbrik edirəm. Hər birimiz qürur duyuruq ki, xalqımız növbəti 7 ildə də möhtərəm Prezidentimiz cənab İlham Əliyevlə irəliləyəcəkdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Nazirlər Kabinetinin iclasındakı çıxışında səsləndirdiyi başlıca müddəalar barədə ətraflı məlumat verən İlqar Abbasov bildirdi ki, son 15 il ərzində dövlət başçısı tərəfindən sistemli şəkildə həyata keçirilən məqsədyönlü və düşünülmüş islahatlar ölkəmizin bütün regionlarının, o cümlədən Suraxanı rayonunun hərtərəfli sosial-iqtisadi inkişafını təmin etmişdir. Cari ilin birinci rübü ərzində Suraxanı rayonunda sənaye məhsulunun istehsalı 77,2 milyon manat, tikinti-quraşdırma işləri 8,4 milyon manat, nəqliyyat xidmətləri 3,4 milyon manat, əsas kapitala yönəldilən investisiyalar 22,3 milyon manat, kənd təsərrüfatı 1,3 milyon manat, pərakəndə ticarət dövriyyəsi 218,3 milyon manat olmuş, orta aylıq əməkhaqqı 576 manat təşkil etmiş, əhaliyə 54,8 milyon manat məbləğində pullu xidmətlər göstərilmiş, 1154 yeni daimi iş yeri açılmışdır.

Qaraçuxur qəsəbəsində "ATEF Şirkətlər Qrupu"nun yüksəkgərginlikli avadanlıqlar zavodunun tikintisi başa çatdırılmışdır.

Hesabat dövründə neft əməliyyat şirkətləri tərəfindən ümumi sahəsi 2,0 hektar olan müxtəlif ölçülü 32 gölməçə qurudulmuş, neftlə çirklənmiş 6,41 hektar torpaq sahəsi təmizlənmişdir.

Suraxanı Rayon Gənclər və İdman İdarəsi böyüməkdə olan gənc nəsli hərbi-vətənpərvərlik ruhunda tərbiyə etmək, məktəb şagirdlərini hərbi-idman və turizm oyunlarına cəlb etmək, onları ordu sıralarında xidmətə hazırlamaq məqsədi ilə şagirdlər arasında "Şahin" və "Sərhədçi" hərbi-idman oyunları üzrə yarışların keçirilməsini təşkil etmiş, bu yarışlarda ümumilikdə 3711 məktəbli iştirak etmişdir.

Suraxanı rayon ümumtəhsil məktəblərində bədən tərbiyəsi və sağlamlıq işlərini yaxşılaşdırmaq, şagirdlər arasında kütləvi bədən tərbiyəsi və idman işlərini daha da inkişaf etdirmək məqsədi ilə hesabat dövründə Suraxanı rayon məktəblilərinin iştirakı ilə keçirilmiş yarışlar ümumilikdə 1713 məktəblini əhatə etmişdir.

Ötən dövr ərzində rayonda vətəndaşların müraciətlərinə, onların problemlərinin həllinə diqqət artırılmış, 510 nəfərin iştirakı ilə 10 səyyar görüş-qəbul keçirilmiş, RİH-in başçısı tərəfindən 228 nəfər vətəndaş qəbul edilmişdir.

Rayon əhalisinin sosial müdafiəsinin gücləndirilməsi məsələlərinə daim diqqət göstərilmiş, Dövlət Sosial Müdafiə Fondunun rayon şöbəsində hazırda 8960 nəfər sosial müavinət alan vətəndaş qeydiyyatda alınmış, 2018-ci ilin 1-ci rübü ərzində həmin vətəndaşlara 2,27 milyon manat sosial müavinət verilmiş, 1106 ailəyə ünvanlı sosial yardım təyin edilmiş, 173 nəfər tənha, əlil vətəndaşa evlərində sosial xidmət göstərilmiş, 46 nəfər müalicə və istirahət üçün pansionat və sanatoriyalara göndərilmiş, rayon məşğulluq mərkəzi 236 nəfəri işlə təmin etmiş, 28 nəfər peşə hazırlıq kurslarına cəlb olunmuş, orta ümumtəhsil məktəblərində 827 nəfər şagird peşəyönümünə cəlb olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən əhalinin məşğulluq səviyyəsinin artırılması məqsədilə işsiz vətəndaşların ödənişli ictimai faydalı işlərə cəlb edilməsi proqramı davam etdirilmiş, 2018-ci ildə rayon üçün həmin proqrama əsasən 1362 yeni iş yeri açılmış, rayonun ərazisində abadlıq, yaşıllaşdırma və təmizlik işlərinin görülməsi, çoxmənzilli yaşayış binalarının əsaslı təmiri işlərinə Rayon MKTB-yə 31-i məcburi köçkün olmaqla cəmi 714 nəfər işaxtaran şəxs, digər qurumlarda isə 486 nəfər vətəndaş işə qəbul edilmiş və hazırda işlər davam etdirilir.

Azərbaycan Respublikası Prezidentinin 2018-ci il fevralın 10-dan mayın 1-dək bütün ölkə vətəndaşlarının tibbi müayinədən keçirilməsi ilə bağlı tapşırığının icrası ilə əlaqədar 01 aprel 2018-ci il tarixədək rayon üzrə 87234 nəfər və 82 müəssisənin kollektivi tibbi müayinədən keçmiş, müxtəlif xəstəliklər aşkarlanmış vətəndaşlar müalicəyə cəlb edilmişdir.

Şuranın geniş iclasında Milli Məclisin deputatı Sevinc Fətəliyeva, YAP Suraxanı Rayon Təşkilatının sədri Vüqar Seyidov və digər çıxış edənlər uğurlara və problemlərə diqqət yetirmiş, qarşıda duran vəzifələrlə bağlı fikir və təkliflərini söyləmişlər.

Müzakirələri yekunlaşdıran rayon icra hakimiyyətinin başçısı İlqar Abbasov vurğuladı ki, Azərbaycanın bütün regionlarının, o cümlədən Suraxanı rayonunun hərtərəfli inkişafına böyük diqqət və qayğı göstərən dövlətimizin başçısını əmin etmək istəyirəm ki, Heydər Əliyev siyasi və iqtisadi kursuna sadiq olan rayonun sakinləri və əmək kollektivləri cənab İlham Əliyev tərəfindən müəyyən edilən vəzifələrin yerinə yetirilməsi, rayonumuzun inkişaf etdirilməsi və abadlaşdırılması naminə üzərimizə düşən vəzifələrin icra edilməsi üçün bütün səylərimizi və qüvvəmizi səfərbər edəcəyik.

İclas iştirakçılarının Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə müraciəti qəbul olundu.

Sonda rayonun ictimai həyatında və digər sahələrdə fəal iştirakına görə bir qrup şəxs rayon icra hakimiyyəti başçısının Fəxri Fərmanı ilə təltif edildi.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

# Beyləqan: birinci rübün yekunları müzakirə olundu





**Beyləqan rayonunda 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağı keçirildi. Yığıncağda rayon icra hakimiyyəti aparatının işçiləri, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və xidmət təşkilatlarının rəhbərləri, icra nümayəndələri, bələdiyyə sədrləri və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər. Rayon icra hakimiyyətinin başçısı Vaqif Abdullayev bildirib ki, 2018-ci ilin birinci rübündə Beyləqan rayonunun sosial-iqtisadi inkişafında da yaxşı nəticələr əldə olunmuşdur.**

Regionların sosial-iqtisadi inkişafın yeni mərhələsinin tələblərinə uyğun Beyləqan rayonunda kənd təsərrüfatının və sənayenin inkişafı, ekologiya və təbii sərvətlərdən səmərəli istifadə edilməsi, nəqliyyat-yol infrastrukturunun, elektrik enerjisinin, istilik və qaz təchizatının, su təsərrüfatı və kanalizasiya sistemləri xidmətlərinin yaxşılaşdırılması, aqrar sektorun, meliorasiya-irriqasiya və digər infrastrukturun təminatı, təhsil, səhiyyə, mədəniyyət və idman müəssisələrinin inkişafı və yeniləşməsi kimi həlli vacib olan mühüm tədbirlər nəzərdə tutulmuşdur. Həmin tədbirlərin icrası istiqamətində görülən işlər sayəsində rayonun sosial-iqtisadi inkişafında müəyyən irəliləyişlərə nail olunmuşdur.

Beyləqan rayonunda 2018-ci ilin birinci rübündə ümumi məhsul istehsalı 52,8 milyon manata çataraq 102 faiz olmuş, o cümlədən sənaye məhsullarının istehsal həcmi 8,5 milyon manat, 103,3 faiz, pərakəndə əmtəə dövriyyəsi 37,1 milyon manat olmaqla 101,2 faiz təşkil etmişdir. Həmçinin, adambaşına düşən pərakəndə əmtəə dövriyyəsi 379,7 manat olmaqla 101 faiz olmuşdur.

Kənd təsərrüfatının bitkiçilik sektorunda 15776 hektar sahədə dənli bitkilər, o cümlədən 13903 hektar sahədə buğda, 1543 hektarda isə arpa əkilmişdir. Keçən ilin müvafiq dövrü ilə müqayisədə 820 hektar artıq buğda əkilmişdir. İcra başçısı bildirdi ki, rayonumuzda bu il 9560 hektar sahədə pambıq əkilməsi üçün müqavilələr bağlanmış, bu isə keçən ilin müvafiq dövrü ilə müqayisədə 1060 hektar çoxdur. Pambıq əkilməsi nəzərdə tutulan torpaq sahələri şumlanılmış, bütün aqrotexniki qaydalara riayət olunmuş, səpinə hazırlıq vəziyyətinə gətirilmişdir. Bu ilin 3 ayı ərzində 222 hektar sahədə şəkər çuğundurı əkilmiş, ötən ilin müvafiq dövrünə nisbətən 133 hektar artıq olmaqla 2,5 dəfə çox olmuşdur. Bu ilin 3 ayı ərzində 377 hektar sahədə kartof, 995 hektar tərəvəz, 97 hektar bostan məhsulları əkilmişdir. Hazırda yazlıq bitkilər əkini davam edir.

Bu dövrdə rayon iqtisadiyyatının əsasını təşkil edən kənd təsərrüfatının heyvandarlıq sektorunda müsbət artım meyilləri müşahidə olunmuş, iribuynuzlu heyvanların baş sayı 162 baş artaraq 58802 baş, xırdabuynuzluların sayı isə 401 baş artaraq 301832 baş, quşların sayı 415 baş artaraq 473854 baş olmuşdur. Ət istehsalı diri çəkidə 15 ton artaraq 2484 ton, süd istehsalı 37 ton artaraq 11063 tona, yumurta istehsalı 1,7 milyon ədəd artaraq 5,6 milyon ədədə çatmışdır.

Rayon rəhbəri qeyd etdi ki, Beyləqan rayonunda 2012-ci ilin aprel ayından başlanmış abadlıq və quruculuq işləri bu gün də davam etdirilir. 2018-ci ilin birinci rübündə Beyləqan Olimpiya İdman Kompleksinin, Beyləqan Tarix-Diyarşünaslıq Muzeyinin tikintisinə, 1941-45-ci illərdə həlak olmuş həmvətənlilərimizin xatirəsinə ucaldılmış abidənin əsaslı təmirinə başlanılmış, qiymətli üzlük daşlarla üzlənmişdir, bu istiqamətdə işlər davam etdirilir.

Hazırda rayonda 54 ümumtəhsil məktəbi fəaliyyət göstərir və bu məktəblərdə təhsil alan 13095 nəfər şagirdin təlim-tərbiyəsi ilə 1789 nəfər müəllim məşğul olur.

Ötən müddət ərzində rayonun təhsil müəssisələrinin maddi-texniki bazasının möhkəmləndirilməsi sahəsində xeyli işlər görülmüşdür.

Ulu öndər Heydər Əliyevin 95-ci ildönümü münasibəti ilə silsilə tədbirlər keçirilmişdir.

"Ölkəmizi tanıyaq" layihəsi çərçivəsində əlaçı və aztəminatlı ailələrin uşaqlarından ibarət 40 nəfər məktəbli 2018-ci ilin mart ayında Şəki, Qəbələ və Zaqatala şəhərlərində olmuşdur. Eyni zamanda, Fənn Olimpiadalarının zona mərhələsində iştirak edən şagirdlərimizdən 4 nəfəri Coğrafiya və Riyaziyyat fənləri üzrə keçiriləcək olimpiadanın respublika mərhələsinə vəsiqə qazanmışdır.

2018-ci ilin fevralın 15-dən may ayının 15-dək 18 yaşdan yuxarı əhalinin tibbi müayinədən keçirilməsi barədə ölkə Prezidentinin tapşırığına uyğun olaraq rayon icra hakimiyyəti başçısının Sərəncamı ilə komissiya yaradılmışdır. Bu günə qədər 58660 nəfər tibbi müayinələrdən keçmiş, onlardan 47 nəfəri Bakı şəhərinə müalicəyə göndərilmiş, 206 nəfər stasionar müalicəyə cəlb olunmuşdur. Rayonda müayinə və müalicə zamanı şəkərli diabet xəstələri üstünlük təşkil etmişdir. Tibbi müayinə davam etdirilir.

Beyləqan Rayonu İcra Hakimiyyəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müdrik daxili və xarici siyasətini dəstəkləyərək ətrafında sıx birləşəcək, onun siyasi iradəsinə əsaslanaraq bütün göstərişlərinin, qərar və tapşırıqlarının dönmədən həyata keçirilməsini təmin edəcəkdir.

**Ərəstun ABDULOV,**
**"Respublika".**

# Ağdam: dövlət qayğısına əməli işlə cavab verilir





**Ərazisinin dördə üç hissəsi Ermənistan tərəfindən işğal edilmiş rayonda son vaxtlar tikinti-quruculuq işlərinin həcmi xeyli artıb. Dövlətimizin başçısı İlham Əliyevin təşəbbüsü, tövsiyəsi və tapşırığı əsasında aparılan yenidənqurma işləri sakinlərin dərin razılığına səbəb olur.**

Ağdamlılara göstərilən dövlət qayğısının ardıcıl və davamlı xarakter aldığı bir vaxtda rayon əhalisi prezident seçkilərində fəal iştirak ediblər. Onlar Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəyişməz və qətiyyətli mövqeyini müdafiə etdiklərini və tezliklə doğma yurd yerlərinə qayıdacaqlarını bir daha nümayiş etdiriblər. Təbii ki, insanlara göstərilən diqqət və qayğı onların həyat şəraitinə, güzəranına müsbət təsir göstərir və həmin adamlar doğma torpağa daha da ürəkdən bağlanırlar.

Vaxtilə rayonun ən ucqar kəndi hesab olunan və bu gün qəsəbə statusu daşıyan Quzanlıya indi hamı şəhər gözündə baxır. Çünki burada işğal altında olan Ağdamdakı məşhur Çay evi inşa olunub, ulu öndər Heydər Əliyevə xalq məhəbbətinin simvolu olan geniş prospekt salınıb. Bölgədə analoqu olmayan, milli-memarlıq nümunəsini əks etdirən Heydər Əliyev Mərkəzi istifadəyə verilib. Rayon icra hakimiyyətinin binasında və qaşısında əsaslı yenidənqurma işləri aparılıb.

Barıt qoxuyan torpaq öz övladlarının zəhməti, təəssübkeşliyi, doğma yurda məhəbbəti sayəsində, sözün əsl mənasında tarixinin yeni səhifələrini yazır.

Bütün bunlar haqqında Quzanlı qəsəbəsində keçirilən rayon icra hakimiyyəti başçısı yanında şuranın 2018-ci ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağında daha ətraflı və daha ürəkaçan məlumatlar səslənib.

Rayon icra hakimiyyətinin başçısı Raqub Məmmədovun hesabat məruzəsində qeyd olunub ki, bu ildə Ermənistanın cəbhədə törətdiyi təxribatlara, yaşayış məntəqələrini atəşə tutmasına baxmayaraq, rayonun sosial-iqtisadi inkişafı davam edib, geniş tikinti, abadlıq-quruculuq işləri aparılıb.

Qeyd olunub ki, bu ilin birinci rübündə rayon üzrə ümumi məhsul istehsalının həcmi 18,8 milyon manat olub. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 5 faiz çoxdur. Hesabat dövründə 3,9 milyon manatlıq sənaye, 9,1 milyon manatlıq kənd təsərrüfatı məhsulları istehsal edilib, 1,6 milyon manatlıq tikinti-quraşdırma işləri aparılıb.

Yığıncaqda ilin üç ayının yekunları təhlil edilib, qarşıda duran vəzifələrdən danışılıb. Bildirilib ki, Quzanlı-İmamqulubəyli-Orta Qərvənd-Xındırıstan və Əfətli-Hacıturalı-Həsənxanlı avtomobil yollarının tikintisi başa çatdırılaraq sakinlərin istifadəsinə verilib. Hazırda Quzanlı qəsəbəsində 360 şagird yerlik orta məktəb binasının və Muğam Mərkəzinin tikintisi davam etdirilir.

Aqrar sahədə görülən işlərdən danışılarkən diqqətə çatdırılıb ki, ilin birinci rübündə 1019 hektar sahədə tərəvəz, 330 hektarda kartof, 437 hektarda təzə yonca, 131 hektarda şəkər çuğunduru əkilib. Pambıq becərilməsi üçün 3100 hektarda şum aparılıb, çiyid səpininə başlanılıb. Rayonda heyvandarlığın, xüsusilə cins mal-qaranın inkişaf etdirilməsi məqsədilə 541 baş heyvan süni yolla mayalandırılıb, 395 baş sağlam bala alınıb.

Yığıncaqda əhalinin təbii qaz, elektrik enerjisi, rabitə və digər xidmətlərlə təminatının yaxşılaşdırılması istiqamətində görülən işlərdən, təhsil, mədəniyyət, səhiyyə və aqrar sahədə əldə olunan uğurlardan da ətraflı bəhs edilib, mövcud problemlərə toxunulub, onların həlli yollarından və qarşıda duran vəzifələrdən danışılıb.

**Salman ALIOĞLU,**
**"Respublika".**

# Azərbaycanın tərəqqi və inkişaf yolu

Azərbaycanın tarixi fərqli düşüncəyə, xarakterə və qabiliyyətə malik müxtəlif səciyyəli rəhbərlərin obrazları ilə kifayət qədər zəngindir. Lakin zaman sübut edib ki, yalnız ali və nəcib keyfiyyətlərə malik, özündə bir çox liderlərə məxsus xüsusiyyətləri birləşdirən, bütün gücünü və əzmini xalqın mənafeyi naminə sərf edən, ona göstərilən etimadı layiqincə doğrulda bilən rəhbər öz mövqeyini və nüfuzunu tarixən qoruyub saxlaya bilir. Bununla bağlı çağdaş tariximizin ən bariz nümunəsi kimi dahi Heydər Əliyevin həyatını misal gətirmək istərdim. Bu gün onun gerçək siyasi varisi kimi qəbul edilən və Azərbaycanın mərdlik, qətiyyət və ləyaqət simvoluna çevrilmiş Prezident İlham Əliyev isə xalqımızı daha firavan gələcəyə doğru aparan yolu inamla davam etdirməkdədir.

Müstəqil Azərbaycan dövlətinin sükanı arxasında durduğu 15 il ərzində o, cəmiyyətə özünün xarizmatik lider obrazını və siyasi davranış modelini təqdim edib, söz və əməl birliyinə əsaslanan siyasi əxlaq və etika nümunəsini ortaya qoyub. Cənab İlham Əliyev, eyni zamanda, Azərbaycanın tərəqqisini şərtləndirən fəaliyyəti ilə daha qüdrətli və əzəmətli siyasi xadimdir.

Hər dəfə ölkəmizdə seçki keçiriləndə dünyanın diqqəti respublikamıza yönəlir. Ölkəmizdə şəffaf, azad və demokratik seçki keçirilməsinə mühüm önəm verilir və bu istiqamətdə nüfuzlu beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq davam etdirilir. Seçki hər bir ölkənin həyatında mühüm əhəmiyyət kəsb edir. Azərbaycan hökuməti də bunu nəzərə alaraq, istər seçki qanunvericiliyinin təkmilləşdirilməsi, istərsə də seçkilərə hazırlıq və seçkilərin keçirilməsi istiqamətində gələcəkdə də qarşılıqlı və konstruktiv ruhda əməkdaşlığın davam etdirilməsində maraqlıdır.

Azərbaycan xalqı növbəti Prezident seçkilərinə yüksək əhval-ruhiyyə ilə gəldi və yekdilliklə öz iradəsini nümayiş etdirdi. Xalq yenə də müdrikliklə, uzaqgörənliklə seçim etdi. Cənab İlham Əliyevi yenidən özünə rəhbər, lider - Prezident seçdi.

Azərbaycan heç vaxt indiki kimi güclü olmayıb və bu, bilavasitə Prezident İlham Əliyevin adı ilə bağlıdır. Azərbaycanın bu gücü onun Prezidentinin və xalqının birliyindədir.

Azərbaycan İlham Əliyevin rəhbərliyi ilə son 15 ildə böyük nailiyyətlər əldə edib. Ölkə həyatının elə bir sahəsi yoxdur ki, orada uğurlar qazanılmasın, irəliləyişlərə nail olunmasın.

Prezident İlham Əliyevin apardığı genişmiqyaslı sosial-iqtisadi siyasət nəticəsində Azərbaycanın bölgələri yaxşı mənada tanınmaz olub. Şəhər və rayonlarımızda, kənd və qəsəbələrimizdə XX əsrin 80-ci illərinin sonu-90-cı illərinin əvvəllərindən qalan problemlərin hamısı çözülüb. Ulu öndər Heydər Əliyevin siyasi kursunu, ənənələrini uğurla davam etdirərək və onları günün tələbləri baxımından daha da inkişaf etdirərək Prezident İlham Əliyev Azərbaycana yeni, gözəl, firavan bir həyat bəxş edib. Azərbaycan regionlarının sosial-iqtisadi inkişafına yönəldilmiş iki dövlət proqramı müvəffəqiyyətlə yerinə yetirilib. Artıq üçüncü proqramın sonuncu illərinin vəzifələri həyata keçirilir.

Azərbaycan xalqı bunlara İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi illərdə nail olub və aydın görür ki, bu inkişaf, bu irəliləyiş davamlıdır. Ona görə də aprelin 11-də seçki məntəqələrinə gələn seçicilərin 86,03 faizi Prezident İlham Əliyevə səs verdilər.

Yeri gəlmişkən, bu il müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 ili tamam olur. Bu faktı təsadüfən xatırlatmırıq. Avropa alimləri dönə-dönə etiraf ediblər ki, Azərbaycan Xalq Cümhuriyyətinin mükəmməl seçki keçirmək təcrübəsi olub .

Ölkə vətəndaşları Heydər Əliyev siyasi kursunu yeganə nicat və istinadgah mənbəyi seçdiyi kimi, Azərbaycanın taleyini ulu öndərin layiqli davamçısı - bu kursu layiqincə davam etdirən dövlət başçısı cənab İlham Əliyev hər addımında milli maraq və mənafeləri uca tutur, ölkə vətəndaşlarının arzu və istəyini gerçəkləşdirmək üçün böyük əzmkarlıqla çalışır. Azərbaycan Prezidentinin fəaliyyətinin əsas qayəsi xalqa və dövlətə sədaqətli xidmət prinsipi üzərində qurulmuşdur ki, bu da Prezident İlham Əliyevin Azərbaycanın tərəqqi və inkişafına, uğurlu gələcəyinə daha çox töhfələr verəcəyinə olan dərin və səmimi inamın təcəssümüdür.

Bu gün ölkə səhiyyəsinin beynəlxalq standartlara uyğun səviyyədə inkişafının əsası hələ ötən əsrin 70-ci illərindən Heydər Əliyevin adı ilə bağlıdır. Əksər böyük tibb müəssisələri məhz Heydər Əliyevin hakimiyyəti dövrlərində tikilib. Yalnız paytaxtda deyil, regionlarda da çoxprofilli xəstəxanalar tikilib əhalinin istifadəsinə verilib. Müdrik siyasətçinin rəhbərlik etdiyi illərdə bir çox mütəxəssislər xaricə göndərilir, öz peşə və bacarıqlarını inkişaf etdirib Vətənə qayıdırdılar.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin 2001-ci il iyunun 4-də imzaladığı sərəncama əsasən, hər il iyunun 17-si ölkəmizdə tibb işçilərinin peşə bayramı günü kimi qeyd olunur.

Ulu öndərin başladığı siyasi kurs bu gün də çox uğurla davam edir. Son illər ərzində 600-dən artıq tibb müəssisəsi, o cümlədən çoxlu sayda diaqnostika mərkəzləri tikilib istifadəyə verilib.

Səhiyyənin uğurlarından danışarkən Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın da bu sahədə əməyi xüsusi qeyd edilir. İnsanlara hər sahədə öz yardımını göstərib və məhz onun təşəbbüsü ilə yaradılan Talassemiya mərkəzi səmərəli fəaliyyət göstərir.

Dövlətimiz yeni nəslin sağlamlığı üçün də çox vacib və gərəkli addımlar atır.

Son vaxtlar əhaliyə göstərilən tibbi xidmətin genişləndirilməsində və keyfiyyətinin artırılmasında səhiyyənin ayrı-ayrı sahələri üzrə qəbul edilmiş Dövlət proqramlarının da xüsusi rolu olmuşdur.

Qəbul olunmuş Dövlət proqramlarının uğurla icrası, insanlara göstərilən tibbi xidmətin səviyyəsinin yüksəldilməsinə nail olunmuşdur.

Səhiyyənin digər sahələri kimi, beynəlxalq əlaqələr sahəsində də görülən işlər davam etdirilmişdir. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə təsdiq edilmiş "Gənc mütəxəssislərin xarici ölkələrdə təhsili üzrə" Dövlət Proqramı çərçivəsində gənc mütəxəssislər dünyanın nüfuzlu klinikalarında təlim kursları keçmişlər. Eyni zamanda, xaricdən dəvət olunmuş mütəxəssislər tərəfindən tibb elminin müxtəlif sahələri üzrə tibb işçiləri üçün nəzəri-təcrübi kurslar təşkil edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin tapşırığını rəhbər tutaraq hər il olduğu kimi, 2018-ci ilin fevral ayının 12-dən may ayının 12-dək ölkə əhalisinin tibbi müayinələrdən keçirilməsi təşkil edilir.

Tibbi müayinə zamanı həkimlər tərəfindən profilaktik baxış keçirilir, sağlamlığa dair məlumatlar və xəstəliklərə səbəb olan risk faktorları ilə bağlı tövsiyələr verilir.

Xəstəlik aşkar edilmiş şəxslərin zərurət yarandığı hallarda ixtisaslaşdırılmış tibb müəssisələrində əlavə müayinə və müalicəyə cəlb olunması, digər sağlamlaşdırıcı tədbirlər həyata keçirilir.

Dünyadakı maliyyə böhranına baxmayaraq, Dövlət başçısının sosialyönümlü siyasətinin nəticəsi olaraq Azərbaycanda elmi tədqiqatların rolu, ölkəmizin ayrı-ayrı bölgələrində həyata keçirilən yüksək tibbi xidmətləri, peşəkar kadrların fəaliyyəti, çoxsaylı səhiyyə müəssisələrinin tikintisi, əsaslı təmiri və müasir avadanlıqlarla təchiz edilməsi həyata keçirilmişdir.

Qida Gigiyenası Agentliyinin yaradılması və fəaliyyəti, eləcə də hazırda pilot layihə çərçivəsində fəaliyyət göstərən icbari tibbi sığortanın üstünlükləri, habelə yeni qurumlarda innovativ idarəçilik üsullarının tətbiqi səhiyyənin inkişafında uğurlu layihələrdəndir.

Prezident İlham Əliyev hakimiyyətə gəldiyi gündən onun siyasətinin mərkəzində Azərbaycan vətəndaşlarının sağlamlığı dayanır. Əhalinin rifahının yaxşılaşdırılması, sosial problemlərin həlli, insanların müasir səhiyyə xidmətləri ilə təmin olunması istiqamətində ardıcıl addımlar atılıb. Son 14 ildən artıq bir müddətdə ölkədə səhiyyə islahatları uğurla reallaşdırılıb.

Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədəki tibb ocaqlarında xidmətin keyfiyyəti yaxşılaşdırılıb. Aztəminatlı və ağır xəstəliklərdən əziyyət çəkən insanların pulsuz dərmanlarla təmin olunması və müalicəyə cəlb edilməsi ölkə siyasətinin əsas istiqamətlərindən biridir. Son illər səhiyyə sahəsində yaşanan ən böyük inqilabi dəyişiklik isə bu sektorun dünyanın müasir tibbi texnika və avadanlıqları ilə təmin olunmasıdır. Müasir Azərbaycanı modern texnologiyaların tətbiq olunduğu məkana çevirmək məqsədini qarşıya qoyan Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində ölkəmizdə yenidən qurulan səhiyyə müəssisələri mühüm nailiyyətlər qazanıb. Azərbaycan Respublikası qarşıdakı illərdə daha böyük nailiyyətlərə imza atacaq, müstəqil dövlətimizin beynəlxalq aləmdə nüfuzu daha da artacaq.

Biz hər zaman, hər an, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin səhiyyəyə olan xüsusi diqqət və qayğısını hiss edirik. Bu da, məsuliyyətimizi artırır və gələcəkdə daha böyük nailiyyətlər əldə etmək üçün ruhlandırır. Dövlət başçısının səhiyyə siyasətini daim dəstəkləyən tibb işçiləri, öz növbəsində, qarşıya qoyulan vəzifələri bundan sonra da əzmlə yerinə yetirəcəklər.

**Hikmət HƏSƏNOV,**
**Mərkəzi Neftçilər Xəstəxanasının**
**Baş direktoru.**

# "AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN 100 İLLİYİ" MÖVZUSUNDA "DƏYİRMİ MASA"

**Gəncə Dövlət Universitetində Tələbə Gənclər Təşkilatının təşəbbüsü ilə "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi" mövzusunda "dəyirmi masa" təşkil olunmuşdur. Tədbir ilk öncə, Dövlət Himninin səslənməsi ilə açıq elan edildi. Sonra Azərbaycan Xalq Cümhuriyyətinin tarixinə aid videoçarx izlənildi.**



Gəncə Dövlət Universitetinin rektorunun baş müşaviri, dosent Asif Cavadov çıxışında bildirdi ki, Prezident İlham Əliyevin 2018-ci ili ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan etməsi tarixi hadisədir. Ölkə başçısının 16 may 2017-ci il tarixində verdiyi sərəncam, Azərbaycan xalqının dövlətçilik ənənələrinin qədimliyinə, zənginliyinə, dövlətçilik tariximizə verilən yüksək dəyərin bariz nümunəsidir. Qədim və zəngin dövlətçilik ənənələrinə malik Azərbaycan xalqı keçmişinin müəyyən dövrlərində tarixin hökmü ilə böyük imperiyalar tərkibinə qatılmaq məcburiyyətində qalmışdır. Azərbaycan Xalq Cümhuriyyəti məhz dünyanın siyasi nizamının yenidən qurulduğu bir vaxtda, XIX əsrin axırları və XX əsrin əvvəllərində Azərbaycanın yaşadığı parlaq mədəni yüksəliş mərhələsinin məntiqi yekunu kimi meydana çıxmışdır. 1918-ci il may ayının 28-də Azərbaycanın müstəqilliyini bəyan edən İstiqlal bəyannaməsi qəbul edildi. Yeni qurulan Azərbaycan Xalq Cümhuriyyəti öz üzərinə götürdüyü çətin tarixi vəzifəni şərəflə yerinə yetirdi. Azərbaycanın ilk Parlamenti və Hökuməti, dövlət aparatı təşkil edildi, ölkənin sərhədləri müəyyənləşdirildi, bayrağı, himni və gerbi yaradıldı, ana dili dövlət dili elan edildi, dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi. Ölkənin ərazi bütövlüyü və milli təhlükəsizliyi təmin edildi, qısa müddətdə yüksək döyüş qabiliyyətli hərbi hissələr yaradıldı, milli tələblərə və demokratik prinsiplərə uyğun dövlət orqanları quruldu, maarifin və mədəniyyətin inkişafına xüsusi diqqət yetirildi. Azərbaycanın ilk universiteti təsis olundu, təhsil milliləşdirildi, xalqın sonrakı illərdə mədəni yüksəlişi üçün zəmin hazırlayan, ictimai fikir tarixi baxımından müstəsna əhəmiyyətli işlər görüldü. Azərbaycan Xalq Cümhuriyyəti daim sülhsevər siyasət apararaq bütün dövlətlərlə qarşılıqlı əməkdaşlıq əlaqələri yaratmağa və bir-birinin hüquqlarına hörmət prinsipləri əsasında münasibətlər qurmağa cəhd göstərirdi. Azərbaycan Xalq Cümhuriyyəti təcavüzə məruz qaldığı üçün qarşıya qoyduğu məqsədlərə tam müvəffəq ola bilmədən süquta uğrasa da, onun şüurlarda bərqərar etdiyi müstəqillik ideyası unudulmadı. 1991-ci ildə müstəqilliyinin bərpasına nail olarkən müasir Azərbaycan Respublikası özünün qədim dövlətçilik ənənələrinə sadiq qaldığını göstərdi, Xalq Cümhuriyyətinin siyasi və mənəvi varisi olmaqla onun üçrəngli bayrağını, gerbini, himnini qəbul etdi. Xalqımız Cümhuriyyətin istiqlalını dünyaya yaydığı 28 May gününü həmin vaxtdan Respublika Günü olaraq təntənə ilə qeyd edir.

Tədbirdə çıxış edənlər qeyd etdilər ki, mövcudluğunun ilk günlərindən xalq hakimiyyəti və insanların bərabərliyi prinsiplərinə əsaslanan Azərbaycan Xalq Cümhuriyyəti bütün ölkə vətəndaşlarına eyni hüquqlar verərək irqi, milli, dini, sinfi bərabərsizliyi aradan qaldırıb. Cümhuriyyət parlamentinin 23 aylıq fəaliyyəti boyunca qəbul etdiyi qanunlar milli dövlətin müstəqilliyinin möhkəmləndirilməsinə, siyasi və iqtisadi inkişafa, mədəniyyət və maarif sahələrində sürətli irəliləyişə imkan verib. Dünya birliyi tərəfindən tanınmış Xalq Cümhuriyyətinin fəaliyyəti sayəsində Azərbaycanın beynəlxalq hüququn subyekti olması 1920-ci ilin aprel ayındakı bolşevik işğalından sonra bir dövlət kimi dünyanın siyasi xəritəsindən silinməsinin qarşısını alıb. Nəhayət, XX əsrin 90-cı illərinin əvvəlində Azərbaycan keçmiş SSRİ-nin dağılması nəticəsində yaranmış tarixi şəraitdən bəhrələnərək yenidən öz müstəqilliyinə qovuşub. Məhz ümummilli lider Heydər Əliyevin qurduğu müstəqil dövlət indi onun siyasi davamçısı, ölkə Prezidenti cənab İlham Əliyevin yürütdüyü siyasət nəticəsində dünyada tanınan və inkişaf edən ölkələr sırasında layiqli yer tutur.

**Zabit XƏLİLOV,**
**"Respublika".**

*Mirəli Seyidov – 100*

# Görkəmli mifoloq alim

**1942-1943-cü illər... İrəvan Dövlət Universiteti... Dünyagörmüş, ölkələr gəzmiş, erməni dilinin 562 dilnən müqayisəsini vermiş, akademik Hraçya Acaryan fikir içərisindədir. Artıq 35-40 ilə yaxındır ki, bir məsələ onu düşündürür, ancaq cavabını tapa bilmir. O, fikrini həmkarları akademiklər - ədəbiyyatşünas Abeğyan, dilçi Kapansyan, tarixçilər Manandyan, Malxasyanla, dərs dediyi tələbələrlə bölüşür, ancaq bir nəticə əldə edə bilmir. Açaryanı düşündürən nə idi?**

"Erməni dili strukturuna (sintaksis nəzərdə tutulur - M.S.), quruluşuna görə öz çevrəsində olan və onu işğal edən dillərin - latıncanın, yunancanın, fransızcanın, ərəbcənin, asoricənin və hətta kürdcənin strukturuna, quruluşuna uyğun ola-ola birdən-birə bunlardan uzaqlaşıb və türk-tatar dillərinin strukturuna oxşayır? Bu oxşayış tamam təsadüfidirmi? Erməni dilinin struktur quruluşunun dəyişilməsi səbəbləri yoxdurmu?"

H.Acaryan erməni dilinin quruluşundakı ciddi dəyişikliyə yeddinci yüzilliyin tarixçəsi Hovanes Mamikonyanın, on birinci yüzilliyin şairi Nareqasinin dilində təsadüf edərkən təəccüblənmişdir. Dəyişiklik nədən ibarətdir?

Məsələn, Türk dillərində deyilir: Mən şəhərə gedirəm. Qədim erməni dilində, fransız dilində olduğu kimi, "Mən gedirəm şəhərə" deyilirdi. Yəni türk dillərində "mübtəda - ikinci dərəcəli üzvləri - xəbər" getdiyi halda, qədim erməni, fransız dillərində cümlə quruluşu belədir: mübtəda-xəbər-ikinci dərəcəli üzvlər.

H.Acaryan bundan sonra 10-12 il də fikirləşdi, ancaq heç bir nəticə əldə edə bilmədi. Çünki səhv bir fikir onun beyninə həkk olmuşdu: guya türklər Qafqaza ilk dəfə 1021-ci ildə gəlmişdir. Ancaq onun ağlına da belə gəlməzdi ki, bu sualın cavabını təxminən 20-25 ildən sonra onun qarşısında əyləşən, dərs dediyi qrupdakı yeganə türk oğlu tapacaqdır. Bu gələcəyin böyük alimi Mirəli Seyidov idi.

Mirəli Mirələkbər oğlu Seyidov 1918-ci il oktyabr ayının 18-də İrəvanda anadan olmuşdu. O, burada ibtidai təhsilini almışdı. Özünü dərk edəndən İrəvanın görkəmli ziyalıları Mirzə Hüseyn Ağanı, Abbas Ağa Fərəcovu və digər savadlı şəxsləri görmüşdü. Xüsusilə Mirzə Hüseyn Ağa ilə gediş-gəlişi vardı, Bu böyük şərqşünas alim və şairin elmi söhbətləri gənc Mirəlinin gələcək həyat yolunu müəyyənləşdirməsinə ciddi təsir etmişdir.

O, 1938-ci ildə Bakıda S.Ağamalı oğlu adına hidromeliorasiya texnikumunu bitirir və həmin ildə İrəvan Pedaqoji İnstitutunun Azərbaycan bölməsinə daxil olur. Ancaq bu təhsil sanki Mirəlidə olan güclü, daxili elmi yanğını təmin edə bilmir. 1941-ci ildə İrəvan Dövlət Universitetinin şərqşünaslıq fakültəsinin fars dili şöbəsinə daxil olur. 3-cü kursda ikən onun universitetdən çıxarılması məsələsi qoyulur. Çünki universitetin rəhbərliyi onun gündüz institutda, axşam isə universitetdə təhsil almasından xəbər tutmuşdu. Ancaq təsadüf nəticəsində o təhsilini davam etdirir. 1945-ci ildə universiteti də müvəffəqiyyətlə bitirir. Mirəli müəllim həmişə qeyd edirdi ki, o zaman İrəvan Universiteti çox qüvvətli idi.

M.Seyidov 1947-ci ilə kimi "Sovet Ermənistanı" qəzetində ədəbi işçi, şöbə müdiri, məsul katibin müavini vəzifələrində çalışmışdır. İlk məqalə və oçerklərini də o, burada nəşr etdirir. 1947-1953-cü illər arasında o, Azərbaycan SSR EA Nizami adına Ədəbiyyat Muzeyinin orta əsrlər Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri vəzifəsində işləyir. 1953-cü ildə "Sayat Novanın həyat və yaradıcılığı" mövzusunda namizədlik dissertasiyasını müdafiə edir. Bir il sonra onun "Sayat Nova" kitabı çapdan çıxır.

M.Seyidov Nizami adına Dil və Ədəbiyyat İnstitutunda orta əsrlər şöbəsində, sonra isə ədəbi əlaqələr şöbəsində fəaliyyət göstərir. Uzun illər (1967-1980) ədəbi əlaqələr şöbəsinə başçılıq edir. 50-ci illərin sonunda M.Seyidov XVII əsr Azərbaycan şairi Qövsi Təbrizinin yaradıcılığı üzrə tədqiqat aparır. 1963-cü ildə tədqiqatçının "Qövsi Təbrizi" kitabı nəşr olunur. Tədiqatçıların qeyd etdiyi kimi, orta əsr şairinin yaradıcılığı haqqında bu günə kimi ikinci belə tədqiqat əsəri yaranmamışdır.

M.Seyidov yaradıcılığının böyük bir qolu ədəbi əlaqələri - daha dəqiq desək, Azərbaycan-erməni ədəbi əlaqələrini əhatə edir. O, 1969-cu ildə bu sahə üzrə doktorluq dissertasiyası müdafiə etmişdir. İrəvandakı erməni qaynaqlarından ilk dəfə tədqiqatçı kimi istifadə edən Azərbaycanlı alim Mirəli Seyidov olmuşdur. Ədəbi əlaqələr deyəndə, tədqiqatçı heç də çoxlarının başa düşdüyü kimi xalqlar dostluğundan bəhs etməmişdir. Mirəli Seyidov əsaslı surətdə təsdiq edirdi ki, Nizami, Xaqani, Nəsimi, Füzuli, Xətai, Vaqif kimi sənətkar şairlərin poeziyası erməni xalqı arasında geniş yayılmışdır. Ermənilər bu şairlərin şeirlərini bəzən tərcümə etmiş, əksər hallarda orijinalda olduğu kimi oxumuş, gah da mahnı şəklində ifa etmişlər. Erməni qaynaqlarına söykənən Mirəli Seyidov göstərirdi ki, bir sıra Azərbaycan dastanları "Aşıq Qərib", "Şah Sənəm", "Şah İsmayıl və Gülzar", "Əsli və Kərəm" və s. hələ X-XIV əsrlərdə ermənilər arasında geniş yayılaraq istifadə olunmuşdur. Ancaq Mirəli müəllimin təkzibedilməz fikri erməni alimlərini qəzəbləndirirdi.

Bir dəfə Ermənistan SSR EA M.Abeğyan adına Ədəbiyyat İnstitutuna getmişdim. Mövzu götürmək istəyirdim. Orada folklorşünas alim Ş.Qriqoryanla görüşəsi oldum. Soruşdu ki, elmi rəhbərin kimdir? Cavab verdim ki, Mirəli Seyidov və Teymur Əhmədov. Dedi ki, belə də iş olar? Mirəli kimi şovinist bir adam ədəbi əlaqələr şöbəsinin müdiri işləyir. Sonra söhbət dastanların üzərinə gələndə, dedi ki, E.Torosyana əsaslanan Mirəlinin fikri tamam yanlışdır. O, danışdıqca qızışır, əli ilə ürəyini tutub, əsəbi halda gəzişə-gəzişə həb atırdı.

Bəli, M.Seyidov E.Torosyanın 1937-ci ildə nəşr olunmuş "Ermənistanda X-XIV əsrlərin dünyəvi ədəbiyyatı" məqaləsinə istinad etmişdi. Sadəcə olaraq, Ş.Qriqoryan E.Torosyanın dediyi həqiqəti qəbul etmək istəmirdi.

XIII əsrdən başlayaraq, XVI əsrdən geniş vüsət almış, hətta XX əsrin özündə belə xeyli erməni sənətkarının Azərbaycan dilində yazıb-yaratmasını danmaqmı olar? Yaxud XIX əsr erməni yazıçı və ədəbiyyatşünasların Azərbaycan dili və şifahi xalq ədəbiyyatı haqqında söylədiyi həqiqəti necə?

M.Seyidovun ədəbi əlaqələr yaradıcılığından bəhs edərkən bir qolu xüsusilə qeyd etmək lazım gəlir: "Nərmü-nazik" bayatıları. Hələ çox-çox əski çağlardan ermənilər Azərbaycan bayatı-manilərindən özlərinin istər xeyir, istərsə də şər məclislərində istifadə etmişlər. Təsadüfi deyildir ki, XVI yüzillikdə yaşamış erməni sənətkarı Nahabet Quçaq Azərbaycan dilində şeirlər, o cümlədən manilər yazmışdı. Maraqlı cəhət orasındadır ki, bu manilərin bəziləri cinas şəklindədir.

Elyas Muşeğ 1721-ci ildə 100-dən artıq Azərbaycan bayatısını yazıya almışdır. Bu bayatılar ilk dəfə olaraq M.Seyidov tərəfindən mətbuat üzü görmüş və 1959-cu ildə "Ədəbiyyat və İncəsənət" qəzetində nəşr olunmuşdu. Beləliklə də iki əsr yarıma yaxın arxivlərdə qalmış Azərbaycan bayatıları elm aləminə yol tapmışdır. Bu barədə M.Seyidov Azərbaycan EA-nın "Xəbərləri"ndə geniş bir məqalə nəşr etdirmişdir. M.Seyidov öz məqaləsində ilk dəfə olaraq bayatıların mətnşünaslıq baxımından təhlilini vermiş və dördlüklərdə adları çəkilən sənətkarların bu bayatıların müəllifləri olduğunu göstərmişdir. O yazırdı: "Baba, Lələ adları ilə başlayan bayatılar eyni adlı, yaxud təxəllüslü müəlliflərin əsərləridir". İlk anlarda bu mülahizə şübhə altına alınsa da, aparılan axtarışlar M.Seyidovun fikrini təsdiq etdi.

Əski qaynaqlara əsaslanaraq Mirəli Seyidov uzun axtarışlardan sonra elmi surətdə təsdiq etdi ki, Qafqazda hələ eradan əvvəl XVI əsrdə türkdilli qəbilələr - qaşqaylar, eradan əvvəl VI əsrdə saqlar, eradan əvvəl IV əsrdə buntürklər, eradan əvvəl II əsrdə bulqarlar, basillər, haylantürklər, savirlər, hunlar yaşamışlar. Bu qəbilələr son dərəcə yüksək mədəniyyətə malik olmuş və qonşu xalqların mədəniyyətinə güclü təsir etmişdir.

M.Seyidovun toxunduğu məsələlərdən biri də Arsaq problemi idi. O, göstərirdi ki, arsaqlar əski türk qəbilələrindəndir və bu qəbilə Qafqazdan tutmuş Orta Asiyaya qədər yayılmışdı. Ermənilərin Arsaq deyib, Yuxarı Qarabağı öz adlarına çıxmalarının, göründüyü kimi, heç bir elmi əsası yoxdur.

Haşiyə: "Bir gün axşam Mirəli müəllimgilə getmişdim. Dedi çox qiymətli bir xəbər var. O, Bartoldun kitabını gətirdi. Böyük alim kitabında Sibirdə yaşamış türkdilli qəbilələrin arasında "Arsaqlı" tayfasının da adını çəkirdi. Sözlərin sonluğundakı "Lİ, "Lİ" bəlli olduğu kimi, sırf türk dillərinin şəkilçisidir. Mirəli müəllim "Arsaq"lı sözünü göstərib dedi. Daha "ermənilərin heç bir sözü ola bilməz".

Bartoldun fikrində bu türk qəbilələri də digər qan soydaşları kimi, Sibirin özündə belə məskən salmışdı. M.Seyidov bu sözü araşdıraraq belə qənaətə gəlirdi ki, Ar+saq-saq kişisi və yaxud igid saq deməkdir.

Türk qəbilələrinin mədəniyyətindən danışan görkəmli türkoloq qeyd edirdi ki, eradan 500 il qabaq yaşamış saqların, albanların əlifbaları olmuşdur. Onun fikrincə, Azərbaycan xalqının soykökündə duran türkdilli qəbilələrin əlifbasına iki dəfə güclü ziyan dəymişdi; bir xristianlığı qəbul edəndə, bir də islamı.

Beləliklə, türk qəbilələri böyük zəhmət hesabına yaratdığı tarixi yazılı abidəni, zor gücünə əldən verib, unutmuşdu.

Tarixi təhrif etmək, həmişə öz "xeyirlərinə" işləmək ermənilərin qanına işləmişdir. Məsələn, 1984-cü ildə Musa Qağanqatlının İrəvanda rusca nəşr olunmuş "Alban ölkəsinin tarixi" kitabına nəzər salarkən ermənilərin əl izləri aydın görünür.

Ermənilərin bir çox "təhriflərinin" açılmasında, ifşa edilməsində, istər qrapan, istərsə də aşxarabarı çox gözəl bilən M.Seyidovun xidməti az deyildir.

Məsələn, A.Ulubabyanın V yüzilliyin tarixçisi M.Xoranesinin əsərindən sitat gətirərkən "xoşuna gəlmədiyi" yerlərə nöqtələr qoyub, "sərbəst hərəkət etməsi" Mirəli müəllim tərəfindən məhz erməni dilini bilməsinə görə, açılıb sübuta yetirildi. Orta əsr tarixçisinin fikrini kəsib nöqtələr qoymaqla bu erməni millətçisi "çəpərini" qonşu dövlətin ərazisindən çəkmək istəyirdi. Hətta Musa Qağanqatlının sərhəd "Yerasx (Araz - M.S.) çayına qədərdir" deməsi Ulubabyanı qəzəbləndirir və bu fikrə istinad edənlərin yanıldıqlarını qeyd edir.

Tarixin yetirdiyi böyük şəxsiyyətləri özlərinə çıxmaq da ermənilərin "dədə-baba" xəstəliklərindəndir. Məsələn, həmişə onlar Dəvdəki erməni şairi hesab etmişlər. 70-ci illərdə İrəvanda buraxılmış "Qədim əsərlər" kitabında şairin məşhur "Cavanşirin ölümünə həsr etdiyi qəsidə"də erməni şairinin əsəri kimi təqdim edilmişdir.

Vaxtilə Dəvdək barədə görkəmli alim Mikayıl Rəfili, ondan xeyli sonra professor Voroşil Quqasyan "İlk azərbaycanlı şair Dəvdək" adlı məqaləsində öz fikrini söyləmişlər. M.Seyidov isə şairin adının etimologiyasına müraciət edərək əsaslandırdı ki, Dəvdək sırf türk sözüdü, mənası "dağ soylu", "dağa bənzər" deməkdir.

Alban şairi Dəvdək kimi IX əsr alban tarixçisi Musa Qağanqatlını da onlar erməni kimi qələmə vermiş və verməkdədirlər.

Bu sözün də etimologiyasına öz münasibətini bildirən M.Seyidov elmi əsaslarla sübut etdi ki, Qağanqatlı türk sözüdür - Qağanqatlı - möhkəm qağan (xan), (xaqan) ölkəsi deməkdir.

M.Seyidov yaradıcılığının böyük və ayrılmaz bir hissəsi mifologiya ilə bağlıdır. Cəsarətlə demək olar ki, o, Azərbaycanda mifologiya məktəbinin əsasını qoymuşdur. Mirəli müəllim bu gün də mifologiya ilə məşğul olan bütün tədqiqatçıların ustadı hesab olunur. Onların bir çox məqalələri zamanında görkəmli mifoloqun dərkənarı və xeyir-duası ilə işıq üzü görmüşdür.

1954-cü ildə "Varsaq sözü haqqında" adlı məqaləsi ilə başlayan mifoloji yaradıcılıq "Öləngin izi ilə "uğur" sözü haqqında bəzi qeydlər "Xalçalarımızdakı əjdaha motivlərinin mifoloji kökləri", "Dədə Qorqud" boyalarındakı "günortac" və "ortac sözlərinin etimoloji təhlili", "Qorqut" sözünün mənşəyi", "Qazaq" sözünün araşdırılması, "Ağqoyunlu" və "Qaraqoyunlu" etnonimləri haqqında bəzi qeydlər, "Kitabi-Dədə Qorqud"da bəzi sözlərin etimologiyasına dair", "Alı kişi və Koroğlu obrazlarının prototipləri haqqında", "Hun mifologiyasına dair qeydlər", "Mifik təfəkkürü araşdırarkən", "Qızıl döyüşçünün taleyi" və digər məqalələrlə təxminən 40 ilə qədər ağır, çətin bir yol gələrək Azərbaycan mifologiya elmini yaradıb, inkişaf etdirib, heyrətediləcək dərəcədə zənginləşdirib. Bu baxımdan Azərbaycan ədəbiyyatşünaslığında Mirəli müəllimin xidməti əvəzsizdir.



Sonralar bu məqalələr "Azərbaycan mifik təfəkkürünün qaynaqları", "Qızıl döyüşçünün taleyi", "Azərbaycan xalqının soykökünü düşünərkən" kitablarında öz əksini tapdı.

M.Seyidovun mifologiya ilə bağlı bir məqaləsini xüsusilə qeyd etmək istərdik: "Xızırı türkdilli xalqlar yaratmışdı?

Dirilik suyunu içib, əbədi həyat qazanmış ərəb Xıdır-Xızır haqqında məşhur rəvayət dolaşmaqdadır.

Ancaq Mirəli müəllim ilk dəfə olaraq elmi şəkildə sübut etdi ki, Xızır heç də ərəblərin Xıdırı deyil, onu türkdilli xalqlar yaratmışdı. O, fikrini əsaslandırmaq üçün bir sıra qaynaqlara - o, cümlədən Başqırd dastanı "Uralbatr"a müraciət etmişdir.

Mirəli müəllimin yaradıcılığında böyük türk dünyası əhatə olunurdu: qazaxlar, türkmənlər, qırğızlar, başqırdlar, yaqutlar, xakaslar, noğaylar və eləcə də qədim türk qəbilələri. Hələ 20-25 il bundan əvvəl Mirəli müəllimin "pantürkist" damğası ilə sıxışdırılmasının başlıca səbəbi bu idi. Görkəmli mifoloqun kitablarını oxuduqda bir cəhət də diqqəti cəlb edir: o, kimliyindən asılı olmayaraq, hər hansı bir dəlil verənin adını belə unutmur, hər kəsin haqqını öz adına yazır.

1982-ci il. İstanbulda 4-cü türkoloji konqress keçirilir. Bu mötəbər məclisdə Azərbaycanı 2 alim təmsil edirdi: professor Zərifə Budaqova və Mirəli Seyidov.

Mirəli müəllim "Azərbaycan mərasimlərində teatr ünsürləri ("Yuğ mərasiminə əsasən") mövzusunda məruzə edir. Sonra suallar başlayır. Sanki bu tanınmış alimi çoxdan axtarırdılar. Verilən suallardan birinin genişliyini nəzərə alan Mirəli müəllim iclasın sədrindən əlavə vaxt istəyir və suala əhatəli cavab verir. Elə bu andaca dünya şöhrətli türk alimi Mehmet Kaplan kürsüyə yaxınlaşıb Azərbaycan aliminin iki qolundan yapışıb "Köpək oğlu türk" deyərək Mirəli müəllimin o üz, bu üzündən öpür və üzünü məclis iştirakçılarına tutub deyir: "Bu o Mirəli müəllimdir ki, keçən il "Ulduz" jurnalının ikinci nömrəsində gedən məqaləsində türk xalqlarının dünyanın ən əski xalqlarından olduğunu bir daha sübut etdi" (Söhbət "Qızıl döyüşçünün taleyi" məqaləsindən gedir.). Xatırladaq ki, M.Seyidov həmin məqaləsilə mənşəyi mübahisələrə səbəb olan saqların məhz türk qəbiləsi olduğunu ilk dəfə olaraq elmi şəkildə aydınlaşdırdı.

M.Seyidov böyük vətənpərvər idi.

1988-ci il. 17 noyabr - 5 dekabr hadisələri. Yuxarı Qarabağı istəyən ermənilər Topxana meşəsini qırıb dağıdırdılar. Xalq ayağa qalxıb, Azadlıq meydanı insan axını ilə Xəzər kimi dalğalanır. Güclü külək əsir. Saçları üzünə tökülmüş Mirəli müəllim ermənilərin qondarma "böyük Ermənistan" xəritəsini (onu hadisələrdən bir neçə il əvvəl biz İrəvandan gətirib ona vermişdik) əlində tutub, ermənilərin bütün alçaq niyyətlərini, gələcək planlarını xalqa açıqlayırdı. Həmin günlərdə o, meydanda bir neçə dəfə çıxış etdi. M.Seyidov qeyrətli, cəsarətli vətəndaş alim idi.

Bu barədə vida mərasimində professor Bağır Bağırovun dediyi sözləri bir daha xatırlatmaq yerinə düşər. Vaxt var idi ki, professor Cəfər Cəfərova, Xalq şairi Rəsul Rzaya çoxları salam verməyə qorxduqları halda, Mirəli müəllim onlarla qol-qola gedirdi. Babək hansı dildə danışmışdı, deyə o zaman MK-nın katiblərindən biri soruşduqda, adını akademik qoyan kəslər susduğu zaman Mirəli müəllim cəld yerindən "Babək türk dilində danışmışdı" - deyə cavab vermişdi.

Mirəli müəllim vəfatından təxminən 20-22 gün əvvəl Milli Yaradıcılıq Akademiyasının fəxri üzvü seçilmişdi. İki gün sonra eşidib, təbrik etməyə getdim. Çox sevinirdi. Demək olar, sevincinin həddi-hüdudu yox idi. Bu ad Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor M.Seyidova verilən son yüksək fəxri ad idi.

O dəfələrlə Azərbaycan EA-nın müxbir üzvlüyünə təqdim edilsə də, bu ad ona "çox" görüldü. Görəsən, respublikanın M.Seyidov kimi neçə alimi varmış?

M.Seyidov hərtərəfli inkişaf etmiş alimi idi - mifoloq, folklorşünas, dilçi, tarixçi və s. Azərbaycan EA-nın müxbir üzvü M.İsmayılov deyir ki, biz 50-ci illərdə "Azərbaycan tarixi" kitabını yazarkən Mirəli müəllim öz dəyərli məsləhətləri ilə çox köməklik göstərdi.

Artıq neçə ildir ki, Mirəli müəllim aramızda yoxdur. Ancaq hər an, hər elmi məclisdə, həyatda onun yeri görünür.

Ancaq, təəssüflər olsun ki, biz onu vaxtsız itirdik. Bakı küçələrindən biri M.Seyidovun adını daşıyır. Onun yaşadığı evin divarına xatirə lövhəsi vurulmuşdur.

**Əsgər ZEYNALOV,**
**filologiya elmləri doktoru, professor.**

# VİRTUAL SOYQIRIMI

Ermənistan bu il aprelin 24-də qondarma erməni "soyqırımının" yeni ildönümünü" qeyd edir. Hər dəfə də bu qondarma tarixlə bağlı yazılıb-pozulanların gözünə yeni absurd ideyalar qatır, sərsəmlik dərəcəsinə çatdırdıqları bu düzməcələri dünya ictimai rəyinə sırımağa çalışırlar. Haqlı olaraq düşünürsən ki, "Ermənilər illərdir ki, xəstə təxəyyülün məhsulundan ibarət olan bir tarix icad edib onu virtuallaşdıraraq elə bu aləmlərində yaşayırlar...". Həm də ən dəhşətlisi odur ki, bu virtual aləmdə düzüb qoşduqlarına utanıb çəkinmədən dünyanın bir hissəsini də inandırmağa çalışırlar.

Onsuz da bu saxta iddiaların ildönümləri Sovet rəhbərliyinə dürtülmüş erməni mikoyanların, kostandyanların, sitaryanların təkidi ilə ötən əsrin 50-ci illərində Sovet İttifaqında da qeyd edilirdi. Başqa cür də ola bilməzdi. Çünki rusların yaxın köməkliyi ilə Qafqaza köçürülən ermənilər Pyotrun vəsiyyətlərinə uyğun olaraq müsəlmanlar içərisində "xristian anklavının" yaradılmasına nail ola bilmişdilər. Halbuki Rusiya ilə İran arasında Azərbaycanı bölən Gülüstan (1813) və Türkmənçay (1828) sülh müqavilələrinə qədər bu ərazilərdə bir dənə də olsun erməniyə rast gəlmək olmazdı. Elə Osmanlı imperiyasının Şərqi Anadolu ərazilərinə də ermənilər Fərat və Dəclə çayları arasındakı Mesopotomiya ərazilərindən köçüb gəlmişdilər. Bunu ona görə xatırlatmağı lazım bilirik ki, ermənilər vay-şivən qopararaq bütün dünyaya səs salırlar ki, qondarma soyqırımda guya 1,5 milyon erməni öldürülüb. Saxtalığı şübhə doğurmayan bu rəqəm akademik Maarın belə bir ifadəsini təsdiqləyir ki, "Ərzurumdan Vana qədər böyük ərazidə 1914-cü il Osmanlı siyahıyaalmalarına görə ermənilərin sayı heç 900 min nəfərə çatmırdı (Terrorizmin qurbanları. "Yeni Azərbaycan" 12.03.2002, N45). Ciddi tədqiqatlar göstərir ki, bu tarix real tarixdən çox erməni tarixçilərinin təxəyyül səyləri hesabına düzəldilmiş həkayətdir". (Azərbaycan tarixi. Bakı, 2005). Erməni uydurmaları bununla bitmir ki. Onların öz tarixlərini saxtalaşdırıb şişirtməyə meyilli olduqlarını elə erməni tarixçilərinin özləri də etiraf edirlər. Bu nöqteyi-nəzərdən Xarkovda yaşayan erməni tarixçisi Filipp Ekozyantsın fikirləri diqqətçəkicidir: "Mən çoxdan bir maraqlı fakta diqqət kəsilmişəm. Bütün sivil dünya - ABŞ-dan tutmuş Çinə, İsraildən Norveçə kimi - Ermənistanı Ermənistan, erməniləri - erməni adlandırır. Ancaq dünyada bir azsaylı, cırtdan deyilə biləcək qədər kiçik bir xalq var ki, onun dilində "erməni" və yaxud ona az da olsa oxşayan başqa bir söz yoxdur... Nə qədər paradoksal olsa da, bu xalq - ermənilərdir. Onlar bütün dünyadan fərqli olaraq özlərinə "hay" deyir, öz Vətənlərini isə "Hayestan" adlandırırlar".

Yəni "erməni" sözünə əsla oxşamayan bir adın erməni təhtəl şüurunda möhkəm kök salması da təsdiq edir ki, bu xalqın adından tutmuş tarixinə qədər hər şey təkcə saxta, qondarma təxəyyülün məhsulu olmayıb, həm də psixoz dərəcəsinə çatdırılmış psixi natamamlıq kompleksinə söykənir. Yoxsa Nuhun gəmisi, "sivilizasiyanın ilk məskəni", "dənizdən dənizə dövlət" və s. neçə-neçə buna bənzər sayıqlamalar erməni iddialarında yer tapa bilməzdi.

Bir dəfə ermənilər haqqında növbəti tarixi sayıqlamaları oxuyarkən özümə birbaşa belə bir sual verdim ki, bəlkə bu "hay" xalqının erməni xalqına heç bir dəxli yoxdur? Bəlkə bu "hay" xalqının tamam ayrı, öz tarixi var və bəlkə bu tarixin doğrudan da nəsə böyüklüyə yaxın ola biləcək fərqli cəhətləri var. Həm də ola bilsin "hay" xalqı başqa ad altında və başqa bir keçmişlə yaşayır? Amma diqqət etdikdə görürsən ki, bu başabəla xalqın həqiqətən də iki tarixi var - biri həqiqi, biri uydurma. Amma bu tarixin uydurma olan tərəfi daha ağır basır və radikal millətçilik azarına tutulmuş erməniləri öz sehrinə daha çox çəkir. Elə bunun nəticəsidir ki, ermənilər tərəfindən bu haqda artıq çoxlu sayda şişirtmə kitablar yazılıb, hətta "dost" və "düşmənlər"in, "qəhrəmanlar" və "satqınlar"ın adları da müəyyən edilib... Amma bu öz kitablarında nə qədər çalışsalar da belə qənaət hasil olur ki, sonuncu erməni dövləti 2 min il əvvəl mövcud olub. O vaxtdan XX əsrə kimi ermənilərin, ümumiyyətlə, dövləti və dövlətçiliyi olmayıb. Özləri də köçəri qaraçılar kimi o ölkə sənin, bu ölkə mənim səfil-sərgərdan baş alıb gəziblər. Sakit, dinc, həm də ləyaqətli həyatı yalnız Osmanlı imperiyası dövründə tapıblar. Di gəl ki, erməni xisləti onlara burada da sona qədər adam kimi yaşamağa imkan verməyib.

Bəli, ermənilər öz tarixlərini qədimiləşdirməyi, bir vaxtlar "dənizdən-dənizə uzanan Ermənistan" haqqında əfsanəni, Ermənistanın "qədim xristianlığın ən inkişaf etmiş sivilizasiya mərkəzi" olması haqqında həyasız iddiaları az eşitməmişik. Bütün bu müəmmalardan sonra ağlı başında olanlar bir qrup siyasi şarlatanın "hay" xalqını necə tarixi-psixi tələyə saldığını aydın şəkildə görür və aydınca başa düşürlər ki, o tələdən xalq heç cür çıxa bilmir, gah forpost, gah quberniya, gah da kiminsə hərbi bazalarının saxlanma meydançası olur. Tələnin bir forması da ondan ibarətdir ki, bu xalq yalnız əsassızlığı şübhə doğurmayan faktlara əsaslanan bir tarixi deyil, sırf xəyalların məhsulu olan bir tarixi şişirtməklə məşğuldur və o xalqın tarixindən danışırıq ki, o, özünü indiyə qədər adlandırdığımız kimi yox, tamam başqa cür adlandırır. Azərbaycan tarixçilərinin tədqiqatlarına əsaslanaraq deyə bilərik ki, biz "tarixi Ermənistan" deyilən ərazidə ta bu minilliyin əvvəllərinə qədər nələr baş verdiyini dəqiq bilirik, yəni sonuncu erməni çarı II Tiqran Fərat sahillərində Bizans imperatorluğu tərəfindən məğlub edildikdən sonra XX əsrin əvvəllərinə qədər erməni dövlətçiliyi olmayıb. Akademik Yaqub Mahmudov demişkən, "Bütün məsuliyyətimlə bəyan edirəm ki, ermənilər nəinki Cənubi Qafqaza, ümumiyyətlə, Asiya qitəsinə köçüb gəlmə əhalidir. Ermənilərin gəlmə olduğunu mənbələr və "tarixin atası" Herodot təsdiq edir".

Passionar enerji haqqında nəzəriyyənin banisi, görkəmli tarixçi Lev Qumilyov qeyd edir ki, müasir ermənilər yalnız mədəni əlamətlərinə görə erməni, etnik məzmunlarına görə isə qarışıq millətdirlər. Bu məzmunda köçəri qaraçı tayfalarından tutmuş əsrlərlə iç-içə yaşadıqları türklərin parçaları var.

Nə qədər qəribə olsa da, riyaziyyat üzrə elmlər doktoru Klesov da yazır ki, çoxmillətli Osmanlı imperiyasının tərkibində yaşayan ermənilər heç vaxt etnik özünüdərk və özünəməxsusluğa malik olmayıblar, daha çox Osmanlı imperiyasının böyük parçası olan türklərin antropoloji xüsusiyyətlərini özlərində əxz ediblər. Hətta ermənilərin DNT-nin riyazi dəqiqliklə aparılmış genealoji testləri də erməni əhalisinin türk əhalisi ilə identikliyini birə-bir sübuta yetirib.

Vicdanı olan hay xalqının bəzi nümayəndələri isə dəqiq bilir ki, o, son bir neçə əsr ərzində, ən azı 400 il Osmanlı imperiyasının tərkib hissəsi olub, orada onlara ləyaqətli münasibət bəslənilib, sadə insanlar bir-biri ilə yanaşı yaşayıb, normal həyat tərzi sürüblər. Osmanlılar isə yüksək tolerantlıq nümunəsi göstərərək onlara "əzizi-millət" ləqəbini vermişdi.

Amma zori balayanlar, silva kaputikyanlar erməniləri inandıra biliblər ki, onların öz qonşuları ilə, ən yaxın xalqlarla heç bir ortaq bağları yoxdur, son 400 illik tarixləri, yəni bütün Osmanlı dönəmi onların tarixi deyil və guya bu 400 ildə böyük Osmanlı imperiyasının, zəngin, qüdrətli və maarifləndirici bir dövlətin tamhüquqlu üzvləri yox, hüquqsuz qulları olublar. Halbuki lənətlənən Osmanlı dövründə erməni xarici işlər, maliyyə, daxili işlər nazirləri, orduda yüksək mövqe tutan generallar haqqında yetərincə söz açmaq olar.

Tarixçi Ekzoyantsın etiraf etdiyi kimi, "Bizim heç bir başqa dövlətimiz gerçəkdə mövcud olmayıb. Varisi yalnız erməni xalqı olan dövlət də yüz faiz olmayıb. Mən yalnız təsdiqlənmiş və hamıya məlum olan faktlara əsaslanaraq öz keçmişimiz haqda həqiqətə inanıram".

Di gəl, bu tarix ermənilərin Türkiyə və Azərbaycana qarşı kin qusduqları bugünkü günlərdə işlərinə gəlmədiyinə görə öz tarixləri hesab etmirlər, onu yad sayır və sevmirlər. Halbuki bu tarixi dönəm haqda Rusiyadan tutmuş İrana, Avropa və ABŞ-a kimi ölkələrin arxivlərində olduqca böyük sayda səhih sənədlər, sübutlar var. Ən başlıcası bunlar Ermənistanın və təbii ki, Türkiyənin arxivlərində də var. Osmanlı dönəminədək olan tarix isə qaranlıqlar və boşluqlarla, şişirtmələrlə doludur, xəstə təxəyyülün, boş fantaziyaların məhsulundan savayı bir şey deyil. İnkişaf etmiş xristian sivilizasiyası, "dənizdən dənizə dövlət" xəyalları da onun kimi. Bir çoxlarının fikrincə, bu sualın cavabı çox sadədir və üzdə, ən görməli yerdədir: bu da odur ki, hay xalqı bütün dünyaya böyük Osmanlı imperiyası kimi məlum olan bir imperiyanın hissəsi olduqlarını və əsl tərəqqiyə də bu imperiya daxilində çatdıqlarını etiraf etmək istəmirlər.

Amma onlar öz miskin xislətlərinə uyğun olaraq bu imperiyaya xəyanət etdilər. Özü də necə? Bu haqda tarixi həqiqətlər nə deyir? I Pyotr vəsiyyətlərində ruslara guya pravoslavlığın mərkəzi İstanbulu (Konstantinopolu) və ona bağlı Anadolu yarımadasını tutmağı vəsiyyət etmişdi. Ümumiyyətlə, bir gözü cənubun isti sularında olan Rusiya imperiyası bu yolda başlıca maneə kimi Osmanlı imperiyasını görürdü. Bu isə bir neçə qanlı rus-türk müharibəsinə səbəb olmuşdur. 1877-1878-ci il rus-türk müharibəsi rusların qələbəsi, Bolqarıstanın Osmanlı imperatorluğunun təkibindən çıxmasını təsbit edən Ədirnə sülh müqaviləsi ilə başa çatdı. Bundan ruhlanan ruslar Qafqaz istiqamətində də Osmanlı imperatorluğunu təhrik edən hərəkətlərə başlayır. I Dünya müharibəsinin (1914-1918) başlaması Rusiyaya Osmanlı imperiyasına qarşı cəbhənin açılmasına imkan verdi. Türklərin rus təcavüzünü durdurmaq üçün başlatdıqları Sarıqamış istiqamətindəki əməliyyatları uğursuzluqla nəticələnir. Rusların qarşısını almaq üçün göndərilmiş 80 min nəfərlik ordu hissələri şaxtalı havada donaraq həlak olur. Bu, rusların Qafqaz bölgəsində daha da fəallaşması üçün bir siqnal oldu. Onlar Qars-Sarıqamış istiqamətində hücuma keçərək Türkiyənin Şərqi Anadoludakı ərazilərini işğal etməyə başlayırlar. Osmanlı təbəələri olan ermənilərin rus qoşunlarına yardımı da elə bu dövrdən başlayır. Onların bir hissəsi könüllü olaraq rus ordusunun tərkibinə daxil olur, rusların köməyi və təlimləri altında nizami ordu dəstələri yaradaraq açıq surətdə Osmanlıya qarşı döyüşürdülər. Osmanlı imperiyasının paytaxtında hələ də müəyyən vəzifələr tutan ermənilər rusları kəşfiyyat materialları ilə təmin etməklə onların sürətli hücumuna ciddi surətdə yardım göstərirdilər. Andranik adlı erməni Osmanlı ordusunun Baş Qərargahından mühüm hərbi sirlərin Rusiyaya ötürülməsində ifşa olundu. O cəzalandırılaraq bir qulağı kəsildi və ordudan qovuldu! Ruslar tərəfə keçən Andranik erməni könüllü dəstələrinin təşkili və onların silahlandırılmasında böyük rol oynadı. Sonradan o, Osmanlı və Azərbaycan türklərinin soyqırımında fəal iştirak edən quldur dəstələrinin, onlara başçılıq edən Dro, Njde, Amazaps kimi quldurbaşılarının yetişməsinə də öz alçaq töhfəsini verdi.

Artıq ciddi hərbi-siyasi fəaliyyətləri ilə seçilən Qnçak (1878), Daşnaksütyun (1879) partiyaları da silahlı komitələr yaratmaqla bu quldur dəstələrinin sıralarını genişləndirdi. Bu, həm də rus qoşunlarının I Dünya müharibəsi ərəfəsində Şərqi Anadoluda geniş istilalar edərək Ərzuruma qədər irəliləməsinə şərait yaratdı (Y.Qazıyev. Erməni məsələsi. Qafqaz Universiteti. 1993.).

Osmanlı dövləti ermənilərin bu xəyanətini cavabsız qoya bilməzdi. İmperatorun 1914-cü ildə verdiyi qərarnamə ilə Şərqi Anadoluda yaşayan ermənilərin imperiyanın başqa əyalətlərinə köçürülməsilə bağlı əmr verildi. Qərarın icrası Şərq cəbhəsinin komandanı Qarabəkir Paşanın üzərinə qoyuldu. Məqsəd ruslara agentlik edib, onlarla birlikdə Osmanlı qoşunlarına arxadan zərbə vuran erməni silahlı dəstələrinin tərksilah edilməsi, onlara rəğbət bəsləyən mülki əhalinin isə dinc yolla digər ərazilərə köçürülməsindən ibarət idi. Köç siyasəti əsasən dəmir yolu vasitəsilə həyata keçirilirdi. Bundan başqa, xeyli at və öküz arabaları da ayrılmışdı. Köç olaylarına 1915-ci ilin martında start verildi. 900 minə yaxın ermənının 650 mini dəmir yolu ilə Mersin şəhərinə, oradan isə o zamankı Osmanlı imperiyasının tərkib hissəsi olan Livan, Suriya, İraq, Misir ərazilərinə köçürüldü. Köç zamanı hər hansı repressiya tədbirlərinə əsla əl atılmayıb. Yalnız köç prosesində bəzi xəstəliklərin, xüsusilə difteriya və malyariya xəstəliklərinin yayılması nəticəsində müəyyən qədər ölüm halları baş verdi. Bu, uşaqlar, qocalar və qadınlar arasında daha geniş yayılırdı.

**(davamı 8-ci səhifədə)**

# Universitetlər arasında əməkdaşlıq protokolu imzalanıb

**Yıldız Teknik Universitetinin rektoru, professor Bahri Şahin və universitetin dekanı dr. Sezgin Bakırdere Bakı Mühəndislik Universitetində olub. Geniş tərkibdə təşkil olunan görüşdə BMU-nun struktur bölmə rəhbərləri də iştirak edib.**



Universitetin rektoru, professor Havar Məmmədov Azərbaycan-Türkiyə əlaqələrinin bütün sahələrdə olduğu kimi təhsil sahəsində də yüksək səviyyədə olduğunu qeyd edib. Rektor qonaqlara gənc ali təhsil ocağı olan Bakı Mühəndislik Universitetinin fəaliyyəti və hədəfləri barədə ətraflı məlumat verib. Qeyd edib ki, universitetin kadr potensialı və maddi-texniki bazası yüksək səviyyədədir. İxtisasların əksəriyyətində tədris ingilis dilində aparılır və universitetdə geniş imkanları olan texnopark da fəaliyyət göstərir. Bu göstərdiklərim müsbət amil olsa da gənc universitet olduğumuz üçün inkişafımızın sürətlənməsində beynəlxalq əməkdaşlığın rolu böyükdür. Bu baxımdan düşünürəm ki, sizinlə əməkdaşlıq bizim nailiyyətlərimizə töhfə olacaq.

Yıldız Teknik Universitetinin rektoru, professor Bahri Şahin rəhbərlik etdiyi universitet haqqında məlumat verib. Bildirib ki, 37915 tələbənin təhsil aldığı universitetdə 11 fakültə, hər fakültənin tərkibində də bir neçə ixtisas fəaliyyət göstərir. Adından göründüyü kimi texniki universitet olsa da iqtisadi və pedaqoji ixtisaslar da mövcuddur. Dünya üzrə 661 universitetlə əməkdaşlıq edirik ki, bunlardan da 6-sı Azərbaycan universitetləridir. Bu gündən isə bu əməkdaşlığımıza Bakı Mühəndislik Universiteti də qoşulacaq. Əməkdaşlığımız çərçivəsində müəllim-tələbə mübadiləsi, birgə elmi konfranslar, seminarlar, texnoparklararası layihələr və bu kimi digər fəaliyyətlər həyata keçirəcəyik.

Sonda universitetlər arasında əməkdaşlıq protokolu imzalanıb.

**M.MİRZƏ,**
**"Respublika".**

# "Kütləvi çıxarış" kampaniyası Balakənin ucqar kəndlərində

Vətəndaş məmnuniyyəti və rahatlığına xüsusi diqqət edən və bunu daim ön planda tutan Əmlak Məsələləri Dövlət Komitəsi öz fəaliyyət sahəsində sosialyönümlü tədbirləri davam etdirir. Komitə göstərdiyi xidmətlər üzrə əlçatanlığın təmin edilməsi, şəffaflığın artırılması istiqamətində mühüm yeniliklər həyata keçirir.

İnsan və sosial amillərin önə çəkildiyi yeni layihələrlə, işlərlə ictimaiyyətin qarşısına çıxan Komitə ənənəsinə sadiq qalmaqda davam edir. Belə ki, ölkədə keçirilən "Kütləvi çıxarış" kampaniyası artıq intensiv xarakter alıb. Növbəti kampaniya ölkənin sərhəd rayonu olan Balakənin ucqar əraziləri Qabaqçöl qəsəbəsini, Qaysa, Yeni Şərif, Meşəşanbul kəndlərini əhatə edib. Bu isə həmin kəndlərdə yaşayan sakinlərin rayon mərkəzinə gəlməsini aradan qaldırır. Həmin kəndlərdən olan 200-ə yaxın sakinə qeydiyyatla bağlı xidmət göstərilib. Qabaqçöl qəsəbəsindən 75 ailə, Qaysa kəndindən 60, Yeni Şərif



kəndindən 45, Meşəşanbul kəndindən isə 20 ailə xidmətlərdən yararlanıblar. Onlardan 80-ə yaxın sakinə birbaşa yaşadıqları ərazilərdə əmlaklarına dair çıxarışlar təqdim olunub. Bunlardan 40-ı Qabaqçöl qəsəbəsinin, 20-si Qaysa, 11-i Yeni Şərif, 9-u Meşəşanbul kəndinin payına düşür. Verilən çıxarışların 40-ı pay torpaqlarının, 25-i fərdi yaşayış evlərinin, 15-i həyətyanı torpaq sahəsini əhatə edib. Kampaniya çərçivəsində mobil ofislərə müraciət edən 100-ə yaxın sakindən isə öz əmlaklarına dair çıxarış almaq üçün ilkin hüquq müəyyənedici sənədlər qəbul edilib.

Qeyd edək ki, əmlakın ilkin qeydiyyatı, yəni, ilk dəfə sənədləşdirilməsi zamanı çöl-ölçmə işinin aparılması tələb olunur. "Kütləvi çıxarış" kampaniyasında isə işlər elə təşkil edilib ki, ilkin qeydiyyat üçün sənədlər qəbul edilərkən, sakinlərin istəklərinə uyğun olaraq birbaşa çöl-ölçmə işləri də aparılır. Bununla da qeydiyyat prosesində vaxt itkisi tamamilə aradan qaldırılır. Məhz bu kampaniya çərçivəsində də bir sıra sakinlərin əmlakının texniki parametrlərinin müəyyən edilməsi və texniki sənədlərinin hazırlanması məqsədilə tədbirlər görülür.

Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən bu ilin sonunadək paytaxt və regionlarda mobil ofis xidmətləri, həmçinin "Kütləvi çıxarış" kampaniyaları davam etdiriləcək.

**Nəriman CAVADOV,**
**"Respublika".**

# Qrossmeyster Vüqar Həşimovun xatirəsinə həsr olunmuş Shamkir Chess 2018 turniri mərasimi



**Açılış mərasimində Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı Alimpaşa Məmmədov bildirib ki, Şəmkirdə beşinci dəfə belə bir mötəbər turnirin təşkil olunması böyük hadisədir. Əvvəlki dörd turnirin Synergy Group tərəfindən təşkil edildiyini, bu dəfəki yarışın isə SOCAR tərəfindən keçirildiyini xatırladan icra başçısı SOCAR nümayəndəsi, Şahmat Federasiyasının vitse-prezidenti Mahir Məmmədova təşəkkürünü bildirib.**

FİDE-nin (Beynəlxalq Şahmat Federasiyası) prezidenti Kirsan İlyumjinov Vüqar Həşimovu güclü şahmatçı kimi xatırladığını bildirib və onu özlərinin dostu adlandırıb. Şəmkir artıq şahmatın mərkəzinə çevrilib və bütün dünyada tanınmağa başlanıb.

Daha sonra şəmkirli rəssam Fərman Hüseynov Kirsan İlyumjinova portretini əks etdirən hədiyyə bağışlayıb. Bundan sonra Gənclər və İdman Nazirliyinin nümayəndəsi Fərid Mansurov və Şahmat Federasiyasının vitse-prezidenti Mahir Məmmədov çıxış edib. Vüqar Həşimovun atası Qasım Həşimov da çıxış edənlər arasında olub: "Mənim üçün bu çıxışlardan sonra danışmaq asan deyil. Əvvəlki dörd turnirin təşkilatçısı Synergy Group və indiki yarışın təşkilatçısı SOCAR-a da böyük təşəkkür düşür. 2009-cu ildə Vüqar Həşimovun da üzvü olduğu Azərbaycan komanda şəklində Avropa çempionu oldu. Bu tək idmanda olan nailiyyət yox, intellektual şəkildə Azərbaycanın qələbəsi idi".

**Eyvaz HƏMİD,**
**"Respublika".**

# İqtisadi bolluğa, xoş güzərana töhfə verənlər

Meliorasiya və su təsərrüfatı işçiləri ölkəmizdə ərzaq bolluğuna, gün-güzəranın daha da yaxşılaşmasına təmənnasız xidmət göstərən nəcib peşə sahiblərindəndir. Yayın qızmar günlərində, qışın oğlan çağında —bir sözlə bütün fəsillərdə su-meliorasiya işçilərinin qayğısı yetərincə olur. Məhz onların gecəli-gündüzlü gərgin əməyi, çalışdıqları sahədə göstərdikləri canyanğısı ölkəmizdə aqrar sahənin durmadan inkişafına, hər il min hektarlarla əkin sahələrində məhsul bolluğuna nail olunmasına, kənd ada-



mının əziyyətinin hədər getməməsinə səbəb olur.

Ədalət naminə söyləmək lazımdır ki, Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin demək olar ki, təşkilatlarında yaradılmış dəmir intizam, sahənin bütün strukturlarının işə doğma münasibəti uğurların mayasını təşkil edir desək, yəqin ki, səhv etmərik. Uzun illərdən bəri müxtəlif bölgələrdə müşahidə etdiyimiz və bu gün də təsdiqini tapan diqqət və qayğı ilə bahəm möhkəm tələbkarlıq sahənin bütün əməkdaşlarının həyat kredosudur.

Aqrar sahənin inkişafını su kimi həyati əhəmiyyət kəsb edən müqəddəs nemətsiz təsəvvürə belə gətirmək mümkün deyil.

Bu yaxınlarda Bərdə rayonunda Prezidentimiz cənab İlham Əliyevin sədrliyi ilə pambıqçılığın inkişafına dair respublika müşavirəsində ölkə başçısı meliorasiya işçilərinin əməyinə yüksək qiymət verərək demişdir: *"...Son illərdə meliorasiya sahəsində böyük layihələr icra edilmişdir. On minlərlə hektar torpaqda meliorativ tədbirlər görülmüşdür. O cümlədən Bərdə rayonunda və digər rayonlarda bu sahəyə çox böyük vəsait ayrılmışdır və digər kompleks tədbirlər görülmüşdür. Pambıqçılığın inkişafı ilə mərkəzləşdirilmiş idarəetmə sistemi yaradılmışdır. Prezident Administrasiyası, yerli icra orqanları, şirkətlər, fermerlər, zəhmətkeşlər artıq bir nöqtəyə vuraraq yaxşı nəticələrə imza atmışlar. İki il ərzində əldə edilmiş rəqəmlər bunun ən yaxşı göstəricisidir".*

Son illərdə bütün bölgələrimizdə olduğu kimi, Ağdaş rayonunda da aqrar sahənin inkişafı üçün xeyli işlər görülmüş, rayon iqtisadiyyatında xüsusi çəkisi olan, lakin məlum səbəblərdən vaxtilə unudulmuş pambıqçılıq, çəltikçilik, tərəvəzçilik, baramaçılıq və s. sahələrdə bu gün dövlət qayğısı, həmçinin rayon rəhbərliyinin səriştəli münasibəti sayəsində xeyli uğurlar əldə olunmuşdur.

Rayonun ən münbit, əkinə daha çox yararlı sahələrin xeyli hissəsi Kür çayı boyunca olan ərazilərdədir. Bu torpaqların həyat mənbəyi illərdən bəri Kür və Türyançay çayları olmuşdur.

Bu ərazidəki Pirəzə kəndində yerləşən, qədim tarixi olan Pirəzə Mexaniki Suvarma İdarəsi bu bölgənin həyat mənbəyidir desək, yanılmarıq.

Təxminən 10 min hektara yaxın sahəni suvarma suyu ilə təmin edən idarə 1943-cü ildə yaradılmışdır. Ərazidə yaşayan ağsaqqalların söylədiklərinə görə vaxtilə Yevlax, Zərdab və Ağdaş rayonlarının Kürqırağı ərazilərinin suvarılmasında müstəsna əhəmiyyəti olan hidrotexniki qovşaq 1953-cü ildən sonra yenidən qurulmuş, burada istifadə edilən nasos və digər texniki qurğular bir qədər müasirləşdirilmiş, maddi-texniki baza yaradılmışdır. Bu gün dövlət qayğısı ilə müasir standartlara cavab verən maşın-texnika parkına, yaraşıqlı, hər cür şəraiti olan inzibati binaya və ən başlıcası isə işgüzar kollektivə malik olan Pirəzə Mexaniki Suvarma İdarəsinə təcrübəli meliorator İlham Əliyev rəhbərlik edir. Kollektivə rəhbərlik etdiyi son beş il ərzində idarədə yaradılmış işgüzar mühit, kollektivin işə bəslədiyi böyük məsuliyyət idarənin rayondakı təşkilatlar arasında nüfuzunu xeyli artırmışdır.

Onunla aqrar sahə üçün ən məsuliyyətli dövrdə, bu günlərdə görüşdük. Görülmüş işlərdən, həyata keçirilən tədbirlərdən söhbət düşəndə idarənin rəisi qeyd etdi ki, Pirəzə Mexaniki Suvarma İdarəsi Kür çayının sol sahilində yerləşir. Kür və Türyançay çaylarında quraşdırılmış müxtəlif məhsuldarlıqlı nasos stansiyaları vasitəsilə Ağdaş və Yevlax rayonlarının 11 kəndini, həmçinin ərazidə salınmış meşə əkinlərinin mexaniki üsulla suvarılmasını təmin edir. Cari ilin ötən dövründə, başqa sözlə desək, birinci rübdə Kür və Türyançay çaylarından 27998,0 kubmetr su verilməsi planlaşdırılmış, faktiki olaraq 27992,0 kubmetr su, ayrıc nöqtəsindən 12407,0 kubmetr sahəyə isə 10519,0 kubmetr su verilmişdir.

Təkrar ötürmə yolu ilə 11010,0 kubmetr su verilmiş, 7869 hektar sahə suvarılmışdır.

Bununla yanaşı idarənin kollektivinin səyi nəticəsində 627 hektara yaxın həyətyanı sahələrin suvarılması da həyata keçirilmişdir.

Suvarma sistemində işin ahəngdarlığını təmin etmək məqsə-



dilə rüb ərzində 8 ədəd hidrotexniki qurğu cari təmir edilmiş, qurğuların ətrafındakı 2 min kubmetr kol-kos təmizlənmiş, 0,8 kilometr boru kəmərlərinin cari təmiri həyata keçirilmişdir. Rayonun Kotavan və Xınaxlı kəndlərinin əkin sahələrinin su təminatının yaxşılaşdırılması üçün 2 pilləli dizel aqreqatlı nasos stansiyasının, təzyiqli boru kəmərinin su aparıcı kanalının təmiri başa çatmaq üzrədir.

İdarənin rəisi sonda onu da vurğuladı ki, işin həcmi, gündəlik qayğılar kollektivimizi qorxutmur.

Dövlətimizin yüksək diqqəti Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyinin, şəxsən hörmətli sədrimiz Əhməd Əhmədzadənin gündəlik qayğısı, bizə göstərdiyi köməklik sayəsində bundan sonra da bütün tapşırıqları uğurla icra edəcək, qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gələcəyik.

**İlham PƏNAHOV,**
**"Respublika".**

# VİRTUAL SOYQIRIMI

(əvvəli 7-ci səhifədə)

Köç hadisələrindən danışarkən hayların dilində heç vaxt olmayan "genosid" sözü o qədər də uzaq olmayan bir dövrdən işlənir. Bəli, ötən əsrin əvvəllərində böyük xəyanət və onun labüd nəticəsi kimi köç hadisələri baş verib. Nə baş verib, köç zamanı çoxu dəmir yolu, az bir qismi isə arabalarda daşınan ermənilərin 170-200 min nəfəri aclıq və xəstəlikdən, daha çox isə yol boyu tüğyan edən, qadınların bərbəzəyinə, köçürülənlərin var-dövlətinə göz dikmiş kürd (quldurları) eşqiyaları tərəfindən öldürüldü. Cinayətkarlar elə türk xalqının özü tərəfindən tutulub edam edildi. Bu, müstəsna olaraq türk xalqının iradəsi əsasında baş verib. Hər halda, o vaxt türk xalqından belə bir məhkəməni heç kim tələb etmirdi və tələb edə də bilməzdi. Türk xalqının tolerantlığı, multikultural ənənələri, öz təbəələri olan ermənilərə isti münasibəti baş verənlərin dərinləşməsinin qarşısını aldı. Bəli, xəyanətin labüd cavabı kimi köç hadisəsi baş verdi və bu bəla Osmanlının erməni təbəələrini az qala bütün imperiyaya ərazisinə səpələdi. Türkiyə mənbələrində sadəcə olaraq "köç" adlandırılan bu hadisə Osmanlı təbəələrinin bəziləri arasında böyük imperiyalardan sonra həmişə müşahidə olunan bir uçurum yaratdı. İdeya dəllalları bu uçurumu dərinləşdirmək üçün bütün qüvvələrini sərf etdilər. Lakin bütün baş verənlər lap yaxınlaradək mövcud olmuş bir faktı - ermənilərin və digər xalqların bir vahidin, Osmanlının hissələri olması faktını inkar etmir.

Fəqət dünyanın aparıcı gücləri hay və türk xalqlarına barışıq imkanını vermədilər. O baş verdi ki, hadisədən 30 il sonra - 40-cı illərdə yəhudi xalqının polşalı nəslindən olan biri "genosid" sözünü fikirləşib tapdı. Və o, öz din qardaşları ilə birgə and-aman edib bütün dünyanı inandırmağa çalışdı ki, Osmanlı imperiyasında köç yox, məhz genosid baş verib. Beləcə dünya ictimai rəyinə provakasyon bir müddəa atıldı və o, erməni millətçi dairələri tərəfindən göydəcə tutuldu. Və dünya da baş verənlərin necə adlanmasına laqeyd olduğundan, yeni bir məhkəmə, yeni etiraflar və yeni cəzalar tələb edilməyə başlandı - özü də bu hadisələri həyata keçirmiş və artıq həyatda olmayanlara qarşı yox, bütöv türk xalqına qarşı. Hətta bunun fərqinə belə varmaq istəmirlər ki, erməni xalqının başına genosid ideyasını yeridənlər öz murdar fəaliyyətlərinə 30 il sonra - XX əsrin 40-cı illərində başlayıblar. Və məhz o vaxt "genosid" sözü və anlayışı meydana çıxıb və tədricən ermənilərin gündəminə yerləşməklə bu günədək davam edir. Bu genosidin mahiyyəti də ondan ibarətdir ki, əslində bəziləri siyasi alət olaraq erməni xalqını real dünyadan tarixi saxtakarlıqlar və xəyallar üzərində qurulan virtual dünyaya köçürmək və bu zəmində türk xalqını tarixi seytnota salmaq istəyirlər.

Belə götürəndə, ermənilərin genosidi iddia edildiyi kimi və ya bu narahat xalqı inandırmağa çalışdıqları kimi, heç də 100 il öncə baş verməyib. Ona qalsa XVII-XVIII əsrlərdə Amerika qitəsində 70 milyondan çox aborigen hindunu qırıb-çatmış anqlo-sakslar, ispanlar, portəgizlər, fransızlar da ittiham obyektinə çevrilərdi. 1962-ci ildə fransızlar işğal edilmiş Əlcəzair ərazilərində günahları yalnız azad olmaq istəyən 1 milyona qədər insanı qətlə yetirdilər. Bu gün də Myanmada davam edən müsəlman qətliamları 200 mindən çox insanın həyatını aparıb. Elə erməni vandallarının bəzi iri dövlətlərin qəyyumluğu ilə 1828-ci ildən 1920-ci ilə qədər böyük bir coğrafi ərazidə - Qars, İğdır, Urmiya, Qərbi Azərbaycan, Şimali Azərbaycanın bütün ərazilərində 2 milyondan çox azərbaycanlını qətlə yetirmələrinin tarixi-siyasi qiymətini almaması da tarixə ikili standartlarla yanaşmanın bədnam göstəricisidir. Bu fonda kimlərinsə ermənilərə həqiqi tarix əvəzinə virtual qədimilik, virtual böyüklük anlayışlarını sırıyıb onları divanəlik həddinə çatdırmaları fərqli sivilizasiyalara yanaşmanın daha bir göstəricisi olmaqla bərabər, ermənilər üzərində psixo-tarixi eksperimenti həyata keçirməklə, əslində onların özlərini özlərinin düşməninə çevirərək bu oyuncaq xalqı virtual bir ideyanın miskin daşıyıcısına çevirmişlər.

Bu hadisələrin bu günlərdəki təqdimatı, xüsusən xristian dövlətlərinin parlamentlərində yeni ultimatumlar paketi, yeni iddialar toplusu meydana gətirməklə erməniləri yeni bir xəyalplov havasına kökləyərək inandırmağa çalışırlar ki, yəhudi mənşəli polyak vəkilin fikirləşib tapdığı bu sözü bütün dünya tanıyacaq, türklərdən böyük təzminat, hətta ola bilsin az da olsa torpaq və bir də türklərin Ağrı, ermənilərin isə Ararat dediyi dağı geri qaytaracaqlar. Xalis dəli-divanəlik deyilmi? Hay xalqı üçün, erməni xalqı üçün qurulmuş, süslənə-süslənə ona lap körpəlikdən təqdim edilən soyqırımı adında psixo-tarixi tələ də elə məhz budur.

Son dövrlər ermənilərin bu istiqamətdə fəaliyyətləri daha da güclənib. Onlar erməni lobbisinin yaxından köməyi ilə müxtəlif ölkələrin parlamentlərinə müraciət edərək bədnam soyqırımın baş verdiyini, ona görə də onun pislənməsi ilə bağlı qərarlar qəbul etdirməyə çalışır, buna qismən nail ola bilirlər. Bu məsələdə bəzi Qərb ölkələri, xüsusən Fransa, İsveçrə, Hollandiya daha çox fəallıq göstərir. Məsələyə Vatikan kilsəsinin qarışması, Papa Frensiskin qondarma soyqırımı XX əsrdə ilk soyqırımı kimi təqdim etməsi xristian təəssübkeşliyinə və dinin siyasətə alət edilməsinə bir nümunədir.

Bu ölkələr və qurumlar unudurlar ki, Türkiyə dəfələrlə hər iki ölkənin arxivlərinin açılmasını, tarixçilərdən ibarət beynəlxalq heyətin həmin dövrdə baş vermiş hadisələrin araşdırılmasını təklif edib. Bundan boyun qaçıran Ermənistan məsələni siyasiləşdirməkdə davam etməklə daha çox ölkənin qondarma soyqırımı tanımasına, məsələni Beynəlxalq Məhkəmə səviyyəsinə qaldıraraq Türkiyədən təzminat qoparılmasına nail olmağa çalışır.

Birmənalı sübut olunmuşdur ki, tarixdə erməni soyqırımı adlı hadisə olmayıb. Ən azından ona görə ki, bunu sübut edəcək heç bir fakt, əşyayi-dəlil, videomaterial yoxdur. Üstəlik erməni yalanlarının qondarmalığı bir də onunla təsdiqini tapır ki, bu saxta iddia ilə bağlı bir dənə də olsun məhkəmə hökmü yoxdur. Məsələn, yəhudi Holokostunu sübut edən çoxsaylı dəlillər onu Nürnberq mühakiməsində bütün detallarına qədər aşkarlaya bildi. Ermənilər isə bu məsələdə quru sözdən uzağa gedə bilmirlər.

Ekozyants kimi bir çox ermənilər etiraf edirlər ki, ermənilərin soyqırımı məhz indi aparılır. Onların o qədər himayədarları peyda olub ki, tarixi hadisələri saxtalaşdırıb bəhanə qismində istifadə edərək erməni xalqını real dünyadan, müasir sivilizasiyadan kəsib ayırmaq, onları türklərə, azərbaycanlılara, hətta gürcülərə qarşı qoymaq istəyirlər. Özü də bunu əfsus ki, kifayət qədər uğurla etməyə çalışırlar və bəzən də nail olurlar. Ermənilərin bu cür sürrealist tələbləri və iddiaları artıq ona gətirib çıxarıb ki, onlar bölgənin bütün irimiqyaslı layihələrindən kənarda qalıb, coğrafi əhatələrində büsbütün davakar, militarist xarakterli bioloji tullantıya çevriliblər. Onlar heç cür anlaya bilmirlər ki, həm "soyqırım" anlayışının yaradıcıları, həm də qonşulara qarşı mənəvi, tarixi və ərazi iddialarının təşkilatçıları - hansılar ki, çox gözəl şəkildə erməni xalqının qurbanlıq obrazını tərənnüm edirlər - əslində bu xalqın amansız və məkrli düşmənləridir. Elə bu səbəbdəndir ki, işğal edilmiş Azərbaycan ərazilərinin azad olunmasına dair 4 BMT Təhlükəsizlik Şurasının Qətnaməsinin olmasına baxmayaraq bu istiqamətdə aparılan sülh danışıqları ermənilərin destruktiv mövqeyi ucbatından həmişə dalana dirənir. Ermənilər başa düşməlidir ki, onlar artıq tarixi Azərbaycan torpaqlarında bir dəfə öz müqəddəratlarını təyin edib öz dövlətlərini qurublar. İkinci dəfə Azərbaycan torpaqlarında yeni erməni dövlətinin yaradılmasına Azərbaycan xalqı əsla və əsla icazə verməyəcək.

Beləcə, ermənilər on illərdir ki, onlara tamamilə yad olan insanlar tərəfindən düşünülmüş olduqca ağır "genosid" xaçı ilə dünyada veyillənir, kiminə təzim edir, kiminə ağlıyıb-sıtqıyır, bir sözlə, özlərinin məşəqqətlər çəkmiş əzabkeş obrazını yaratmaq naminə hər cür əskikliyə gedirlər. Bu müddətdə genosid sözü hərfi mənada ermənilərlə qovuşub, həm də doğmalaşıb. O, hər bir erməni ailəsinin üzvü olub, icazəsiz və çəkinmədən onların qəlbində yuva salıb və əslində bu xalqın həyati şirələrini oradan sorur. Bu xalq qapalı, qəzəbli, kinli Yanusa çevrilib və uydurduğu səf-səfəni qəbul etmək istəməyən hər kəsi məhv etməyə hazırdır, çünki o hamıdan "ən qədim, ən böyük, ən əzabkeşdir". Multikulturalizmin və tolerantlığın geniş yayıldığı müasir dünyada bu cür mənəviyyatla sivilizasiyalı dünyaya qovuşmaq bəlkə də mümkün olmayacaq.

Hər halda, ermənilər arasında öz sağlam mühakimə qabiliyyətini və zəkasını qoruyub saxlayanlara da rast gəlinir. Onlar hamısı bir səslə tələb edirlər ki, qondarma soyqırımı iddialarından əl çəkməyin çoxdan vaxtı çatıb, yəhudilər real Holokost cinayətinə görə almanlarla münasibəti pozmayıblarsa, biz qondarma iddialarla dünyanı nə qədər bir-birinə vurmağa çalışmalıyıq? Xocalı soyqırımının, işğal edilmiş 20 faiz Azərbaycan torpaqlarının və orada həyata keçirilmiş etnik təmizləmələrin 1 milyonluq qurbanlarının, saya gəlməyən deportasiya qurbanlarının ibrətləri də bizləri buna çağırır.

Erməni tarixçisi Ekzoyants səmimi olaraq ermənilərə müraciət edir: Mən bilirəm və əminəm ki, bizim xalq öz yaddaşını, bütün doğmalarını özünə qaytarmalıdır. Onu necə var, elə də qəbul etməlidir. Söhbət həm Türkiyə, həm Azərbaycan xalqından gedir.

Mən bu xalqları bizdən hansı ardıcıllıqla aralayıblarsa və hansı ardıcıllıqla aralamada davam edirlərsə, o ardıcıllıqla da sıraladım. XIX əsrin sonlarında türkləri, XX əsrin sonlarında qəti olaraq azərbaycanlıları bizim düşmənlərimizə çevirdilərsə, indi də ruslara qarşı xalqımıza uğurlu şəkildə nifrət virusu peyvənd edirlər. Odur ki, nə qədər ağır da olsa biz öz real, təbii ailəmizə qayıtmalıyıq. Əgər bunu etməsək, mən əminəm: biz məhv olacağıq, həll olub gedəcəyik.

Mən bizim virtual qədimliyimizin, qədim böyüklüyümüzün konkret nədən ibarət olduğunu göstərmək və əsas bu suala cavab vermək üçün öz üzərimə məsuliyyət götürürəm: kim və nə üçün bizi aldadır? Digər bütün xalqlar kimi bizim də qədim keçmişimiz var. Ancaq əfsus ki, onun haqda dəqiq heç nə, yaxud demək olar, heç nə məlum deyil.

Azərbaycan tarixşünaslığı həm dəfələrlə baş verən Ermənistan ərazilərindən azərbaycanlıların deportasiyasını, həm də 1905-ci ildən başlayan və saysız-hesabsız qurbanlarla müşayiət olunan Osmanlı və Azərbaycan türklərinə qarşı erməni qətliamlarını araşdıraraq əslində soyqırımdan daha çox Azərbaycan türklərinin əziyyət çəkdiyini isbata yetirmişdir. Ə.Ağaoğlu 1905-ci ildə "S.Peterburqskiye vedomosti" qəzetinin 22-25 aprel sayında "Bakı hadisələrinə dair" məqaləsində yazırdı ki, elə həmin vaxtdan bu qırğınlar Bakı sərhədlərini aşaraq əksər Azərbaycan bölgələrini, xüsusən Qarabağ bölgəsini daha geniş miqyasda əhatə etmişdir. Həm də bu soyqırımlar 1916-cı ildən şiddətlənərək Türkiyə ərazisində Qars, İğdır, Cənibi Azərbaycanda Urmiyaətrafı bölgələri, Qərbi Azərbaycanın (indiki Ermənistan) əksər bölgələrini, eləcə də Şimali Azərbaycanın bir çox ərazilərini ağzına alır (İ.Məmmədov, S.Əsədov. Ermənistan azərbaycanlıları və onların acı taleyi. B., 1992.). Bakı şəhərində erməni vandalizmi daha böyük qırğınlarla müşayiət olunur. Şaumyanın bolşevik-daşnak dəstələri ilə birgə hərəkət edən erməni bandit dəstələri 1918-ci ilin martında təkcə bir gecədə 20 minə qədər azərbaycanlını soyqırıma məruz qoydu. Njdenin, Dronun, Amazapsın qaçaq-quldur dəstələri ölkənin şimal-şərq rayonlarında, xüsusən də Quba uyezdində daha amansız qətliamlara rəvac verdilər. Bu məsələlər Yusif Qazıyevin "Erməni məsələsi" adlı monoqrafik təhlilində daha geniş təfərrüatı ilə açılmışdır. Son vaxtlar orada tapılmış toplu məzarlar qırğınların nə qədər amansız və qəddar olduğunu əyani surətdə ortaya qoyur. Qırğınlar hətta Qubada yaşayan dağ yəhudilərini, eləcə də Qusar ləzgilərini əhatə etməsi erməni vandalizminin gerçək simasını əks etdirir. Ən təqribi hesablamalar sübut edir ki, ermənilərin bu vəhşilikləri nəticəsində 2 milyona qədər Azərbaycan türkü və minlərlə Türkiyə türkü qətlə yetirilmişdir. Hələ deportasiyalar zamanı həlak olan və yaxud ağır şəraitin doğurduğu xəstəliklərdən vəfat edənləri buraya daxil etmirik.

Sovet hakimiyyəti illərində ermənilərə qondarma soyqırımdan danışmağa icazə verilsə də, Azərbaycan türklərinə qarşı ermənilərin törətdikləri irimiqyaslı qırğınlar haqqında faktların tədqiq edilməsinə qətiyyən icazə verilmirdi. Amma hər il "Pravda" qəzeti qondarma erməni soyqırımına dair məqalə dərc edir, ermənilərin çoxsaylı "genosid" tədbirlərinə geniş meydan verilirdi.

Yalnız müstəqillik illəri ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımı və deportasiyaların faktlarını sənədlərlə açmağa imkan verdi, ulu öndər Heydər Əliyevin 1998-ci il martın 26-da verdiyi fərmanla hər il martın 31-i ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımı günü kimi qeyd edilməsi qərara alınıb. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın "Xocalıya ədalət!" adı altında keçirdiyi tədbirlər seriyası ermənilərin Xocalıda törətdikləri vəhşilikləri bütün dünyaya çatdırmaq imkanı verib (Zaur Mirzəli. Dinc dövrdə soyqırım. Moderator.az. 15.02.2015). Artıq dünyanın 8 ölkəsinin, ABŞ-ın 16 ştatının qanunvericilik məclisləri Xocalı qətliamını insanlığa qarşı cinayət kimi tanıyıb.

Bütün bunlar onu göstərir ki, ermənilərin dünyaya sırıdıqları yalanlar dağılmaqda, bu regionda baş verən həqiqətlər tədricən də olsa özünə yol açmaqdadır.

**Qabil HÜSEYNLİ,**
**fəlsəfə elmləri doktoru, professor.**

## DÜNYA BUGÜN
**FAKTLAR, HADİSƏLƏR, ŞƏRHLƏR**

### ❑ LAVROV: RUSİYA-ABŞ HƏRBİ QARŞIDURMASINA İMKAN VERİLMƏYƏCƏK



"Vladimir Putin və Donald Tramp Rusiya-ABŞ hərbi qarşıdurmasına imkan verməyəcəklər". "APA"nın məlumatına görə, bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrov müsahibəsində bəyan edib.

Verilən xəbərə görə, Rusiya XİN başçısı bildirib ki, hər iki prezident öz xalqları tərəfindən seçilmiş liderlərdir, onlar xalqları qarşısında sülh və əmin-amanlığa cavabdehdirlər.

Eyni zamanda, Sergey Lavrov Donald Trampın Vladimir Putini Ağ evə dəvət etməsi məsələsinə də münasibət bildirib. O deyib: "Donald Tramp telefon danışığı zamanı Vladimir Putini Ağ evə dəvət edib. Cavab səfəri zamanı da görüşməkdən məmnun olacağını bildirib. Belə bir görüşə hələlik hazırlıq getmir. Lakin Rusiya prezidenti bu görüşə hazırdır".

Bununla yanaşı, Sergey Lavrov Şimali Koreya və Cənubi Koreya liderlərinin, həmçinin Donald Trampın Kim Çen Inla görüşünü şərh edərək qeyd edib ki, Rusiyanın bu məsələ ilə bağlı hər hansı təşəbbüs irəli sürməli olduğunu düşünmür. "Biz iki Koreya dövləti liderləri arasında apreldə baş tutacaq görüşü, həmçinin may-iyun aylarında nəzərdə tutulmuş Tramp-Kim Çen In görüşünü alqışlayırıq" , - deyə Sergey Lavrov əlavə edib.

### ❑ ALMANİYA RUSİYA İLƏ BAĞLI ABŞ-a MÜRACİƏT EDƏCƏK

Almaniya hökuməti yerli biznesi Rusiyaya qarşı sanksiyalardan azad etmək üçün Amerika Birləşmiş Ştatlarının prezidenti Donald Trampa müraciət etmək niyyətindədir. "APA"nın məlumatına görə, bu barədə "The Wall Street Journal" nəşri xəbər yayıb.



Xəbər verildiyinə görə, bu məsələni ölkənin maliyyə naziri Olaf Şolts amerikalı rəsmilərlə müzakirə etməyi düşünür. Bununla yanaşı, Almaniya kansleri Angela Merkel ilə ABŞ prezidenti Donald Tramp arasında aprelin sonunda keçiriləcək görüşdə də iqtisadi məhdudiyyətlərin müzakirə ediləcəyi gözlənilir.

Eyni zamanda, qəzet yazır ki, məsələ konkret şirkətlər deyil, ümumilikdə Almaniya biznesi ilə bağlıdır. Belə ki, böyük şirkətlərin rəhbərləri məsələ ilə əlaqədar kansler və hökumətə təzyiq göstərirlər.

Məlumat üçün qeyd edək ki, ABŞ-ın sanksiya siyahısına "Siemens", "Daimler" və "Volksagen" kimi şirkətlərin əməkdaşlıq etdiyi Rusiya şirkətləri daxil edilib. Sahibkarlar rusiyalı həmkarları ilə əməkdaşlığa maneələrin törədilməsi nəticəsində yüz milyonlarla avro itirməkdən narahatdırlar.

### ❑ B.ƏSƏD "FƏXRİ LEGİON" ORDENİNİ FRANSAYA GERİ GÖNDƏRDİ



Bəşər Əsəd 17 il əvvəl təltif olunduğu "Fəxri Legion" ordenini Fransaya geri göndərib. "APA"-nın məlumatına görə, bu barədə Suriya prezidentinin dəftərxanasından açıqlama verilib.

Xəbər verilir ki, sözügedən orden hazırda Suriyaya qarşı Fransanın siyasətini dəstəkləyən Rumıniyanın Dəməşqdəki səfirliyi vasitəsilə geri göndərilib.

Rəsmi Dəməşq bu addımı aprelin 14-də ABŞ, Böyük Britaniya və Fransanın Suriyanı bombalamasına etiraz olaraq atıb.

"Suriya prezidenti artıq bu ordeni daşımaq istəmir. Bu ordeni verən ölkə müstəqil deyil, ABŞ-ın quludur", - deyə açıqlamada qeyd olunur.

Xatırladaq ki, bir neçə gün öncə Parisdə "Fəxri Legion" ordeninin Bəşər Əsəddən geri alınması ilə bağlı prosesə start verilib. Orden 2001-ci ildə Suriya dövlət başçısına Fransanın o vaxtkı prezidenti Jak Şirak tərəfindən verilmişdi. ■

**Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti**

***Tikinti, elektrik, sanitar texniki materialların, yüksək gərginlikli elektrik xətləri üçün dəmir dayaqların, təsərrüfat alətlərinin, elektrik avadanlıqlarının, kondisionerlərin, mebel inventarların, "SMART-KART" tipli elektrik sayğaclarının alınaraq quraşdırılması işlərinin və təbii qaz xəttinin çəkilişi işlərinin satınalınması məqsədilə***

**AÇIQ TENDER ELAN EDİR**

| Tender 11 (on bir) lot üzrə keçirilir: | | İştirak haqqı (manatla) |
|---|---|---|
| Lot 1 | Tikinti materialları | 450 |
| Lot 2 | Sanitar texniki materiallar | 250 |
| Lot 3 | Elektrik materialları | 250 |
| Lot 4 | Yüksək gərginlikli elektrik xətləri üçün dəmir dayaqlar | 200 |
| Lot 5 | Elektrik lampaları | 100 |
| Lot 6 | Təsərrüfat alətləri və tullantı qutuları | 100 |
| Lot 7 | Elektrik avadanlıqları | 200 |
| Lot 8 | Kondisionerlər | 250 |
| Lot 9 | "SMART-KART" tipli elektrik sayğaclarının alınaraq quraşdırılması işləri | 220 |
| Lot 10 | Mebel inventarları | 800 |
| Lot 11 | Təbii qaz xəttinin çəkilişi işləri | 750 |

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Zərifə Əliyeva küçəsi-30 ünvanında yerləşən Dövlət Sərhəd Xidməti Aparatının inzibati binasından ala bilərlər.

**Hesab:** Dövlət Xəzinədarlığı Agentliyi kod: 210005; VÖEN 1401555071; M/h: AZ41NABZ01360100000000003944; S.W.İ.F.T BİK: CTREAZ22; Dövlət Sərhəd Xidməti VÖEN 1700360581; H/h: AZ19CTRE00000000000002388501; XHK 142319 2388501(2310) fond 3

İştirak haqqı heç bir halda geri qaytarılmır.

**Əlaqə telefonu: (Tel: (012) 498-01-36)**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*-tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*

*-tender təklifi dəyərinin 2 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*

*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından və Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondundan arayış;*

*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*-İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*-İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Tender təklifləri Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır *(xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).*

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri *(tender təklifi, bank zəmanəti və iş qrafiki istisna olmaqla)* 25 may 2018-ci il saat 17:00-dək, tender təklifi, bank zəmanəti və iş qrafiki isə möhürlənmiş ikiqat zərfdə 07 iyun 2018-ci il tarixə saat 16:00-dək Dövlət Sərhəd Xidmətinin Tender Komissiyasına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender təkliflərində sərfəli qiymət və yüksək keyfiyyətlə qiymətləndirilən meyarlara üstünlük veriləcəkdir.

İddiaçıların təklifləri 08 iyun 2018-ci il tarixdə, saat 15:00-da Bakı şəhəri, Zərifə Əliyeva küçəsi-30 ünvanında yerləşən Dövlət Sərhəd Xidməti Aparatının inzibati binasında açılacaqdır.

İddiaçı və ya onun notarial qaydada təsdiqlənmiş sənədlə müvəkkil etdiyi şəxslər tender prosedurunun açılışında iştirak edə bilərlər.

**Dövlət Sərhəd Xidmətinin**
**Tender Komissiyası.**

**Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti**

***müşahidə qüllələrinin təmiri və mühəndis maneələrinin quraşdırılması üçün tələb olunan materialların, əl ilə işlədilən yüngül konstruksiyalı otbiçən aqreqatın və "КЧП" tipli sinklənmiş tikanlı məftilin satınalınması məqsədilə***

**AÇIQ TENDER ELAN EDİR**

| Tender 4 (dörd) lot üzrə keçirilir: | | İştirak haqqı (manatla) |
|---|---|---|
| Lot 1 | Müşahidə qüllələrinin təmiri üçün tələb olunan materiallar | 150 |
| Lot 2 | Əl ilə işlədilən yüngül konstruksiyalı otbiçən aqreqat | 30 |
| Lot 3 | "КЧП" tipli sinklənmiş tikanlı məftil | 200 |
| Lot 4 | Mühəndis maneələrinin quraşdırılması üçün tələb olunan materiallar | 70 |

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Zərifə Əliyeva küçəsi-30 ünvanında yerləşən Dövlət Sərhəd Xidməti Aparatının inzibati binasından ala bilərlər.

**Hesab:** Dövlət Xəzinədarlığı Agentliyi kod: 210005; VÖEN 1401555071; M/h: AZ41NABZ01360100000000003944; S.W.İ.F.T BİK: CTREAZ22; Dövlət Sərhəd Xidməti VÖEN 1700360581; H/h: AZ19CTRE00000000000002388501; XHK 142319 2388501(2310) fond 3

İştirak haqqı heç bir halda geri qaytarılmır.

**Əlaqə telefonu: (Tel: (012) 498-01-36)**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*

*-tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*

*-tender təklifi dəyərinin 2 %-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*

*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından və Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondundan arayış;*

*-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*

*-İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*-İddiaçıların müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Tender təklifləri Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun tələblərinə uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi, bank zəmanəti və iş qrafiki istisna olmaqla) 25 may 2018-ci il saat 17:00-dək, tender təklifi, bank zəmanəti və iş qrafiki isə möhürlənmiş ikiqat zərfdə 07 iyun 2018-ci il tarixə saat 16:00-dək Dövlət Sərhəd Xidmətinin Tender Komissiyasına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Tender təkliflərində sərfəli qiymət və yüksək keyfiyyətlə qiymətləndirilən meyarlara üstünlük veriləcəkdir.

İddiaçıların təklifləri 08 iyun 2018-ci il tarixdə, saat 15:00-da Bakı şəhəri, Zərifə Əliyeva küçəsi-30 ünvanında yerləşən Dövlət Sərhəd Xidməti Aparatının inzibati binasında açılacaqdır.

İddiaçı və ya onun notarial qaydada təsdiqlənmiş sənədlə müvəkkil etdiyi şəxslər tender prosedurunun açılışında iştirak edə bilərlər.

**Dövlət Sərhəd Xidmətinin**
**Tender Komissiyası.**

**Baş redaktor**
**Teymur ƏHMƏDOV**

● **Redaksiyanın telefonları:**

İqtisadiyyat və islahatlar redaksiyası: **539-95-51;**
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: **538-55-20;**
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: **539-95-51;**
Humanitar siyasət redaksiyası: **539-26-18;**
Xəbərlər redaksiyası: **538-61-02;**
İctimai rəy və sosial problemlər redaksiyası: **539-95-51; 538-43-41 tel/faks;**
Qəbul otağı: **538-25-70;**
Katiblik: **539-26-18;**
Reklam və elan xidməti: **441-20-23.**



● **Redaksiyanın ünvanı:**

AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
**E-mail:** resp@azdata.net
www.respublica-news.az

*"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

**İndeks** 0240
**Tiraj** 4292
**Sifariş** 023

Qəzetin satış qiyməti 40 qəpik

**Məsul növbətçi**
**Nəriman CAVADOV**

● **Çapa imzalanmışdır**
**21.04.2018**